**Azərbaycan Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkili**
**(Ombudsman)**

# İŞGƏNCƏLƏR ƏLEYHİNƏ MİLLİ PREVENTİV MEXANİZMİN FƏALİYYƏTİNƏ DAİR

## H E S A B A T

**(2021-ci il üzrə)**

**Bakı – 2022**

Təqdim olunan hesabatda BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolunda nəzərdə tutulmuş Milli Preventiv Mexanizm funksiyalarını yerinə yetirən Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) bu sahədə 2021-ci il üzrə həyata keçirdiyi fəaliyyət, irəli sürülən təklif və tövsiyələr yer almışdır.

Müvəkkilin Milli Preventiv Mexanizm funksiyalarının həyata keçirilməsi prosesində İşgəncələrə Qarşı Komitənin (CAT), İşgəncələrin Qarşısının Alınması üzrə Altkomitənin (SPT) və İşgəncələrin qarşısının alınması üzrə Avropa Komitəsinin (CPT), Qadınlara qarşı ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitənin (CEDAW), Uşaq Hüquqları üzrə Komitənin (CRC), Əlilliyi Olan Şəxslərin Hüquqları üzrə Komitənin (CRPD), habelə BMT-nin İnsan Hüquqları Şurasının Universal Dövri İcmal üzrə (UPR) İşçi Qrupunun Azərbaycan Respublikasının dövrü məruzələri üzrə verilmiş təklif və tövsiyələri nəzərə alınmışdır.

Aparılmış təhlillər əsasında hazırlanmış məlumatlar, statistik göstəricilər, habelə "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolu hesabata əlavə edilmişdir.

# MÜNDƏRİCAT


**Ön söz**......4
Mətndə istifadə olunmuş anlayışlar və ixtisarlar......6

**BÖLMƏ 1. FAKÜLTATİV PROTOKOLA UYĞUN MİLLİ PREVENTİV MEXANİZM MANDATI**......8
1.1. Fakültativ Protokolun tələbləri......8
1.2. Milli qanunvericilik......9
1.3. Milli Preventiv Mexanizmin fəaliyyət istiqamətləri......10

**BÖLMƏ 2. MİLLİ PREVENTİV MEXANİZMİN FƏALİYYƏTİ VƏ PREVENTİV BAŞÇƏKMƏLƏR**......11
2.1 Preventiv başçəkmələrin təşkili......11
2.1.1. Plan üzrə başçəkmələr......11
2.1.2. Plandankənar başçəkmələr......12
2.2. Başçəkmələrin həyata keçirilməsi......12
2.2.1. Daxili İşlər Nazirliyinin müəssisələri......14
2.2.2. Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin müəssisələri......25
2.2.3. Dövlət Təhlükəsizliyi Xidmətinin müəssisələri......34
2.2.4. Səhiyyə Nazirliyinin müəssisəsi......35
2.2.5. Təhsil Nazirliyinin müəssisələri......41
2.2.6. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müəssisələri......46
2.2.7. Yerli icra hakimiyyəti orqanlarının müəssisələri......49
2.2.8. Dövlət Miqrasiya Xidmətinin tabeliyindəki müəssisələr......52

**BÖLMƏ 3. HÜQUQİ TƏHLİL**......55

**BÖLMƏ 4. MİLLİ PREVENTİV MEXANİZM MANDATI ÇƏRÇİVƏSİNDƏ HƏYATA KEÇİRİLƏN DİGƏR FƏALİYYƏT İSTİQAMƏTLƏRİ**......66
4.1. Hüquqi maarifləndirmə......66
4.2.İctimaiyyətlə əlaqələr və beynəlxalq əməkdaşlıq......67

**BÖLMƏ 5. TƏKLİF VƏ TÖVSİYƏLƏR**......69

Əlavə 1......72

Əlavə 2......74

# ÖN SÖZ

Azərbaycan Respublikası Konstitusiyasının 46-cı maddəsinə əsasən hər kəsin öz şərəf və ləyaqətini müdafiə etmək hüququ vardır. Şəxsiyyətin ləyaqəti dövlət tərəfindən qorunur, heç bir hal şəxsiyyətin ləyaqətinin alçaldılmasına əsas verə bilməz. Həmin maddənin 3-cü hissəsi isə birmənalı şəkildə müəyyən edir ki, heç kəsə işgəncə və əzab verilə bilməz, heç kəs insan ləyaqətini alçaldan rəftara və ya cəzaya məruz qala bilməz. Özünün könüllü razılığı olmadan heç kəsin üzərində tibbi, elmi və başqa təcrübələr aparıla bilməz. Göründüyü kimi, işgəncənin qəti və imperativ şəkildə qadağan edilməsi Azərbaycan dövləti və Konstitusiyanı qəbul edən tərəf kimi Azərbaycan xalqının qəti mövqeyidir.

Azərbaycan Respublikasının 1996-cı ildə tərəfdar çıxdığı, BMT tərəfindən 10 dekabr 1984-cü ildə qəbul edilmiş "İşgəncələr və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növləri əleyhinə" Konvensiya bu cür "ixtisaslaşdırılmış", işgəncə və pis rəftarla bağlı məsələləri kompeks və sistemli şəkildə tənzim edən beynəlxalq akt oldu. Konvensiyanın 1-ci maddəsi "işgəncə" terminınə geniş izah verərək, bu cinayətin törədilməsi məqsədlərini, cinayətin törədən xüsusi subyektlərin dairəsini müəyyən edir, əməlin qəsdən törədilməsini şərt kimi göstərərək işgəncəni "güclü, fiziki, yaxud mənəvi ağır və əzab yetirən hərəkətlər kimi" təsbit edir.

Konvensiyanın 17-ci maddəsinə əsasən, işgəncələr və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiə olunmaq və onlara qarşı aparılan mübarizənin səmərəliliyini artırmaq məqsədilə BMT-nin İşgəncələrə Qarşı Komitəsi yaradılır. Komitə ayrı-ayrı dövlətlərdə işgəncə və pis rəftar məsələləri ilə bağlı məruzələr qəbul edə, məxfi təhqiqatlar apara, təhqiqatların nəticələrini öz illik məruzələrinə daxil edə bilər. Ümumiyyətlə isə, "İşgəncələr və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növləri əleyhinə" Konvensiyaya qoşulmuş dövlətlər öz yurisdiksiyasında olan hər hansı ərazidə işgəncə hərəkətlərinin qarşısını almaq üçün təsirli qanunvericilik, inzibati, məhkəmə və ya digər tədbirlər görür. Xüsusilə vurğulanmalıdır ki, necə olmasından asılı olmayaraq heç bir müstəsna hal: müharibə vəziyyəti və ya təhlükəsi, daxili siyasi qeyri-sabitlik, yaxud hər hansı digər fövqəladə şərait, vəzifəli şəxsin, yaxud dövlət hakimiyyəti orqanının əmri işgəncə verilməsinə bəraət qazandıra bilməz.

2002-ci ilin 18 dekabr tarixində BMT Baş Məclisi tərəfindən "İşgəncələr və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növləri əleyhinə" Konvensiyasının Fakültativ Protokolu (FP) qəbul edildi. Fakültativ Protokolun əsas tələbi işgəncələrin qarşısının alınması üçün azadlıqdan məhrumetmə yerlərinə (şəxsin hər hansı məhkəmə, inzibati və ya digər orqanın qərarı ilə həbsdə saxlanılmasının və ya azadlıqdan məhrum edilməsinin, yaxud öz iradəsi ilə tərk etmə hüququ olmadan dövlət, yaxud özəl saxlama yerinə

yerləşdirilməsinin istənilən forması) müstəqil beynəlxalq və milli orqanlar tərəfindən müntəzəm başçəkmələrin həyata keçirilməsi sisteminin yaradılmasından ibarətdir. İşgəncələrin qarşısının alınmasının ən əlverişli üsulu kimi, bütün azadlıqdan məhrumetmə yerlərində saxlanılan şəxslərlə rəftar və saxlanma şəraitinin monitorinqi məqsədi ilə müstəqil və müntəzəm başçəkmələr sisteminin yaradılması sözü gedən sənədin ehtiva etdiyi əsas ideyadır. Fakültativ Protokola əsasən, preventiv mandata malik olan beynəlxalq və milli qurumlar yaradılır - Altkomitə və Milli Preventiv Mexanizm. Beynəlxalq səviyyədə yaradılmış İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqti alçaldan rəftar və ya cəza əleyhinə Altkomitə (SPT) BMT-nin yeni nəsil saziş qurumudur.

Azərbaycan Respublikası tərəfindən 2 dekabr 2008-ci il tarixdə "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolu ratifikasiya edilmiş və ölkə Prezidentinin 13 yanvar 2009-cu il tarixli Sərəncamı ilə adı çəkilən sənəddə nəzərdə tutulmuş milli preventiv mexanizm (MPM) funksiyalarını yerinə yetirən təsisat qismində Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) müəyyən edilmişdir.

Ötən illər ərzində Ombudsman milli preventiv mexanizm funksiyalarını icra etmiş, fəaliyyətini aşkarlıq və şəffaflıq prinsiplərini rəhbər tutmaqla konfidensiallıq qaydalarına uyğun qurmuşdur.

2021-ci ildə də başçəkmələrin həyata keçirilməsi, hüquqi təhlil işi, hüquqi maarifləndirmə, dövlət qurumları, vətəndaş cəmiyyəti institutları, media, beynəlxalq təşkilatlarla əlaqələr Milli Preventiv Mexanizmin fəaliyyətinin əsasını təşkil etmiş, praktiki yanaşma nümayiş etdirilməklə mövcud qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində təkliflər hazırlanmış, müxtəlif dövlət qurumlarına tövsiyələr ünvanlanmışdır. Diqqətinizə təqdim olunan hesabatda qeyd edilən məsələlər ətraflı işıqlandırılmışdır.

Oxucuları hesabatla diqqətlə tanış olmağa çağırır, hesabatla əlaqədar təkliflərə açıq olduğumuzu bildirir, əvvəlcədən təşəkkür edirik.

**Səbinə Əliyeva**

*Azərbaycan Respublikasının*
*İnsan Hüquqları üzrə Müvəkkili*
*(Ombudsman)*

# MƏTNDƏ İSTİFADƏ OLUNMUŞ ANLAYIŞLAR VƏ İXTİSARLAR

**Azadlıqdan məhrum etmə** – şəxsin hər hansı məhkəmə, inzibati və ya digər orqanın qərarı ilə həbsdə saxlanılmasının və ya azadlıqdan məhrum edilməsinin, yaxud öz iradəsi ilə tərk etmə hüququ olmadan dövlət yaxud özəl saxlanma yerinə yerləşdirilməsinin istənilən forması

**Azadlıqdan məhrum edilmiş şəxs** – barəsində azadlıqdan məhrum etmə tətbiq edilmiş şəxs

**Azadlıqdan məhrum etmə yeri** – şəxsin öz iradəsi ilə tərk etmə hüququ olmadan saxlanıldığı və ya saxlanıla bildiyi istənilən yer

**Aparat** – Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatı

**BMCMİ** – Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi

**BMT** – Birləşmiş Millətlər Təşkilatı

**BNMİ** – Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsi

**BİT**- Bakı İstintaq Təcridxanası

**CÇM** – Cəzaçəkmə müəssisəsi

**CPM** – Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsi

**DİN** – Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi

**DMX** – Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti

**DTX** – Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti

**ƏƏSMN** – Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

**FP** – "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolu

**İHOSM** – İnzibati Həbs Olunanların Saxlanma Mərkəzi

**İXM** – Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi

**İQA** – BMT-nin İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəzaların qarşısının alınması üzrə Altkomitəsi (SPT)

**İQAK** – Avropa Şurasının İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması üzrə Komitəsi (CPT)

**İQK**– BMT-nin İşgəncələrə Qarşı Komitəsi_(CAT)

**İşgəncə** – İşgəncə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza

**İT** – İstintaq təcridxanası

**KİV** – Kütləvi informasiya vasitələri

**Konstitusiya Qanunu** – "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu

**Konvensiya** – BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyası"

**MPQ** – Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatında İşgəncələrin qarşısının alınması üzrə Milli preventiv qrup

**MPM** – BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolunda nəzərdə tutulmuş milli preventiv mexanizm

**MSY** – müvəqqəti saxlama yeri

**Müvəkkil** – Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)

**PB** – Polis Bölməsi

**PX** – Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti

**RPİ** – Rayon polis idarəsi

**RPŞ** – Rayon polis şöbəsi

**ŞRPŞ** – Şəhər rayon polis şöbəsi

# BÖLMƏ 1.

# FAKÜLTATİV PROTOKOLA UYĞUN MİLLİ PREVENTİV MEXANİZM MANDATI

## 1.1. Fakültativ Protokolun tələbləri

2021-ci ildə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə" Konvensiyasının Fakültativ Protokolunda (FP) nəzərdə tutulmuş milli preventiv mexanizmin (MPM) funksiyalarını yerinə yetirən təsisat kimi fəaliyyətini davam etdirmişdir.

Məlum olduğu kimi, FP-nin əsas məqsədi işgəncələrin qarşısının alınması üçün azadlıqdan məhrum edilmiş şəxslərin saxlanıldığı yerlərə müstəqil beynəlxalq və milli orqanlar tərəfindən müntəzəm başçəkmələrin həyata keçirilməsi sisteminin yaradılmasından ibarətdir. FP konstruktiv dialoqun vacibliyini vurğulayır və tənzimlənən münasibətlərə reaksiyaya əsaslanan münasibət deyil, preventiv – qarşısını alma münasibətinin göstərilməsini təsbit edir. FP-nin innovativliyi, həm də onun hər hansı yeni hüquq və ya standartı, yaxud pozulmuş hüquqların bərpasını deyil, mövcud standartın, yəni işgəncəyə məruz qalmamaq hüququnun pozulmasının qarşısının alınmasını əks etdirməsində təzahür edir.

İşgəncələrin qarşısının alınmasının ən əlverişli üsulu kimi, bütün azadlıqdan məhrumetmə yerlərində saxlanılan şəxslərlə rəftar və saxlanma şəraitinin monitorinqi məqsədi ilə müstəqil və müntəzəm başçəkmələr sisteminin yaradılması sözü gedən sənədin ehtiva etdiyi əsas ideyadır. FP-yə əsasən, preventiv mandata malik olan beynəlxalq və milli qurumlar yaradılır (buraya BMT-nin İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəzaların qarşısının alınması üzrə Altkomitəsi (İQA) və MPM-lər daxildir). Beynəlxalq səviyyədə yaradılmış İQA BMT-nin yeni nəsil saziş qurumudur.

FP-nin 17-ci maddəsinin tələblərinə görə hər bir iştirakçı dövlət tərəfindən protokolun qüvvəyə minməsindən və ya onun ratifikasiyasından, yaxud ona qoşulmasından sonra bir ildən gec olmayaraq dəstəklənməli, təyin və ya təsis edilməli olan MPM azadlıqdan məhrumetmə yerlərində saxlanılan şəxslərlə rəftar və saxlanma şəraitinin milli səviyyədə müntəzəm monitorinqlərini aparır. MPM-lərin mandatı ən azı aşağıdakıları əhatə edir:

- azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarla bağlı məsələlərə müntəzəm olaraq baxılması;
- BMT-nin müvafiq normaları nəzərə alınmaqla azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarın və onların saxlanma şəraitinin yaxşılaşdırılması məqsədi ilə

müvafiq qurumlara tövsiyələrin təqdim edilməsi və işgəncələrin qarşısının alınması;

- qüvvədə olan qanunvericilik aktlarına və qanun layihələrinə dair təklif və qeydlərin təqdim edilməsi.

Göstərilən mandatın həyata keçirilməsi üçün, MPM-lərin yaradılması zamanı onların funksional müstəqilliyinin, habelə işçi heyətinin müstəqilliyinin təmin olunması əsas şərtdir.

FP həmçinin MPM-lərin aşağıdakı əsas hüquqlarını təsbit edir:

- azadlıqdan məhrum edilmiş şəxslərin sayı, onlarla rəftar, habelə onların həbsdə saxlanma şəraiti haqqında, həmçinin azadlıqdan məhrum etmə yerlərinin sayı və yerləşdiyi yer haqqında istənilən məlumatı əldə etmək;
- bütün azadlıqdan məhrum etmə yerlərinə maneəsiz daxil omaq;
- azadlıqdan məhrum edilmiş şəxslərlə və ya müvafiq məlumat verə biləcək istənilən şəxslə fərdi söhbətlər aparmaq;
- baş çəkmək niyyətində olduqları yerləri və söhbət etmək niyyətində olduqları şəxsləri maneəsiz seçmək;
- İQA ilə əlaqələr qurmaq, əməkdaşlıq etmək və onunla görüşmək.

## 1.2. Milli qanunvericilik

Azərbaycan Respublikası tərəfindən FP 15 sentyabr 2005-ci il tarixdə imzalanmış, 02 dekabr 2008-ci il tarixli qanunla ratifikasiya edilmişdir.

Müvafiq qanunun dərc edilməsindən etibarən – 15 yanvar 2009-cu il tarixdən FP Azərbaycan Respublikasına münasibətdə qüvvəyə minmişdir.

Azərbaycan Respublikası Prezidentinin 13 yanvar 2009-cu il tarixli Sərəncamı ilə FP-də nəzərdə tutulmuş milli preventiv mexanizmin funksiyalarını yerinə yetirən təsisat qismində Müvəkkil müəyyən edilmişdir.

Konstitusiya Qanununa edilən əlavə və dəyişikliklərlə Müvəkkilin səlahiyyət dairəsi, eləcə də müstəqilliyi FP-də MPM-lər üçün nəzərdə tutulmuş tələblərə cavab verən səviyyəyə çatdırılmış, həmçinin Müvəkkilin MPM qismində fəaliyyətinin həyata keçirilməsi məqsədi ilə Aparatda şəffaf prosedurlar əsasında Milli Preventiv Qrupun (MPQ-nin) yaradılması, onun üzvlərinə dair tələblər, habelə onların hüquqları və toxunulmazlığının təminatları kimi məsələlər təsbit edilmişdir.

Konstitusiya Qanununa əsasən, milli preventiv mexanizmin funksiyalarının həyata keçirilməsi zamanı Müvəkkil və MPQ üzvləri istənilən vaxt, maneəsiz və əvvəlcədən xəbərdarlıq etmədən polis bölmələrinə, müvəqqəti saxlama yerlərinə, istintaq təcridxanalarına, cəzaçəkmə müəssisələrinə (CÇM), qarnizon hauptvaxtlarına, psixiatriya müəssisələrinə və saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi digər yerlərə daxil olmaq; saxlanılan şəxslərlə, habelə müvafiq məlumatı verə biləcək istənilən şəxslə təkbətək və ya zəruri hesab etdiyi halda

mütəxəssisin və ya tərcüməçinin iştirakı ilə görüşmək və söhbət etmək; saxlanılan şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, eləcə də həmin şəxslərlə rəftara və onların saxlanma şəraitinə aid olan bütün sənədlərlə tanış olmaq və surətlərini almaq; akt tərtib etmək, həyata keçirdiyi tədbirlərin gedişini və nəticələrini protokollaşdırmaq hüququ vardır. Müvəkkilin, səlahiyyətli dövlət orqanlarına müvafiq tövsiyələr vermək və həmin tövsiyələrə müəyyən edilmiş müddətdə cavablar almaq hüququ da adı çəkilən qanunda müəyyən edilmişdir.

Ötən müddət ərzində Müvəkkilin MPM qismində fəaliyyətinin effektiv təşkili məqsədilə qanunvericilik aktları təkmilləşdirilmiş, Müvəkkilin və MPQ üzvlərinin yuxarıda göstərilən səlahiyyətləri barədə müddəalar müvafiq qaydada normativ hüquqi aktlarda təsbit edilmişdir.

Müvəkkilin FP-yə uyğun olaraq MPM qismində funksiyalarının səmərəli həyata keçirilməsinin təmin edilməsi məqsədilə BMT-nin İnsan Hüquqları Şurasının Universal Dövri İcmal üzrə İşçi Qrupunun Azərbaycan Respublikasının dövrü məruzələri üzrə verilmiş, habelə İQK (CAT), İQA (SPT) İQAK-ın (CPT) təklif və tövsiyələri də nəzərə alınmışdır.

## 1.3. Milli Preventiv Mexanizmin fəaliyyət istiqamətləri

MPM-nin fəaliyyəti aşağıdakı dörd əsas istiqamət üzrə həyata keçirilən tədbirlərdən ibarətdir:

- Preventiv başçəkmələr – saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə mütəmadi olaraq, plan üzrə və ya plandankənar, əvvəlcədən xəbərdarlıq edilmədən baş çəkilməsi;
- Hüquqi təhlil – həyata keçirilən fəaliyyətin, eləcə də bu fəaliyyətlə əlaqədar toplanmış məlumatların, həmçinin aidiyyəti üzrə daxil olmuş təklif və tövsiyələrin, mövcud, yaxud layihədə olan qanunvericilik aktlarının nəzəri-təcrübi təhlili, əldə olunmuş nəticələrin ümumiləşdirilməsi və müvafiq təkliflərin hazırlanması;
- Hüquqi maarifləndirmə – işgəncələrin qarşısının alınması işinin təşviqi məqsədi ilə Aparatın əməkdaşları, MPQ üzvləri, saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərin işçiləri, eləcə də belə yerlərdə saxlanılan şəxslər, habelə aidiyyəti təhsil müəssisələri və akademiyaların tələbə-müdavimləri üçün hüquqi maarifləndirmə tədbirlərinin təşkil olunması, müvafiq əyani vəsaitlərin hazırlanıb paylanılması;
- İctimaiyyətlə əlaqələr və beynəlxalq əməkdaşlıq – yerli, regional və beynəlxalq təşkilatlarla, həmçinin xarici ölkə MPM-ləri ilə informasiya mübadiləsinin aparılmasının, həyata keçirilən tədbirlərdə qarşılıqlı iştirakın, həmçinin birgə tədbirlərin təşkilinin təmin olunması, habelə MPM-in fəaliyyətinin KİV-də işıqlandırılmasının təşkili

# BÖLMƏ 2.

# MİLLİ PREVENTİV MEXANİZMİN FƏALİYYƏTİ VƏ PREVENTİV BAŞÇƏKMƏLƏR

## 2.1. Preventiv başçəkmələrin təşkili

Fakültativ Protokolun 20-ci maddəsinin "a" bəndinə əsasən, Milli Preventiv Mexanizmlərin öz mandatını yerinə yetirə bilməsi məqsədilə, iştirakçı dövlətlər Fakültativ Protokolun 4-cü maddəsinin tətbiqi üçün şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrin və orada saxlanılanların sayı, yerləşdiyi yer haqqında istənilən məlumatı təqdim etməyi öhdələrinə götürürlər.

Bu məlumatlar Müvəkkilin sorğusu əsasında müvafiq dövlət orqanlarından alınır və həmin sorğular üzrə daxil olmuş məlumatlar əsasında hazırlanmış illik plana uyğun olaraq başçəkmələr həyata keçirilir. Zərurət yarandıqda, ilin sonunda müvafiq orqanlarla dəqiqləşdirmələr aparılaraq növbəti il üçün məlumatlar yenilənir.

Preventiv başçəkmələr əvvəlcədən xəbərdarlıq etmədən həyata keçirilir və bunları plan üzrə başçəkmələr və plandankənar başçəkmələr olmaqla iki qrupa bölmək olar.

### 2.1.1. Plan üzrə başçəkmələr

Plan üzrə başçəkmələr Müvəkkil tərəfindən təsdiq olunan illik plan əsasında həyata keçirilir. İllik planın layihəsi hər ilin sonunda növbəti il üçün MPQ üzvlərinin iştirakı ilə keçirilən iclasda müzakirə olunur, nəticələr protokollaşdırılır, qəbul edilmiş plan təsdiq olunmaq üçün Müvəkkilə təqdim edilir. Planın açıqlanmaması başçəkmələrin effektivliyi baxımından çox əhəmiyyətlidir. Bu səbəbdən onun məxfiliyi MPQ-nin üzvləri tərəfindən təmin olunur.

Bu və ya digər müəssisənin plana hansı ardıcıllıqla daxil edilməsi, həmçinin müəssisəyə təkrar başçəkmələrin təyin edilməsi həmin müəssisənin rejiminin xüsusiyyəti, ötən illərdə şərait və rəftarla əlaqədar qeydə alınmış hallar, ərazi uyğunluğu, eləcə də Müvəkkilin ünvanına daxil olmuş şikayətlərin təhlili nəticəsində MPQ-yə verilmiş məlumatlar kimi amillər nəzərə alınmaqla həyata keçirilir.

Başçəkmənin həyata keçirilməsi üçün sərf olunan vaxt isə müəssisənin həcmindən, orada saxlanılan şəxslərin sayından, rejim və digər xüsusiyyətlərindən, eləcə də başçəkməyə cəlb olunmuş MPQ üzvlərinin sayından asılı olaraq dəyişir.

### 2.1.2. Plandankənar başçəkmələr

Plandankənar başçəkmələr əsas etibarilə əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icrası vəziyyətinin öyrənilməsi, MPM-ə bu və ya digər formada məlumat ötürmüş şəxslərə qarşı təqib hallarının baş verməsinin qarşısının alınması, o cümlədən saxlanılan şəxslərlə aparılan söhbət zamanı onların əvvəllər saxlanıldıqları müəssisə haqqında verdikləri məlumatların və Müvəkkilin ünvanına daxil olmuş şikayətlərin, Çağrı Mərkəzinə daxil olmuş müraciətlərin təhlili, MPQ-yə verilmiş məlumatların araşdırılması, kütləvi informasiya vasitələrində rast gəlinən və MPM-i maraqlandıran informasiyaların yerində yoxlanılması məqsədilə, habelə Müvəkkilin lazım bildiyi digər hallarda həyata keçirilir.

## 2.2. Başçəkmələrin həyata keçirilməsi

Başçəkmələrin effektivliyinin təmin edilməsi üç əsas mərhələnin əhatə olunmasını tələb edir. Bunlar nəzərə alınaraq Azərbaycan MPM-i tərəfindən başçəkmələr aşağıdakı mərhələlər üzrə həyata keçirilir:

- başçəkməyə hazırlıq;
- başçəkmənin həyata keçirilməsi;
- başçəkmədən sonrakı tədbirlər.

Başçəkməyə hazırlıq zəruri məlumatların toplanılması; başçəkmənin məqsədlərinin müəyyən edilməsi; başçəkməni həyata keçirəcək qrupun təşkil edilməsindən ibarət olur.

Hazırlıq zamanı, zəruri məlumatların toplanılması prosesində əvvəlki başçəkmələrdə əldə edilmiş və ya digər mənbələrdən alınmış məlumatlar, Müvəkkilin ünvanına daxil olmuş müraciətlər, KİV-lərdən, sosial şəbəkələrdən alınmış məlumatlar, habelə bəşçəkmənin həyata keçiriləcəyi müəssisənin fəaliyyətini tənzimləyən normativ-hüquqi aktlar və beynəlxalq standartlar təhlil edilir.

Başçəkmənin məqsədləri saxlanılma şəraitinin və rəftarın ümumən qiymətləndirilməsindən; saxlanılma şəraiti və rəftarla bağlı konkret halların öyrənilməsindən (məsələn, intizam cəzalarının həyata keçirilməsi, tibbi xidmətin keyfiyyəti və s.); əvvəlki başçəkmələr zamanı aşkar olunmuş halların aradan qaldırılıb-qaldırılmamasının, habelə verilmiş təklif və tövsiyələrin icrası vəziyyətinin yoxlanılmasından; xüsusi diqqət yetirilməli olan məsələlərin dairəsinin müəyyənləşdirilməsindən və digər tədbirlərdən ibarət olmaqla müəyyən edilir.

Başçəkməni həyata keçirəcək qrupun təşkil edilməsi zamanı qrup üzvlərinin sayı, ixtisası, cinsi və s. amillər nəzərə alınmaqla başçəkmə qrupunun tərkibi

formalaşdırılır, başçəkmənin məqsədindən asılı olaraq başçəkmə və müsahibə suallarının siyahısı, məhkumlarla söhbətin protokollaşdırılması üçün blank formaları, sorğu anketləri və s. hazırlanır.

Başçəkmənin həyata keçirilməsi özündə bir neçə mərhələni ehtiva edir:

Əvvəlcə müəssisənin rəhbərliyi ilə ilkin söhbət aparılır, başçəkmənin məqsədi barədəqrup üzvləri onu məlumatlandırırlar. Daha sonra müəssisə barədə ümumi məlumat alınır.

Müəssisənin rəhbərliyi ilə ilkin söhbətdən sonra müəssisənin binalarına baş çəkilir. Bu zaman orada saxlanma şəraiti – müəssisənin binasının, kamera və ya otaqların vəziyyəti, ölçüsü, tutumu, faktiki yerləşmə, işıqlandırma, ventilyasiya, mebel təchizatı, şəxsi gigiyena və sanitariya şəraiti, qidalanma məsələləri qiymətləndirilir; tibbi xidmətlərin təmin olunması vəziyyəti və s. araşdırılır.

Daha sonra saxlanılan şəxslərlə konfidensial şəkildə söhbət aparılır, sənədlərə baxış keçirilir. Saxlanılan şəxslərlə kollektiv söhbətlərin aparılması əsas etibarilə başçəkmənin məqsədindən asılıdır. Vəziyyətdən asılı olaraq söhbətlərin hansı şəkildə aparılmasını MPQ üzvləri başçəkmə yerində müəyyən edə, yaxud ilkin razılaşmaya düzəliş edə bilər.

Müəssisə əməkdaşları ilə söhbət də başçəkmənin vacib məsələlərindəndir. MPQ üzvləri başçəkmə həyata keçirərkən saxlanılan şəxslərə görə cavabdehlik daşıyan müəssisə əməkdaşlarının rəftar baxımından yanaşmalarını qiymətləndirmək məqsədi ilə onlarla müsahibələr təşkil edirlər. Bəzi hallarda müəssisələrin personalı ilə söhbətlə yanaşı onlar üçün nəzərdə tutulmuş xüsusi sorğu anketlərindən də istifadə olunur.

Başçəkmənin sonunda müəssisə rəhbəri ilə yekun söhbət aparılaraq MPQ tərəfindən aşkar edilmiş hallarla bağlı məlumat verilir. Yerində aradan qaldırıla biləcək məsələlər onun diqqətinə çatdırılır və müvafiq tövsiyələr verilir. Eyni zamanda nəticələrlə bağlı müvafiq yuxarı orqanın rəhbərliyinə müraciət ediləcəyi bildirilir.

Başçəkmədən sonrakı tədbirlər Azərbaycan MPM-nin qənaətinə görə başçəkmənin bilavasitə özündən daha əhəmiyyətlidir. Çünki MPM-in fəaliyyətinin məqsədi yalnız müvafiq yerlərə başçəkmədən ibarət deyil, müxtəlif müəssisələrdə saxlanılan şəxslərlə rəftarın və onların saxlanma şəraitinin yaxşılaşdırılmasına istiqamətlənmiş prosesi təşkil etməkdir.

Məhz ona görə də başçəkmədən sonra onun nəticələrinə dair hesabat tərtib edilir, rəftar və şəraitin yaxşılaşdırılması üçün tövsiyələr hazırlanaraq müvafiq qurumlara göndərilir.

Adətən MPQ-nin zəruri hesab etdiyi hallarda başçəkmədən sonrakı yaxın dövr ərzində müəssisə ilə əlaqədar verilmiş tövsiyələrin icrası vəziyyətinin yerində yoxlanılması məqsədi ilə təkrar başçəkmə günü təyin edilir və müvafiq olaraq həyata keçirilir.

## 2.2.1. Daxili İşlər Nazirliyinin müəssisələri

Ombudsmanın Milli Preventiv Mexanizm (MPM) fəaliyyəti çərçivəsində polis orqanlarına, polis şöbələrinə və bölmələrinə, müvəqqəti saxlama yerlərinə planlı və plandankənar olmaqla 53 başçəkmə həyata keçirilmişdir. Bu müəssisələrdə saxlanılan şəxslərlə fərdi söhbətlər aparılmış, onların saxlanma şəraiti qiymətləndirilmiş, saxlanıldıqları müddət ərzində, habelə tutularkən pis rəftar ehtimalı araşdırılmışdır.

Başçəkmələrdə məqsəd tutulmuş və ya həbs edilmiş şəxslərin Azərbaycan Respublikasının Konstitusiyası, Cinayət-Prosessual Məcəlləsi və digər müvafiq normativ hüquqi aktların tələblərindən irəli gələn hüquq və azadlıqlarının təmin edilməsi vəziyyəti, tutulduqdan dərhal sonra vəkillə təmin edilmələri, ailə üzvlərinə məlumat verilib-verilməməsi, tibbi xidmət, qidalanma, dərman təchizatı, istilik təchizatı və digər məsələlərin yoxlanılmasından ibarət olmuşdur.

Müvəkkil və onun MPQ üzvləri tərəfindən başçəkmələr zamanı rayon (şəhər) polis orqanlarının rəhbərliyi və şəxsi heyəti ilə görüşlər keçirilmiş, onlarla hüquqi maarifləndirmə işi aparılmış, insan hüquq və azadlıqlarının təmin olunmasına xüsusi diqqət yetirilməsinin vacibliyi diqqətə çatdırılmışdır.

MPM fəaliyyəti çərçivəsində Ombudsman tərəfindən *Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin (BMCMİ) müvəqqəti saxlama yerinə başçəkmə həyata keçirilmişdir.*

MSY-nin müxtəlif obyektlərinə baxış keçirilmiş, saxlanma şəraiti, saxlanılan şəxslərin hüquqlarının təmini üçün imkanların mövcudluğu vəziyyəti araşdırılmışdır. Burada saxlanılan şəxslərin telefon danışığından istifadə etmələri üçün, habelə dini etiqadlarının icrası məqsədilə şəraitin yaxşılaşdırılmasına ehtiyacın olduğu müşahidə edilmişdir.

Sənədləşmənin araşdırılması zamanı qeydiyyat kitablarının vaxtında təhvil verilmədiyi, habelə saatların qeydiyyatında çatışmazlıqların olduğu aşkar edilmişdir.

Başçəkmə zamanı MSY-də bir nəfər saxlanılan şəxs olmuş və onunla Ombudsman tərəfindən konfidensial görüş keçirilmiş, onunla rəftar məsələləri və hüquqlarının təmini vəziyyəti araşdırılmışdır.

Başçəkmənin sonunda sənədləşmə və saxlama şəraiti ilə bağlı aşkar edilmiş nöqsanların aradan qaldırılması ilə əlaqədar həmin idarə və MSY rəhbərliyinə tövsiyələr verilmişdir.

Ombudsmanın MPQ üzvləri tərəfindən *Daxili İşlər Nazirliyinin İnzibati Həbs Olunanların Saxlama Mərkəzinə (İHOSM)* başçəkmə həyata keçirilmişdir.

Başçəkmə günündə 157 nəfər şəxsin saxlanıldığı müəssisənin təsadüfi seçim əsasında bir çox kameralarına baxış keçirilmiş, saxlanılan şəxslərlə söhbət aparılmış, təsadüfi seçim əsasında bəzi şəxslərlə konfidensial şəkildə görüş

keçirilmişdir. Müraciətlər əsasən məhkəmə qərarları, habelə rayon polis orqanlarında pis rəftar ehtimalı barədə olmuşdur.

Başçəkmə çərçivəsində vəkilinin müraciəti əsasında inzibati həbs edilmiş H.A. ilə konfidensial görüş keçirilmişdir. Həmin şəxs bu müəssisəyə yerləşdirməzdən əvvəl DİN BMCMİ tərəfindən saxlanıldığını bildirmiş və saxlandığı zaman ona göstərilən rəftardan şikayət etmişdir.

Bu müəssisədə qəbul edilmiş şəxslərdən daha iki nəfəri N.H. və K.B. Sabunçu RPİ-nin 15-ci Polis Bölməsində saxlanıldıqları zaman kobud rəftara məruz qaldıqlarını bildirmişlər. Onlar həmin bölmədə saxlanma şəraiti və qida təminatının yaxşı olmadığını, sıxlıq olduğunu bildirmişlər.

Şikayətdə əks etdirilmiş halların yoxlanılması və araşdırılması məqsədilə müraciətlər Baş Prokurorluq qarşısında qaldırılmışdır.

Başçəkmənin sonunda sənədləşmə və saxlama şəraiti ilə bağlı tövsiyələr verilmişdir.

*Binəqədi RPİ-nin MSY-nə, 4-cü və 5-ci PB-lərinə* başçəkmələr keçirilmişdir.

Başçəkmə çərçivəsində MPQ üzvləri tərəfindən müvəqqəti saxlama yerinin bütün kameralarına və xidməti otaqlara baxış keçirilmiş, tibbi yardımın təşkili, qidalanma, gəzinti, görüş və telefon danışıqları ilə bağlı mövcud vəziyyət və sənədləşmə araşdırılmışdır.

MSY-də saxlanılan 11 nəfər şəxs qəbul edilmiş, bəzilərinin MSY-ə qəbul zamanı tam soyundurulmaları ilə bağlı şikayətləri qeydə alınmışdır.

MSY-də ibadət otağının olmadığı, görüş otaqlarının istifadə edilmədiyi aşkar olunmuşdur.

Bir müddət sonra müəssisəyə təkrar başçəkmə həyata keçirilmiş, rəftar və hüquqlarının təmini məsələlərinin öyrənilməsi məqsədilə burada saxlanılan 17 nəfər şəxs konfidensial olaraq qəbul edilmişdir.

Başçəkmənin gedişində və saxlanılan şəxslərlə söhbətlər zamanı müəyyən edilmişdir ki, MSY-də yataq dəstlərinin vaxtında dəyişdirilməsi, sabun və dəsmal ləvazimatları ilə təminat, telefon danışığı hüququnun təmini və tibbi yardımla bağlı çatışmazlıqlar mövcuddur.

MSY-də saxlanılan şəxslərin uçotu kitabının, MSY-də saxlanılan tutulmuş və ya həbs olunmuş şəxslərin kameradan çıxarılması kitabının qaytanlanıb möhürlənmədiyi aşkar edilmişdir.

*Binəqədi RPİ 4-cü Polis Bölməsinə* həyata keçirilən başçəkmə zamanı sənədləşmə ilə bağlı nöqsanlar aşkar edilmişdir. Belə ki, müvafiq qeydiyyat kitablarına baxış keçirilərkən şəxslərin gətirilmə tarixi və saatının dəyişdirilərək fərqli qeyd edildiyi, bəzi qeydlərdə saatların yazılmadığı, bir qeyddə şəxsin buraxılma səbəbinin yazılmadığı, eyni zamanda köhnə qeydiyyat kitablarının dəftərxanaya verilmədiyi müşahidə edilmişdir.

Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində Daxili İşlər Nazirliyinin *Nərimanov Rayon Polis İdarəsinə, həmin RPİ-nin 17 və 18-ci Polis Bölmələrinə* başçəkmələr həyata keçirilmişdir.

Başçəkmələr zamanı Nərimanov RPİ MSY-də 5 nəfər saxlanılan, 18-ci PB-də isə 1 nəfər saxlanılan şəxs konfidensial şəkildə qəbul edilmişdir. Yekunda MPQ nümayəndələri tərəfindən saxlanma şəraitinin təkmilləşdirilməsinə yönəlik müvafiq tövsiyələr verilmişdir.

MPQ üzvləri tərəfindən *Suraxanı Rayon Polis İdarəsinin Müvəqqəti Saxlama Yerinə, Suraxanı RPİ-nin 30-cu və 32-ci polis bölmələrinə* planlı başçəkmələr həyata keçirilmişdir.

Başçəkmə zamanı MSY-də saxlanma şəraitinin təkmilləşdirilməsi məqsədilə kompleks təmir işlərinin aparıldığı müşahidə edilmişdir. Səs-küy, toz kimi amillərlə müşahidə olunan təmir işləri aparılarkən şəxslərin saxlanılması, onların başqa yerə köçürülməməsi öz-özlüyündə saxlanma şəraiti ilə bağlı pozuntu kimi qiymətləndirilə bilər.

Rəftar məsələlərinin araşdırılması məqsədilə Suraxanı RPİ MSY-də saxlanılan 5 nəfərlə konfidensial söhbət aparılmışdır. Onların əksəriyyəti verilən yeməyin keyfiyyət və azlığından narazı olduqlarını bildirmişlər. Saxlanılan şəxslərdən E.N. isə 5 gün keçməsinə baxmayaraq ona hamam otağından istifadəyə şərait yaradılmadığını bildirmişdir.

MSY-də saxlanılan şəxslərdən S.Y.-nin 15 sutka inzibati həbs edilməsinə baxmayaraq, qanunvericiliyin tələblərinə uyğun olaraq Daxili İşlər Nazirliyinin İnzibati Həbs Olunanların Saxlama Mərkəzinə köçürülmədiyi aşkar edilmişdir. İnzibati həbs olunan şəxslərin etap edilməsi ilə bağlı gecikmələr barədə məsələ MPQ üzvləri tərəfindən qaldırılmış, səbəb kimi COVID-19 testlərinin cavablarının yubanması göstərilmişdir.

Eləcə də, saxlanılan şəxslərə mələfələrin verilmədiyi, MSY-nin tibb otağında ilkin yardım üçün nəzərdə tutulmuş dərmanlarla təchizatda çatışmazlıqların olduğu müəyyən edilmişdir.

Sənədləşdirmə araşdırılarkən bəzi qeydiyyat kitablarında çatışmazlıqların olduğu, MSY-ə gətirilən şəxsin CPM-ə uyğun qəbul edilmə və saxlama sənədinin olmaması, bəzi şəxslərin MSY-dən buraxıldığı halda müvafiq qeydiyyatın aparılmadığı, "Tibbi müayinələrin keçirilməsi və tibbi yardımın göstərilməsinin qeydiyyatı jurnalında" boşluqların olduğu müşahidə edilmişdir.

Tutma protokolları araşdırılarkən, vəkillərin imzalarına rast gəlinmədiyi də qeyd olunmalıdır.

MSY əməkdaşlarının müvafiq daxili intizam qaydaları barədə məlumatlarının artırılmasına, bu baxımdan maarifləndirmə işinin aparılmasına ehtiyac olduğu müəyyən edilmişdir.

*30-cu Polis Bölməsində* saxlanma yerinə baxış keçirilmiş, qeydiyyat kitabları araşdırılmışdır. Saxlanma yerinin təmirə ehtiyacı olduğu, qeydiyyatla bağlı

nöqsanların mövcudluğu, qeydiyyat kitablarında düzəlişlərin olduğu, qeydiyyatın tam aparılmadığı aşkar edilmişdir.

*32-ci Polis Bölməsinə* başçəkmə zamanı saxlama yerində saxlanılan şəxs olmamışdır.

Qeydiyyat kitablarının səliqəli olduğu, lakin bəzi ağartma və düzəlişlərin mövcudluğu müşahidə edilmişdir.

Başçəkmələrin sonunda sənədləşmə və saxlama şəraiti ilə bağlı tövsiyələr verilmişdir.

MPQ üzvləri tərəfindən *Astara RPŞ-nin MSY-ə* plan üzrə başçəkmə həyata keçirilmişdir. Başçəkmə çərçivəsində MSY-nin kameralarına, istintaq, görüş, tibb, ibadət otağına, mətbəxinə, hamamına, gəzinti sahəsinə baxış keçirilmiş, tibbi yardımın təşkili, qidalanma, sovqat, gəzinti, görüş və telefon danışıqları ilə bağlı mövcud vəziyyət və sənədlər öyrənilmişdir.

Astara RPŞ-nin MSY-ə başçəkmə keçirilən zaman MSY-də 6 nəfər inzibati qaydada həbs olunmuş şəxs olmuşdur. Həmin şəxslərin hər biri ilə ayrılıqda söhbət aparılaraq, hüquq və vəzifələri izah edilməklə, İnsan Hüquqları üzrə Müvəkkilin səlahiyyətləri barədə onlara geniş məlumat verilmişdir.

Saxlanılan şəxslər əsasən Astara Rayon Məhkəməsinin barələrində çıxarılmış qərarlarından narazı olduqlarını bildirmişlər.

Saxlanılan şəxslər MSY-də saxlanma şəraiti və rəftar qaydalarından şikayət etməmişlər.

MSY-nin kameralarına baxış keçirərkən saxlanılan şəxslərin hüquq və vəzifələrini göstərən lövhələrin olmadığı, 1 və 2 saylı kameralarda natəmizlik (əvvəlki vaxtlara aid olması təxmin edilən məişət tullantıları, qida qalıqları, siqaret kötükləri) müşahidə edilmişdir.

Başçəkmə zamanı müəssisədə COVID-19 pandemiyasına qarşı mübarizə tədbirlərinin lazımi qaydada həyata keçirilməməsi, sanitar-gigiyenik vasitələrin olmaması da müşahidə edilmişdir.

Başçəkmənin yekununda MSY rəisi və əməkdaşları ilə söhbət aparılmış, saxlanma şəraiti və sənədləşmə ilə bağlı işin təkmilləşdirilməsi üçün, aşkar olunan nöqsanların dərhal aradan qaldırılması, həmçinin COVID-19 pandemiyasına qarşı mübarizədə, xüsusi karantin rejimi dövründə bütün sanitar-gigiyenik qaydalara əməl olunması istiqamətində milli və beynəlxalq qanunvericiliyə əsaslanan müvafiq tövsiyələr verilmişdir.

MPQ üzvləri tərəfindən *Biləsuvar RPŞ-nin MSY-ə* plan üzrə başçəkmə həyata keçirilmişdir.

Başçəkmə keçirilən zaman inzibati qaydada həbs olunmuş 11 nəfər şəxslə ayrı-ayrılıqda söhbət aparılmış, rəftar məsələləri araşdırılmış, hüquq və vəzifələri izah olunmuşdur.

MSY-nin kameralarına, mətbəx və xidməti otaqlara, qeydiyyat kitablarına baxış keçirilmişdir. Müvəqqəti Saxlama Yerinin fəaliyyətinin qüvvədə olan milli

və beynəlxalq qanunvericiliyin tələblərinə uyğun qurulması ilə bağlı MSY rəhbəri və əməkdaşlarına lazımi tövsiyələr verilmişdir.

MPQ üzvləri tərəfindən *Cəlilabad Rayon Polis Şöbəsinin Müvəqqəti saxlama yerinə* əvvəlcədən xəbərdarlıq etmədən başçəkmə həyata keçirilmişdir. MSY-ə başçəkmə çərçivəsində kameralara baxış keçirilmiş, saxlanılan şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, habelə həmin şəxslərlə rəftara və onların saxlanma şəraitinə aid olan sənədlər araşdırılmış, qidalanma, tibbi yardım, gəzinti, görüş, telefon danışıqları, kameradan çıxarılma və sovqat ilə bağlı sənədləşmə yoxlanılmış, mövcud ehtiyaclar öyrənilmişdir.

Başçəkmə zamanı MSY-də saxlanma şəraitinin və rəftar məsələlərinin araşdırılması məqsədilə saxlanılan 16 nəfər şəxs qəbul edilmiş, onlara Ombudsmanın səlahiyyətləri izah olunmuş və hüquqi məsləhətlər verilmişdir.

Saxlanılan şəxslərdən E.M. və E.L. törətmədikləri əmələ görə barələrində Cəlilabad RPŞ-də əsassız olaraq cinayət işinin başlanıldığını, istintaqın qeyri-obyektiv aparıldığını, habelə saxlanılarkən şöbənin rəis müavini və digər əməkdaşlarının onlarla rəftarından şikayət etmişlər.

Ombudsmanın Çağrı Mərkəzinə qanunsuz saxlama ilə bağlı müraciətin araşdırılması üçün MPQ üzvləri tərəfindən *Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsinin (BNMİ) Cənub Regional Şöbəsinə* başçəkmə həyata keçirilmişdir.

Başçəkmə zamanı müəssisənin qeydiyyat kitablarına, araşdırma otağına və xidməti otaqlara baxış keçirilmiş, müraciət yerində araşdırılmışdır.

BNMİ-nin Cənub Regional Şöbəsinin rəisi narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşısının alınması məqsədilə keçirilmiş əməliyyat nəticəsində tutulmuş şəxsin həyat yoldaşının şöbəyə dəvət edildiyini və ifadəsi alındıqdan sonra buraxıldığını bildirmişdir.

MPQ üzvləri tərəfindən *Lerik RPŞ-nin MSY-ə* plan üzrə başçəkmə həyata keçirilmişdir. Başçəkmə keçirilən zaman 4 nəfər saxlanılan şəxsin hər biri ilə fərdi qaydada söhbət aparılmış, hüquq və vəzifələri izah olunmuş, saxlanılmalarının qanuniliyini təsdiq edən sənədlərə baxış keçirilmiş, onlara Konstitusiya Qanununun müvafiq müddəaları izah olunmuşdur. Həmin şəxslər saxlanma şəraiti və rəftardan narazılıq etməmişlər.

Başçəkmə çərçivəsində MSY-nin kameralarına, istintaq, görüş, tibb, ibadət otaqlarına, mətbəxə, hamama, gəzinti sahəsinə baxış keçirilmiş, tibbi yardımın təşkili, qidalanma, sovqat, gəzinti, görüş və telefon danışıqları ilə bağlı mövcud vəziyyət araşdırılaraq, qeydiyyat kitablarına baxış keçirilmişdir.

Lerik RPŞ-nin MSY-nə əvvəlki başçəkmələr zamanı aşkar edilmiş nöqsanların (sanitar-gigiyena qaydalarına əməl olunmaması, qeydiyyat kitablarının düzgün doldurulmaması, kitablardakı yazılarda düzəlişlər edilməsi, həkim qeydlərinin oxunmaması, saxlanılan şəxslərin hüquq və azadlıqları yazılan lövhələrin kameralarda olmaması, əvvəllər məhkum olunmuş şəxslərin ilk dəfə

təqsirləndirilən şəxslərlə eyni kamerada saxlanılması, inzibati qaydada saxlanılan şəxslərə ailə üzvləri ilə görüşün verilməməsi, telefon vasitəsilə danışmaq imkanının yaradılmaması) aradan qaldırılması istiqamətində işlərin görüldüyü müşahidə edilmişdir.

MPQ üzvləri tərəfindən *Gəncə Şəhər Baş Polis İdarəsinin MSY-nə* planlı başçəkmə həyata keçirilmişdir. Başçəkmə çərçivəsində saxlanma şəraiti ilə bağlı MSY-nin kameralarına, gəzinti sahəsinə, mətbəxə, görüş, istintaq, tibb və ibadət otaqlarına, inventar anbarına baxış keçirilmişdir.

Başçəkmə zamanı MSY-də təqsirləndirilən və inzibati qaydada həbs edilmiş şəxslərlər, ümumilikdə saxlanılan 21 nəfər konfidensial şəraitdə qəbul edilmişdir.

Müəssisədə saxlanma şəraiti ilə bağlı bir sıra çatışmazlıqlar aşkarlanmışdır. Müəssisədəki kamera divarlarının müntəzəm olaraq nəmişlik çəkdiyindən aşınmalara məruz qaldığı, bu səbəbdən əsaslı təmir işlərinə ehtiyac olduğu müşahidə olunmuşdur. Həmçinin sovqat qəbulunun təşkili üçün daxili intizam qaydalarının tələblərinə uyğun olaraq müəssisənin zəruri inventarlarla təmin olunmadığı müəyyən edilmişdir.

Başçəkmənin nəticələri nəzərə alınaraq Gəncə ŞBPİ MSY-də saxlanma şəraitinin təkmilləşdirilməsi üçün əsaslı təmir işlərinin aparılması, həmçinin sovqat qəbulunun daxili intizam qaydalarının tələblərinə uyğun təşkili zərurəti vardır.

MPQ üzvləri tərəfindən *Qazax Rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə* planlı başçəkmə həyata keçirilmişdir. Başçəkmə zamanı MSY-də saxlanılan 10 nəfər inzibati qaydada həbs edilmiş şəxs MPQ üzvləri tərəfindən qəbul edilmiş, onların saxlanma şəraiti və MSY-nin əməkdaşlarının onlarla rəftarı ilə maraqlanılmışdır.

Başçəkmə zamanı MSY-nin əşya saxlanc otağına baxış keçirilərkən saxlanılan şəxsin əşyalarının olduğu dolabda bir qutu "Ketonal" dərman preparatı aşkar edilmişdir. Bundan başqa, bir kamerada su kranının işləməməsi, sovqat qəbulu üçün tərəzinin olmadığı müəyyən edilmişdir.

Bununla yanaşı, qadın saxlanılanlar olarkən axtarışın eyni cinsdən olan şəxs tərəfindən icrasının təmin edilməsi üçün Qazax RPŞ-də qadın əməkdaşın olmadığı müəyyən edilmişdir. Belə zərurət yarandıqda dəftərxana əməkdaşı olan mülki işçinin cəlb edildiyi bildirilmişdir. Həmin nöqsanların aradan qaldırılması müəssisə rəhbərliyinin diqqətinə çatdırılmışdır.

*Goranboy RPŞ-nin MSY-ə* planlı başçəkmə həyata keçirilmişdir. Başçəkmə çərçivəsində MPQ üzvləri tərəfindən müəssisəyə ümumi baxış keçirilmiş, əvvəlki tövsiyələr nəzərə alınmaqla kameraların ölçülərinin müasir standartlara uyğun qaydada və digər xidməti otaqlardakı şəraitin sanitar normalara uyğun, saxlanılanların hüquqlarının təmin edilməsinə imkan verən şəraitdə olması, MSY-nin mərkəzləşdirilmiş istilik sistemi ilə qızdırılması, daimi isti və soyuq su ilə təmin edilməsi, saxlama kameralarındakı çarpayıların təzə döşək ağı və yataq

ləvazimatları ilə təmin edilməsi, bütün otaqların və kameraların təyinatına uyğun olaraq zəruri inventarlarla təchiz edilməsi müəyyən edilmişdir.

MPQ üzvləri həmin müəssisədə saxlanılan 9 nəfəri təklikdə qəbul etmiş, onlarla söhbətlər aparmış, saxlanma şəraiti, həkim nəzarəti, qidalanmaları, MSY-nin əməkdaşlarının onlarla rəftarı ilə maraqlanmışlar.

İXM-in 157-ci maddəsilə təqsirli bilinərək Goranboy Rayon Məhkəməsinin qərarı əsasında 10 gün müddətinə inzibati qaydada həbs edilmiş Z.C. qəbul edilərkən ailəsindən sovqat qəbul etdiyini bildirsə də, sənədlərə baxış zamanı "Sovqat, bağlama və banderollarda aşkar olunmuş ərzaq məhsullarının və əşyaların qeydiyyatı jurnalı"da saxlanılan şəxsə gətirilmiş ərzaq məhsullarının qeydə alınmadığı müəyyən edilmişdir.

MPQ üzvləri tərəfindən *Göygöl RPŞ-nin MSY-ə* planlı başçəkmə həyata keçirilmişdir.

MSY-nin gəzinti sahəsinə baxış zamanı gəzinti sahəsinin üstünün bir hissəsinin yağıntılardan və günəş şüasından daldalanmaq məqsədilə örtük vurulması, idmanla məşğul olmaq üçün ləvazimatlar quraşdırılması, görüş otağının televizorla təchiz edilməsi müşahidə edilmişdir.

Başçəkmə zamanı MSY-də saxlanılan 5 nəfər şəxs qəbul edilmiş, onlarla rəftar, yaxınları ilə görüş, həkim müayinəsi, vəkil yardımının vəziyyəti və digər məsələlərlə bağlı konfidensial söhbət aparılmışdır.

Başçəkmənin yekununda müəssisə rəhbərliyi ilə saxlanma şəraiti və sənədləşmə ilə bağlı işin təkmilləşdirilməsi üçün söhbət aparılmış, həmçinin COVID-19 pandemiyasına qarşı mübarizədə bütün sanitar-gigiyenik qaydalara əməl olunmasının zəruriliyi diqqətə çatdırılmışdır.

*Samux RPŞ-nin MSY-ə* planlı başçəkmə həyata keçirilmişdir. Başçəkmə çərçivəsində saxlanma şəraiti ilə bağlı Samux RPŞ-nin MSY-nin kameralarına, zəruri avadanlıq və dərman preparatları ilə təchiz edilmiş tibb otağına, gəzinti sahəsinə, mətbəxinə, istintaq otağına, eyni yerdə təşkil edilmiş görüş və ibadət otağına, inventar anbarına baxış keçirilmiş, şəraitin sanitar normalara uyğun, saxlanılanların hüquq və azadlıqlarının təmin edilməsinə imkan verən şəraitdə olması müəyyən edilmişdir.

Başçəkmə zamanı MSY-də saxlanılan bir nəfər şəxs təklikdə qəbul edilmiş, MPQ üzvləri saxlanma şəraiti və MSY-nin əməkdaşlarının onunla rəftarı ilə maraqlanmış, o, şəraitdən və polis əməkdaşlarının rəftarından, həkim müayinəsindən, verilən qidalardan narazılığı olmadığını bildirmişdir.

Saxlanılmanın qanuniliyini təsdiq edən sənədlərlə tanışlıq zamanı qeyri-qanuni hal aşkar edilməmiş, həmçinin MSY-nin qeydiyyat jurnallarına baxış keçirilmiş, həmin kitablarda müvafiq qeydlərin aparıldığı müəyyən olunmuşdur.

Başçəkmənin yekununda müəssisə rəhbərliyi ilə söhbət aparılmış, saxlanma şəraiti və sənədləşmə ilə bağlı işin təkmilləşdirilməsi üçün milli və beynəlxalq qanunvericiliyə əsaslanan müvafiq tövsiyələr verilmiş, həmçinin COVID-19

pandemiyasına qarşı mübarizədə bütün sanitar-gigiyenik qaydalara əməl olunmasının zəruriliyi diqqətə çatdırılmışdır.

*Quba RPŞ-nin MSY-ə* başçəkmə həyata keçirilmişdir. Başçəkmə çərçivəsində saxlanma şəraiti ilə bağlı müəssisənin tibb-sanitar hissəsinə, saxlanma kameralarına, mətbəxə və digər inzibati otaqlara baxış keçirilmiş, habelə tibbi yardımın təşkili, qidalanma, içməli su, isti və soyuq su təminatı, gəzinti, görüş və telefon danışıqları ilə bağlı mövcud vəziyyət və sənədləşmə araşdırılmışdır.

Rəftar məsələlərinin araşdırılması ilə bağlı MPQ üzvləri tərəfindən həmin müəssisədə saxlanılan 7 nəfər konfidensial qaydada dinlənilmiş, hüquqlarının təmin olunma vəziyyəti, sənədləşmə yerində araşdırılmışdır.

Başçəkmənin gedişində müəssisə rəhbərliyi və məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbət aparılmış, müvafiq tövsiyələr verilmişdir.

Quba RPŞ-nin MSY-ə təkrar başçəkmə zamanı müəssisədə saxlanılan 16 nəfər şəxs konfidensial qaydada dinlənilmiş, hüquqlarının təmin olunma vəziyyəti, sənədləşmə yerində araşdırılmışdır.

Başçəkmə nəticəsində bir sıra nöqsanlar aşkar edilmişdir. Belə ki, "Müvəqqəti saxlama yerlərinin daxili intizam Qaydalarının" 2.15-ci maddəsinin tələblərinə zidd olaraq, saxlanılan şəxslər, o cümlədən inzibati qaydada həbs olunanların MSY-nə yerləşdirilərkən, axtarış məqsədilə paltarlarının tam çıxarıldığı müəyyən olunmuşdur.

Bundan başqa, bəzi kameralarda saxlanılan şəxslərin hüquq və vəzifələrini bildirən lövhələr yerləşdirilməmişdir.

Yekunda, müəssisə rəhbərliyi və məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbət aparılmış, müvafiq tövsiyələr verilmişdir.

Milli Preventiv Qrupun üzvləri tərəfindən *Qusar RPŞ-nin MSY-ə* başçəkmə həyata keçirilmişdir. Başçəkmə çərçivəsində, saxlanma şəraiti ilə bağlı müəssisənin kameralarına, tibbi-sanitar hissəsinə, mətbəxə və digər inzibati otaqlara baxış keçirilmiş, habelə tibbi yardımın təşkili, qidalanma, içməli su, isti və soyuq su təminatı, gəzinti, görüş və telefon danışıqları ilə bağlı mövcud vəziyyət və sənədləşmə araşdırılmışdır.

Rəftar məsələlərinin araşdırılması ilə bağlı MPQ üzvləri tərəfindən həmin müəssisədə saxlanılan 3 nəfər konfidensial qaydada dinlənilmiş, hüquqlarının təmin olunma vəziyyəti, sənədləşmə yerində araşdırılmışdır.

Yekunda, müəssisə rəhbərliyi və məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbət aparılmış, müvafiq tövsiyələr verilmişdir.

*Siyəzən RPŞ-nin MSY-ə* başçəkmə həyata keçirilmişdir. Başçəkmə çərçivəsində, saxlanma şəraiti ilə bağlı müəssisənin kameralarına, tibbi-sanitar hissəsinə, mətbəxə və digər inzibati otaqlara baxış keçirilmiş, habelə tibbi yardımın təşkili, qidalanma, içməli su, isti və soyuq su təminatı, gəzinti, görüş və telefon danışıqları ilə bağlı mövcud vəziyyət və sənədləşmə araşdırılmışdır.

MPQ üzvləri tərəfindən *Şəki Şəhər-Rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə* başçəkmə həyata keçirilmişdir. Başçəkmə çərçivəsində MSY-nin kameralarına, istintaq, tibb, ibadət, görüş otaqlarına, mətbəx, hamam, gəzinti sahəsinə baxış keçirilmiş, qidalanma, sovqat qəbulu, telefon danışıqları, görüşlərin verilməsinə dair vəziyyət araşdırılmışdır.

MSY-də saxlanılan 4 nəfərlə təkbətək söhbət aparılmış, onlarla rəftar və hüquqlarının təminatı vəziyyəti öyrənilmişdir. Saxlanılan şəxslərin şəxsi işlərinə və MSY-də saxlanılanların qeydiyyatı kitablarına da baxış keçirilmişdir.

Yekunda MSY-nin rəhbərliyi və məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbət aparılmış, milli və beynəlxalq qanunvericiliyə müvafiq şəkildə saxlanılma şəraiti, tibbi xidmət və sənədləşmə ilə bağlı müvafiq tövsiyələr verilmişdir.

Eyni zamanda il ərzində *Şəki ŞRPŞ-nin MSY-ə* təkrar başçəkmələr zamanı rəftar məsələlərinin araşdırılması məqsədilə ümumilikdə 12 nəfər saxlanılan şəxslə təkbətək söhbət aparılmışdır.

*Mingəçevir şəhər Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə* başçəkmə həyata keçirilmişdir. Başçəkmə çərçivəsində MSY-nin kameralarına, istintaq, tibb, ibadət, görüş otaqlarına, mətbəx, hamam, gəzinti sahələrinə baxış keçirilmiş, qidalanma, sovqat qəbulu, telefon danışıqları, görüşlərin verilməsinə dair vəziyyət araşdırılmışdır.

MSY-ə başçəkmə zamanı orada saxlanılan 11 nəfərlə təkbətək söhbət aparılmışdır. Saxlanılan şəxslərdən O.H. kobud rəftara məruz qaldığı barədə məlumat vermişdir. Bununla bağlı müvafiq orqanlara müraciət olunmuş və preventiv tədbirlər görülmüşdür.

Yekunda Müvəqqəti Saxlama Yerinin rəhbərliyi və məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbət aparılmış, milli və beynəlxalq qanunvericiliyə müvafiq şəkildə saxlanılma şəraiti, tibbi xidmət və sənədləşmə ilə bağlı tövsiyələr verilmişdir.

*Mingəçevir Şəhər Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə* təkrar başçəkmə zamanı saxlanılan 5 nəfər şəxs konfidensial qaydada dinlənilmiş, hüquqlarının təmin olunma vəziyyəti, sənədləşmə yerində araşdırılmışdır. Başçəkmənin yekununda müvəqqəti saxlama yerinin rəhbərliyi və məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbət aparılmışdır.

Milli Preventiv Qrupun üzvləri tərəfindən *Qax Rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə* başçəkmə həyata keçirilmişdir. Başçəkmə çərçivəsində MSY-nin kameralarına, istintaq, tibb otaqlarına, mətbəxə, gəzinti sahəsinə baxış keçirilmiş, qidalanma, sovqat qəbulu, telefon danışıqları, görüşlərin verilməsinə dair vəziyyət araşdırılmışdır.

2 nəfərlik kameralardan birinin ölçüsünün "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 21.2-ci maddəsinə və "Müvəqqəti saxlama yerlərinin daxili intizam Qaydaları"nın 10.2-ci bəndinə əsasən tutulmuş və ya həbs edilmiş

şəxslər üçün həbs yerlərində yaşayış sahəsinin normasına uyğun olmadığı müşahidə edilmişdir.

Qax Rayon Polis Şöbəsinin MSY-nə başçəkmə zamanı orada saxlanılan üç nəfərlə təkbətək söhbət edilmiş, saxlanma şəraiti və rəftarla bağlı fikirləri öyrənilmişdir.

*Balakən Rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə* əvvəlcədən xəbərdarlıq etmədən plandankənar başçəkmə keçirilib. Rəftar məsələlərinin araşdırılması ilə bağlı MSY-də saxlanılan bir nəfər şəxs konfidensial qaydada dinlənilmiş, hüquqlarının təmin olunma vəziyyəti, sənədləşmə yerində araşdırılmışdır.

*Zaqatala Rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə* əvvəlcədən xəbərdarlıq etmədən plandankənar başçəkmə keçirilib. Müəssisədə saxlanılan dörd şəxs konfidensial qaydada dinlənilmişdir.

Başçəkmənin yekununda müvəqqəti saxlama yerinin rəhbərliyi və məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbət aparılmışdır.

Milli Preventiv Qrupun üzvləri tərəfindən *Qəbələ RPŞ-nin MSY-ə* başçəkmə həyata keçirilmişdir. Başçəkmə çərçivəsində MSY-nin kameralarına, istintaq, tibb, ibadət, görüş otaqlarına, mətbəx, hamam, gəzinti sahələrinə baxışlar keçirilmiş, qidalanma, sovqat qəbulu, telefon danışıqları, görüşlərin verilməsinə dair vəziyyət araşdırılmışdır.

Başçəkmə gedişində orada saxlanılan bir nəfərlə təkbətək söhbət zamanı həmin şəxs ona qarşı hər hansı qanun pozuntusuna yol verilmədiyini bildirmişdir. Həmin şəxsin tibbi kitabçasına baxış zamanı ilkin müayinənin feldşer tərəfindən həyata keçirildiyi müəyyən olunmuşdur. Həmçinin müvəqqəti saxlama yerində saxlanılan şəxslərin tibbi müayinəsinin keçirilməsi və tibbi yardımın göstərilməsinin qeydiyyatı kitablarına baxış zamanı da tutulmuş və ya həbs edilmiş şəxslərin ilkin müayinəsinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18.04.2013-cü il tarixli, 67 nömrəli qərarı ilə təsdiq edilmiş "Tutulmuş və ya həbs edilmiş şəxslərə tibbi yardım göstərilməsi, habelə onların tibb müəssisələrində saxlanılması qaydaları"nın 2.1-ci hissəsinə zidd olaraq feldşer tərəfindən həyata keçirildiyi müşahidə edilmişdir.

Başçəkmənin sonunda müəssisənin rəhbərliyi ilə yekun söhbət aparılmış, tibbi müayinə ilə bağlı çatışmazlığın aradan qaldırılması tövsiyə edilmişdir.

İl ərzində müəssisəyə təkrar başçəkmə zamanı saxlanılan iki şəxs konfidensial qaydada dinlənilmiş, müəssisə rəhbərliyinə tövsiyələr verilmişdir.

MPQ üzvləri tərəfindən *İsmayıllı Rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə* əvvəlcədən xəbərdarlıq edilmədən həyata keçirilən plandankənar başçəkmə zamanı müəssisədə saxlanılan iki nəfər şəxs konfidensial qaydada qəbul edilmişdir. Sənədləşmənin monitorinqi zamanı bəzi qeydlərin düzgün aparılmadığı müşahidə edilmiş, müəssisə rəhbərliyinə bununla bağlı müvafiq tövsiyələr verilmişdir.

*Oğuz RPŞ-nin MSY-ə* başçəkmələr həyata keçirilmişdir. Saxlanılan şəxslərin şəxsi işlərinə və MSY-də saxlanılanların qeydiyyatı kitablarına baxış zamanı hər hansı pozuntu halı müşahidə edilməmişdir.

Başçəkmə zamanı orada saxlanılan iki nəfərlə təkbətək söhbət aparılmışdır.

Yekunda Müvəqqəti Saxlama Yerlərinin rəhbərliyi və məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbət aparılmış, milli və beynəlxalq qanunvericiliyə müvafiq şəkildə saxlanılma şəraiti, tibbi xidmət və sənədləşmə ilə bağlı tövsiyələr verilmişdir.

MPQ üzvləri tərəfindən *Şabran RPŞ-nin MSY-ə* başçəkmə həyata keçirilmişdir.

Başçəkmə çərçivəsində, saxlanma şəraiti ilə bağlı müəssisənin kameralarına, tibbi-sanitar hissəsinə, mətbəxə və digər inzibati otaqlara baxış keçirilmiş, habelə tibbi yardımın təşkili, qidalanma, içməli isti və soyuq su təminatı, gəzinti, görüş və telefon danışıqları ilə bağlı mövcud vəziyyət və sənədləşmə araşdırılmışdır.

Rəftar məsələləri ilə bağlı MPQ üzvləri tərəfindən həmin müəssisədə saxlanılan 9 nəfər konfidensial qaydada dinlənilmiş, hüquqlarının təmin olunma vəziyyəti yerində araşdırılmışdır.

Başçəkmə zamanı müəyyən edilmişdir ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 26 fevral tarixli 63 nömrəli qərarı ilə təsdiq edilmiş Müvəqqəti saxlama yerlərinin daxili intizam Qaydalarının 2.15-ci maddəsinin tələblərinə zidd olaraq, saxlanılan, o cümlədən inzibati qaydada həbs olunan şəxslərin MSY-ə yerləşdirilərkən axtarışı ilə bağlı pozuntulara yol verilir.

Müəssisə ərazisində qaynadılmış içməli su təminatının olmadığı, bəzi kameralarda saxlanılan şəxslərin hüquq və vəzifələrini bildirən lövhələrin yerləşdirilmədiyi, kitabxananın isə mövcud olmadığı müşahidə edilmişdir.

Tibbi kitabçalarda, müayinə aparan həkimin X.Qəhrəmanova olduğu göstərildiyi halda, saxlanılan şəxslər müayinənin kişi həkim tərəfindən aparıldığını bildirmişdir.

Başçəkmənin yekununda, müəssisə rəhbərliyi və məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbət aparılmış, aşkar edilmiş nöqsanların aradan qaldırılması istiqamətində müvafiq tövsiyələr verilmişdir.

*İşgəncələrin qarşısının alınması üzrə Avropa Komitəsi (CPT) personalın təlimi məsələsini önə çəkir və saxlanılan şəxslərə pis rəftara qarşı ən yaxşı zəmanətin təlim görmüş polis olduğunu qeyd edir.*

*Bu baxımdan Müvəkkil DİN orqanlarının fəaliyyətində hüquqi maarifləndirmə işinin daha da genişləndirilməsini təklif edir.*

### 2.2.2. Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin müəssisələri

2021-ci il ərzində Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin tabeliyində olan müəssisələrə 59 başçəkmə həyata keçirilmişdir.

Həyata keçirilmiş başçəkmələrdə məqsəd saxlanılan şəxslərlə rəftar, onların saxlanma şəraiti - görüş, telefon danışığı, tibbi yardımın təşkili, qidalanma, geyim, havalandırma, istilik, müraciət etmək, hüquqi yardım almaq və digər hüquqlarının təmin olunma vəziyyətinin öyrənilməsi olmuşdur.

Penitensiar müəssisələrə başçəkmələr çərçivəsində saxlanılan şəxslərlə konfidensial görüşlər keçirilmiş, onlarla rəftar məsələləri, saxlanma şəraiti, hüquqlarının təmini vəziyyəti araşdırılmışdır. Saxlanılan şəxslər tərəfindən Ombudsmana ünvanlanmış müraciətlər müvafiq qurumlar qarşısında qaldırılmışdır.

Penitensiar Xidmətin müəssisələri içərisində daha çox istintaq təcridxanalarına başçəkmələr keçirilmişdir. Buna səbəb barəsində istintaq aparılan şəxslərin müraciətlərinin çoxluğu olmuşdur. Belə müəssisələrə səfərlərin mütəmadi keçirilməsi pis rəftar hallarının qarşısının alınması baxımından səmərəlidir.

Eyni zamanda Ombudsman və ya onun Milli Preventiv Qrupunun üzvləri ilə görüşmək istəyən şəxslər içərisində istintaq təcridxanalarında saxlanılan şəxslərin çoxluğu həmin müəssisələrə başçəkmənin sıxlığını şərtləndirmişdir.

Ombudsman tərəfindən əvvəlcədən xəbərdarlıq etmədən *Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Bakı İstintaq Təcridxanasına* başçəkmə həyata keçirilmişdir.

MPQ-nin ixtisasca həkim üzvünün də iştirak etdiyi başçəkmə çərçivəsində müəssisədə saxlanılan bir sıra şəxslərlə, o cümlədən 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata əsasən hərbi əməliyyatların dayandırılmasından sonra Azərbaycanın işğaldan azad olunmuş ərazisində ictimai təhlükəli əməllərin törədilməsində təqsirləndirilən şəxs qismində müəyyən edilərək məhkəmə qərarı əsasında saxlanılan, Ermənistandan olan şəxslərlə də konfidensial qaydada görüşlər keçirilmişdir. Qəbul edilmiş şəxslər müəssisədə saxlanma şəraitindən, rəftardan, qidadan və tibbi xidmətdən şikayət etməmişlər.Saxlanılan şəxslərə hüquqları və Ombudsmanın səlahiyyətləri izah edilmişdir. Qeyd olunmalıdır ki, həmin təqsirləndirilən şəxslərə ayrı-seçkilik qoyulmadan normal saxlanma şəraiti və ailələri, yaxınları ilə telefon danışıqları da təmin edilmişdir.

Başçəkmənin sonunda müəssisənin rəhbərliyinə və əməkdaşlarına ünvanlanan hüquqi maarifləndirici söhbət aparılmış və müvafiq tövsiyələr verilmişdir.

Ombudsman və MPQ üzvləri tərəfindən Bakı İstintaq Təcridxanasına il ərzində planlı və plandankənar olmaqla ümumilikdə 14 başçəkmə həyata keçirilmişdir. Bu başçəkmələr zamanı 200-dən çox saxlanılan şəxs qəbul edilmiş,

onlara hüquqları və Ombudsmanın səlahiyyətləri izah edilmiş, bir sıra müraciətləri yerində təmin edilmişdir.

Qida qəbulundan imtina etmiş şəxslər dinlənilmiş, səhhətlərində ciddi problem yaşamamaları üçün qida qəbulunu bərpa etmələri ilə bağlı, müəssisə rəhbərliyinə isə onların səhhətinin həkim nəzarətində saxlanılması məqsədilə müvafiq tövsiyələr verilmişdir. Aclıq etmiş şəxslərin qida qəbulundan imtinasına səbəb barələrində olan cinayət işlərinin istintaqının qeyri-obyektiv aparılması olmuşdur.

Milli Preventiv Qrupun üzvləri tərəfindən *Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin 2 saylı İstintaq Təcridxanasına* plan üzrə başçəkmə həyata keçirilmişdir. Tematik başçəkmədə məqsəd, müəssisədə saxlanılan qadınların və yetkinlik yaşına çatmayanların saxlanma şəraitinin və onlarla rəftarın, hüquqlarının təmin edilməsi vəziyyətinin, həmçinin COVID-19 pandemiyasına qarşı görülən profilaktik işlərin öyrənilməsi olmuşdur.

Müəssisənin rəisi məlumat verərək başçəkmənin həyata keçirildiyi tarixdə istintaq təcridxanasında ümumilikdə 593 saxlanılan şəxsin olduğunu, onlardan 7 nəfərinin qadın, 7 nəfərinin isə yetkinlik yaşına çatmayan şəxs olduğunu bildirmişdir.

Müəssisə rəhbərliyi COVID-19 pandemiyasına qarşı müntəzəm olaraq profilaktik dezinfeksiya tədbirlərinin həyata keçirildiyini, saxlanılan şəxslərin və müəssisə əməkdaşlarının tibbi-gigiyenik vasitələrlə təmin olunduğunu, müəssisəyə gətirilən hər bir saxlanılan şəxsin COVID-19 testinin neqativ nəticəsi barədə arayış əsasında qəbul olunduğunu bildirmişdir ki, bu da müəssisədə yoluxma hallarının qarşısının alınmasına müsbət təsir göstərir.

Təcridxanadakı qadın və yetkinlik yaşına çatmayanların saxlanıldığı yerlərə baş çəkilmiş, buradakı mövcud şərait monitorinq edilmişdir. Həmçinin, 7 nəfər qadınla onların saxlanma şəraiti və digər məsələlərlə bağlı söhbət aparılmış, hüquqları izah edilmiş, onları maraqlandıran suallar cavablandırılmışdır. Saxlanılan qadınlar təcridxanadakı şəraitdən, rəftardan şikayətlərinin olmadığını bildirmişlər.

Başçəkmə zamanı həmçinin müəssisədə saxlanılan yetkinlik yaşına çatmayan 7 nəfər şəxslə görüş keçirilmiş, onların saxlanılma vəziyyəti, kameralardakı şərait, təcridxana əməkdaşlarının onlarla rəftarı, qidalanmaları, həkim nəzarəti ilə bağlı fikirləri öyrənilmişdir.

Təcridxananın bəzi kameralarında yetkinlik yaşına çatmayan şəxslərlə yetkinlik yaşına çatmışların birgə saxlanıldığı müəyyən edilmişdir. İstintaq təcridxanalarının daxili intizam Qaydalarının 5.11.2-ci bəndinin tələbləri, saxlanılma qaydaları pozulduğundan bu barədə təcridxana rəhbərliyinin mülahizələri öyrənilmiş, yetkinlik yaşına çatmayanın hərəkətlərinə nəzarət edilməsi və tək qalmaması üçün bu cür saxlanılmanın tətbiq olunduğu bildirilmişdir.

*Avropa Penitensiar qaydalarının 35.4-cü bəndinə əsasən də, yetkinlik yaşına çatmayanlar penitensiar müəssisələrdə saxlandıqda, onların maraqlarına zidd olmayan hallar istisna olmaqla, yaşlı şəxslərdən ayrı saxlanılırlar.*

Saxlanma şəraitinin daha da təkmilləşdirilməsi və COVID-19 pandemiyasına qarşı görülən profilaktik işlərin genişləndirilməsi üçün MPQ üzvləri tərəfindən müəssisə rəhbərliyinə müvafiq tövsiyələr verilmişdir.

Həmin müəssisəyə növbəti başçəkmə zamanı orada sıxlığın olduğu, 700 yerlik təcridxanada 794 nəfər şəxsin saxlanıldığı müəyyən edilmişdir. Bəzi kameralarda sanitar qovşağın su kranının nasaz olduğu, su sisteminin nasazlığı ucbatından daimi suyun axdığı, ümumilikdə isə rütubətlilik səviyyəsinin yüksək olmasından divarların aşınmalara məruz qaldığı, döşəmələrin betondan olduğu müşahidə olunmuşdur. İstintaq təcridxanalarının daxili intizam Qaydalarının 3.2-ci bəndinin tələblərinə əsasən isə, kameraların döşəmələri taxta və yaxud metlax ilə örtülməlidir.

MPQ üzvləri tərəfindən *Penitensiar Xidmətin 3 saylı İstintaq Təcridxanasına* il ərzində 5 başçəkmə həyata keçirilmişdir.

Digər istintaq təcridxanalarında olduğu kimi bu müəssisədə də sıxlıq müşahidə edilmişdir.

Rəftar məsələlərinin və saxlanma şəraitinin öyrənilməsi məqsədilə konfidensial söhbətlər aparılmış, MPM qismində fəaliyyət sahəsində Ombudsmanın səlahiyyətləri izah edilmiş və müraciətləri qəbul edilmişdir.

Başçəkmə zamanı saxlanılan şəxslərin gəzinti hüququnun təmin və cərimə təcridxanasına mütəmadi həkim baxışının keçirilməsində nöqsanlara yol verildiyi aşkar olunmuşdur.

Bundan başqa, saxlanılan O.Q.-nin cərimə təcridxanasına keçirmə qərarı olmadan orada saxlanıldığı müəyyən edilmişdir. Araşdırma zamanı müəssisə rəisi həmin şəxsin suçiçəyi xəstəliyinə yoluxduğunu, bununla əlaqədar onun həkim raportu əsasında digər məhkumlardan təcrid edilməsi məqsədilə orada yerləşdirildiyini, həmçinin onun Penitensiar Xidmətin Müalicə Müəssisəsinə (MM) köçürülməsi ilə bağlı artıq hazırlıq işlərinə başlanıldığını bildirmişdir.

Başçəkmənin sonunda müəssisə rəhbərliyi ilə yekun görüş keçirilmiş, nöqsanların aradan qaldırılması, saxlanma şəraitinin və rəftarın təkmilləşdiriməsi ilə bağlı qanunamüvafiq tövsiyələr verilmişdir.

MPQ üzvləri tərəfindən *Penitensiar Xidmətin Həbsxanasına* əvvəlcədən xəbərdar etmədən planlı başçəkmə həyata keçirilmişdir. Başçəkmə çərçivəsində müəssisənin cərimə təcridxanasına, tibb-sanitar hissəsinə, mətbəxinə, görüş otaqlarına və digər obyektlərinə baxış keçirilmişdir.

MPQ-nin həkim üzvünün də iştirak etdiyi başçəkmə zamanı məhkumların, o cümlədən ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxslərin saxlanma şəraiti, rəftar məsələləri, sağlamlıq, qidalanma, telefon

danışığı, görüş və digər hüquqlarının təmin olunması vəziyyəti yerində araşdırılmışdır.

Fərdi və konfidensial qəbul zamanı məhkumlara hüquqları, Ombudsmanın səlahiyyətləri və müvafiq qanunvericiliyin tələbləri izah olunmuşdur. Eyni zamanda Müvəkkilə ünvanlanmış ərizələr qəbul olunmuş, bir sıra müraciətlər yerində təmin edilmişdir.

Başçəkmə zamanı müəssisənin cərimə təcridxanasının əsaslı təmirə ehtiyac olduğu, tibb-sanitar hissəsində bəzi dərman vasitələrinin müddətinin bitdiyi və üzərində lazımi möhürün olmadığı, laboratoriya otağının və əməliyyat bölməsinin fəaliyyət göstərmədiyi, rentgen, USM aparatlarının və bir çox digər tibbi avadanlığın işlək vəziyyətdə olmadığı, həmçinin yanğınsöndürmə qaydalarına riayət edilmədiyi, habelə sənədləşmədə nöqsanların olduğu müəyyən edilmişdir.

Yekunda MPQ üzvləri tərəfindən müəssisənin rəhbərliyi və əməkdaşları ilə hüquqi maarifləndirici söhbətlər aparılmış, habelə nöqsanların aradan qaldırılması, saxlanma şəraitinin, rəftar məsələlərinin və sənədləşmənin aparılması işinin daha da təkmilləşdirilməsi ilə bağlı müvafiq tövsiyələr verilmişdir.

2021-ci il ərzində *Penitensiar Xidmətinin Müalicə Müəssisəsinə* həyata keçirilmiş başçəkmələrdə (ümumilikdə 7 başçəkmə) məqsəd Ombudsmanın ünvanına daxil olmuş müraciətlərin, saxlanma şəraitinin və rəftar məsələlərinin araşdırılması, burada müalicə olunan məhkumların sağlamlıq və digər hüquqlarının təmin olunması vəziyyətinin öyrənilməsi olmuşdur.

Müalicə Müəssisəsində saxlanma şəraitinin qeyri-qənaətbəxş, binaların ayrı-ayrı hissələrinin ümumiyyətlə yararsız olduğu müşahidə edilmişdir.

Başçəkmələr çərçivəsində müəssisədə saxlanılan və müalicə olunan şəxslərlə görüşlər keçirilmiş, Ombudsmana müraciətləri qəbul edilmişdir.

Penitensiar Xidmətin Müalicə Müəssisəsi ilə bağlı problemlər içərisində zəruri tibbi avadanlıqların (MRT cihazı və s.) olmamasını və ixtisaslı kadrların sayının azlığını da göstərmək olar.

MPQ üzvləri tərəfindən burada saxlanılan şəxslərin hüquqlarının effektiv təmini ilə bağlı müəssisə rəhbərliyi ilə söhbətlər aparılmış və müvafiq tövsiyələr verilmişdir.

Ombudsmanın MPQ üzvləri tərəfindən *Penitensiar Xidmətin Tərbiyə Müəssisəsinə* həyata keçirilmiş başçəkmələrdə məqsəd yetkinlik yaşına çatmamış məhkumların qəbul olunması, müraciətlərinin dinlənilməsi, eyni zamanda Novruz bayramı ərəfəsində keçirilən başçəkmədə həmin uşaqların hər birinə sovqatın təqdim edilməsi olmuşdur.

Başçəkmənin gedişində bir neçə yetkinlik yaşına çatmamış şəxs qəbul edilmiş, onlarla konfidensial söhbət aparılmışdır. Həmin şəxslərin əsas müraciətləri asudə vaxtlarının səmərəli təşkili, Müalicə Müəssisəsində lazımi

müayinə və müalicə, habelə əfvlə bağlı olmuşdur. Yerində təmin edilməsi mümkün müraciətlər müsbət həll edilmiş, bəzi şəxslərin Ombudsmana ünvanlanan ərizələri qəbul olunmuşdur.

MPQ üzvləri tərəfindən *Şəki Penitensiar Müəssisəsinə* il ərzində 3 başçəkmə həyata keçirilmişdir.

İlk başçəkmə zamanı müəssisədə ümumilikdə 969 şəxsin saxlanıldığı müəyyən edilmişdir. Müəsisəsnin istintaq təcridxanası hissəsində kameralara təsadüfi seçim əsasında baxış nəticəsində sıxlığın, natəmizliyin və bəzi çarpayılarda döşək üzlərinin, mələfələrin olmadığı, eyni zamanda çarpayı sayının saxlanılan şəxslərin sayından az olduğu müəyyən edilmişdir.

Məhkumların 17 nəfərinin tibbi sanitar hissədə, 13 nəfərinin cərimə təcridxanasında (10 nəfər cəzanın çəkilməsi qaydalarını pozduğu üçün, 3 nəfər isə təhlükəsizliklərinin təmin olunması məqsədilə saxlanılır) olduğu bildirilmişdir.

COVID-19 xəstəliyinə qarşı məhkumların 97 faizinin peyvənd olunduğu, 3 faizinə isə “Əks göstəriş sertifikatı”nın verildiyi, istintaq təcridxanasında saxlanılanların növbəlilik əsasında vaksinasiya olunduqları, yeni gələnlərin isə təcrid olunaraq karantində saxlanıldıqları qeyd olunmuşdur.

Yetkinlik yaşına çatmayan C.M.-in (16 yaş) İstintaq Təcridxanalarının Daxili İntizam qaydalarının 5.11.2-ci maddəsinə zidd olaraq yetkinlik yaşına çatmış M.A. ilə 3 aya yaxındır eyni kamerada saxlanıldığı müəyyən olunmuşdur. Pozuntu halı müəssisənin rəisinə bildirilən zaman, müəssisədə yalnız bir nəfər yetkinlik yaşına çatmayan şəxs olduğu, onun müstəsna hal kimi tək saxlanılmaması üçün belə bir addım atıldığı bildirilmişdir.

İstintaq Təcridxanasında görüş yerinə baxış keçirilən zaman beş ədəd şüşəli kabinetin olmasına baxmayaraq, bunlardan yalnız ikisində telefonun olduğu müşahidə edilmişdir.

Tibb-sanitar hissəyə baxış zamanı tibbi personalın çatışmazlığı müşahidə edilmişdir. Burada 17 məhkumun olduğu bildirilsə də, xəstələrin stasionar qəbulunun qeydiyyatı jurnalında 16 nəfərin adının qeyd olunduğu müşahidə olunmuşdur. MPQ üzvlərinin müdaxiləsindən sonra zəruri qeydlər aparılaraq nöqsan aradan qaldırılmışdır. Həkim otaqlarına və psixi pozuntuları olan şəxslərin saxlanılması üçün olan rezin palataya baxış zamanı natəmizlik və fizioterapiya otağının döşəməsinin bir hissəsinin çürüyərək yararsız hala düşdüyü müşahidə olunmuşdur.

Ciddi Rejimin 1-ci korpusunun mətbəxinə baxış zamanı natəmizlik, elektrik isitmə sobasının üzərində çatların olduğu müşahidə edilmişdir. Bununla bağlı məhkumlar öz narazılıqlarını bildirmişdilər.

Kitabxana və kompüter otağının natəmiz olduğu, korpusun 2-ci mərtəbəsindəki kameralardan birinin döşəməsinin betondan olduğu müşahidə edilmişdir.

Başçəkmənin sonunda müəssisə rəhbəri ilə yekun görüş keçirilmiş, aparılmış müşahidələrin, o cümlədən qəbul edilmiş şəxslərin fikirləri konfidensiallıq qorunmaqla diqqətə çatdırılmış və nöqsanların aradan qaldırılması, saxlanma şəraitinin və rəftarın təkmilləşdirilməsi ilə bağlı qanunamüvafiq tövsiyələr verilmiş və müəssisə daxilində yerləşdirilməsi məqsədilə Ombudsmanın 916 "Çağrı Mərkəzi" barədə məlumatı özündə əks etdirən plakat təqdim edilmişdir.

Həyata keçirilmiş digər başçəkmələrdə məqsəd Ombudsmanın ünvanına daxil olan müraciətlərin araşdırılması olmuşdur. Burada saxlanılan bəzi şəxslər qəbul edilmiş, müraciətləri dinlənilmişdir. Qəbul edilmiş şəxslərdən ikisi əlillik dərəcəsinin verilməsində, biri isə dərman təchizatının yaxşılaşdırılmasında köməklik göstərilməsini xahiş etmişdir. Müraciətlər müvafiq qurumlar qarşısında qaldırılmaqla təmin edilmişdir.

*Penitensiar Xidmətin 6 saylı Cəzaçəkmə Müəssisəsinə* plandankənar başçəkmə həyata keçirilmişdir.

Burada cərimə təcridxanasına keçirmə növündə tənbeh tədbirlərinin çoxluğu diqqət çəkmişdir. Belə ki, başçəkmə günündə 40 nəfər şəxsin cərimə təcridxanasında saxlanıldığı müəyyən edilmişdir. Eyni rejimli cəzaçəkmə müəssisələri ilə müqayisədə bu rəqəm kifayət qədər çoxdur və burada islah tədbirlərinin zəif olduğuna dəlalət edir.

Bununla yanaşı 3 nəfər barəsində intizam tənbehi tədbiri bitməsinə və müvafiq qeydiyyat jurnalında həmin şəxslərin azad edilməsinə dair nəzarətçinin qeydinin və imzasının olmasına baxmayaraq həmin şəxslər başçəkmə anında CT-də saxlanılır. MPQ üzvlərinin müdaxiləsindən sonra həmin şəxslər cərimə təcridxanasından buraxılmışdır.

Cərimə təcridxanasında əməkdaşlar üçün nəzərdə tutulmuş qəbul otağında paltar dolabında xüsusi vasitələr olan əl qandalları və rezin dəyənək aşkarlanmışdır.

Axtarış-baxış tədbirləri zamanı tələb olunan hərəkətlərə etiraz edən məhkumlara rezin dəyənəyin tətbiqi, daha sonra cərimə təcridxanasına keçirilmə məsələsi də müraciətlərdə yer almışdır. Belə ki, *BMT-nin Məhbuslarla minimal standart davranış qaydaları* "İntizam xətalarına görə cəza qismində bu halda xüsusi vasitələrin tətbiqini qadağan edir" (*43.2-ci qayda*).

"Azərbaycan Respublikasının penitensiar sistemində təhlükəsizlik tədbirləri və onların tətbiq edilmə qaydaları haqqında" Təlimatda xüsusi vasitənin tətbiqi müddəti, həddi və əsasları ilə bağlı normalar *BMT-nin Məhbuslarla minimal standart davranış qaydalarına, Avropa Penitensiar Qaydalarına, eyni zamanda CPT və SPT tövsiyələrinə uyğun son zərurət tədbiri qismində təkmilləşdirilməlidir.*

Kameralarda yataq yerlərinin və oturacaqların (kətillərin) sayının saxlanılan şəxslərin sayından az olduğu müşahidə edilib. Belə ki, boş kameralar olmasına

baxmayaraq, 3 yerlik kamerada 4 nəfər məhkumun saxlandığı və çarpayılarda döşəklərin olmadığı müşahidə olunmuşdur.

Məhkumlarla söhbət və monitorinqlər onu deməyə əsas verir ki, yataq yerləri üçün mələfə, o cümlədən gigiyenik vasitələrin (diş pastası, əl-üz sabunu və dəsmalın) təminatına diqqətin artırılması vacibdir.

Cərimə təcridxanasına (CT) keçirilən məhkumların hamısının saçlarının tam şəkildə qırxıldığı müşahidə edilmişdir.

CT-də saxlanılan məhkumların gəzintiyə çıxmasına imkan verilmədiyi və intizam tənbehinin sonunadək qapalı şəraitdə saxlandıqları məlum olmuşdur ki, bu da Cəzaların İcrası qanunvericiliyinin tələblərinin ciddi pozuntusudur.

Eləcə də CT-nin kameralarında işıqlandırma və təbii işığın düşməsi zəifdir.

Qeyd olunanlarla yanaşı, təhlükəsizlik məqsədi ilə təcrid olunmuş məhkumların cərimə təcridxanasında tənbeh tədbiri qismində buraya köçürülmüş digər məhkumlarla bir yerdə saxlanıldığı hallar da müəyyən edilmişdir. Bu isə, həmin şəxslərin əməliyyat zərurəti ilə bağlı digər məhkumlardan təcrid olunması ilə əsaslandırılsa da, belə halların mövcudluğu narahatlıq doğurur.

Ombudsmanın MPM mandatı çərçivəsində Penitensiar Xidmətin *10 saylı Cəzaçəkmə Müəssisəsinə* başçəkmə həyata keçirilmişdir.

Başçəkmədə məqsəd müəssisədə saxlanma şəraitinin və rəftarın araşdırılması, məhkumların, o cümlədən Ombudsmana müraciət etmiş məhkumun hüquqlarının təmini vəziyyətinin öyrənilməsi olmuşdur.

Konfidensial olaraq qəbul edilmiş şəxslər əsasən xüsusi vasitələrin (rezin dəyənək və əl qandalı) tətbiqindən, müxtəlif qurumlara ünvanlanan müraciətlərinin göndərilməsində müəyyən problemlərinin olduğundan şikayət etmişlər.

Müəssisəyə yeni daxil olmuş şəxslərin saxlandığı "Karantin yeri"nə baxış zamanı qanunvericiliyin kobud pozuntusu müəyyən edilmişdir. Belə ki, müəyyən şəxslərin cəzaların icrası qanunvericiliyinə zidd şəkildə 14 gün müddət keçməsinə baxmayaraq müəssisənin məhkumlar üçün yaşayış sahəsinə keçirilmədiyi aşkar olunmuşdur.

Başçəkmə zamanı qida, qeydiyyat, tibbi xidmət məsələləri ilə bağlı nöqsanlar aşkar edilmişdir

Müəyyən edilmiş nöqsanlar, habelə 6 və 10 saylı CÇM-lərdə pis rəftar ehtimalının qarşısının alınması ilə bağlı Ədliyyə Nazirliyi qarşısında məsələ qaldırılmış, preventiv tədbirlər görülmüşdür.

MPQ üzvləri tərəfindən *Penitensiar Xidmətin 4 saylı cəzaçəkmə müəssisəsinə* planlı başçəkmə həyata keçirilmişdir.

Ümumilikdə müəssisənin yeni inşa olunan binasına köçürlümə işləri tezləşdirilməlidir. Bununla yanaşı saxlanma şəraitinin mövcud vəziyətdə təmini məqsədilə yaşayış korpuslarında, yeməkxanada, TSH-də işlərin görüldüyü, şəraitin yaxşılaşdırıldığı, islah məqsədilə məhkum qadınlar üçün əmək şəraiti

yaradılmaqla maaşla təmin edildiyi müşahidə edilmişdir. Eyni zamanda tövsiyələr nəzərə alınmaqla, məhkumların kitab oxumaları üçün həvəsləndirmə tədbirləri həyata keçirilmiş, onların mənəvi və psixoloji durumlarının yaxşılaşdırılması üçün mədəni tədbirlər təşkil edilmişdir.

Tibbi hissəyə keçirilən baxış zamanı orada 3 məhkumun saxlanıldığı müəyyən edilmişdir. Qadınlarla söhbətdə onlar zəruri tibbi yardımla təmin edildiklərini, müəssisənin saxlanma şəraitindən şikayət etməmişlər.

Təsadüfi seçim əsasında keçirilən qəbulda məhkumların müraciətləri dinlənilmiş, onlara qanunvericiliyin tələbləri izah edilmiş və qaldırdıqları məsələlər üzrə müvafiq hüquqi məsləhətlər verilmişdir.

İl ərzində həmin müəssisəyə növbəti dəfə həyata keçirilən başçəkmə zamanı 388 nəfərin (limitdən 38 nəfər çox) saxlanıldığı müəyyən edilmişdir.

MPQ üzvləri müəssisədə cəza çəkən məhkum qadınların onlardan kənarda yaşayan uşaqları ilə görüşlərinin xüsusi diqqət tələb etdiyini nəzərə alaraq, o cümlədən beynəlxalq standart və tövsiyələri əsas tutaraq uşaqların iştirak etdiyi görüşlərin keçirilməsi üçün onların yaşlarına uyğun müvafiq şəraitin yaradılması, qeyd olunan məsələnin açılması planlaşdırılan yeni cəzaçəkmə müəssisəsində də nəzərə alınaraq ayrı otağın ayrılması tövsiyə edilmişdir.

Bununla yanaşı uşaqların iştirak etdiyi görüşlərdə psixoloqun və ya digər ixtisaslaşmış mütəxəssisin iştirakının vacibliyi qeyd edilmiş, kənar şəxslərin ana-övlad ünsiyyətinə müdaxilə edilməsinə yol verilməməsi üçün müvafiq tədbir görülməsi tövsiyə olunmuşdur.

MPQ üzvləri tərəfindən *Penitensiar Xidmətin Gəncə şəhərində yerləşən 5 saylı Məntəqə Tipli Cəzaçəkmə Müəssisəsinə* plan üzrə başçəkmə həyata keçirilmişdir.

Müəssisənin ərazisində yerləşən 4 yataqxana binasından yalnız birinin istifadə edildiyi, orada cəmi 13 çarpayı və həmin çarpayıların sayına uyğun kətillər və dolablarla təchiz olunduğu, bununla yanaşı istifadədə olan yataqxananın müəyyən avadanlıq və digər əşyalarla (məhkumların sayına görə metal çarpayılar, 10-12 nəfərlik masa, oturacaqlar (kətil), içməli su üçün böyük qab və parç, reproduktor (radio cihaz) təmin olunmadığı, inzibati heyət üçün olan binada qazla isidilmə sisteminin olmasına baxmayaraq yataqxanada dizel yanacaqlı sobanın quraşdırıldığı müəyyən edilmişdir.

Cəzaçəkmə müəssisələrinin daxili intizam Qaydalarının 33-cü bəndinin tələbinə baxmayaraq, məntəqədə cəza çəkən hər məhkuma üzərində soyadı, adı, atasının adı yazılmış lövhəcik bərkidilən fərdi yataq yeri ayrılmalı olduğu halda yataqxanada bu cür lövhəciklərin, həmçinin yataqxanada məhkumların hüquqları barədə məlumatlandırıcı lövhənin mövcud olmadığı müşahidə edilmişdir.

Başçəkmə zamanı müəssisənin mətbəxinin köhnə və istifadəyə yararsız, əsaslı təmirə ehtiyacı olması, eyni zamanda hamamın və ümumi sanitar qovşağın işlək vəziyyətdə olsa da, əsaslı təmirə ehtiyacı olması müəyyən edilmişdir.

Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin 119.2-cü maddəsinə əsasən məntəqə tipli cəzaçəkmə müəssisəsində cəza çəkən məhkumların kommunal, yemək, maddi-məişət, tibbi-sanitariya və digər təminatlarının dövlət hesabına həyata keçirilməli olduğu qeyd edilsə də, müəssisədə bu təminatlar üçün maddi imkanın olmadığı müəyyən edilmişdir.

Cəzaçəkmə müəssisələrinin daxili intizam Qaydalarının məntəqə tipli cəzaçəkmə müəssisələrinin quruluşunun xüsusiyyətlərinə dair 5.1-ci bəndinin tələblərinə baxmayaraq müəssisədə tibb-sanitariya hissəsinin, kitabxananın, camaşırxananın, məhkumların şəxsi əşyalarının saxlanılması üçün anbarın və ticarət köşkünün mövcud olmadığı müəyyən edilmişdir.

Həmçinin müəssisə əməkdaşları arasında qadın psixoloq, həkim və ya feldşer ixtisaslı əməkdaşın olmaması müəyyən edilmişdir. Cəzaçəkmə müəssisələrinin daxili intizam Qaydalarının 184-cü bəndinə əsasən şəxsi baxış keçirən şəxs üzərində baxış keçirilən şəxslə eyni cinsdən olmalıdır. Burada zərurət yarandıqda şəxs üzərində baxışın kargüzar vəzifəsində çalışan qadın əməkdaş tərəfindən həyata keçirildiyi, onun zabit heyətində olmadığı, həmçinin məzuniyyətdə və ya istirahətdə olduğu vaxtlar qadın məhkumların üzərində baxış keçirilməsinin mümkün olmadığı aşkar edilmişdir.

Müəssisədə mövcud cərimə təcridxanasının cəzaçəkmə müəssisələrinin daxili intizam qaydalarının tələblərinə uyğun təşkil edilmədiyi, digər tikililərdən bütöv hasarla ayrılmalı olmasına baxmayaraq inzibati binanın içində təşkil olunduğu, yerə bərkidilmiş oturacaqla təchiz olunmadığı, dolabçanın isə yerə bərkidilmədiyi müəyyən edilmişdir.

*Penitensiar Xidmətin 17 saylı Cəzaçəkmə Müəssisəsinə* əvvəlcədən xəbərdarlıq etmədən planlı başçəkmə həyata keçirilmişdir. Başçəkmədə məqsəd saxlanılan şəxslərin saxlanma şəraitinin, rəftar məsələlərinin, habelə daxil olmuş müraciətlərin və zənglərin araşdırılmasından, məhkumların hüquqlarının təminatı ilə əlaqədar vəziyyətin öyrənilməsindən ibarət olub. Bu məqsədlə başçəkmə çərçivəsində 40 məhkumla konfidensial görüş keçirilmişdir.

Həmin müəssisədə də sıxlıq müşahidə edilmişdir. Belə ki, ümumi tutumu 1050 nəfərdən ibarət olan cəzaçəkmə müəssisəsində 1088 nəfərin saxlanıldığı məlum olmuşdur.

Başçəkmə günü müəssisənin cərimə təcridxanasında 26 nəfərin olduğu, onlardan 7 nəfərin ümumi əsaslarla orada saxlanıldığı aşkar edilmişdir.

Müəssisənin təmir olunmuş yeməkxanasına keçirilən baxış zamanı döşəmənin taxtadan olduğu, təmizliyə riayət edildiyi müəyyən olunmuşdur.

Eyni zamanda məhkumların yaşadığı yerlərə (korpusa) baxış zamanı orada döşəmənin taxtadan, havalandırmanın qənaətbəxş olduğu, televizorla təmin edildiyi, habelə ibadət otağının səliqəli olduğu müşahidə edilmişdir.

Cərimə Təcridxanasının kameralarında rütubətin olması səbəbindən divarlarında qabarmaların mövcud olduğu, 3 və 4 nəfərlik yerdə yalnız 2 nəfərin istifadə edə biləcəyi masa və oturacağın təşkil edildiyi, bəzi kameralarda su kranının və vintilin işləmədiyi, hamam divarının təmirə ehtiyacının olduğu, bəzi hallarda məhkumların hüquq və vəzifələrinin əks olunduğu qaydaların asılmadığı müşahidə edilmişdir.

Aşkar edilmiş nöqsanlar müəssisə rəhbərliyinin diqqətinə çatdırılmış, bəzi nöqsanlar yerində aradan qaldırılmış, təmir işlərinin tez bir zamanda aparılacağı barədə məlumat verilmişdir.

Sənədləşmə ilə bağlı vəziyyət araşdırılmış və sənədləşmənin aparılmasında olan nöqsanlarla bağlı tövsiyələr verilmiş və təmini vəziyyəti təkrar başçəkmə zamanı yerində yoxlanılmışdır.

### 2.2.3. Dövlət Təhlükəsizliyi Xidmətinin müəssisəsi

DTX-nin Müvəqqəti saxlama yeri və istintaq təcridxanasına Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili və onun Milli Preventiv Qrupunun üzvlərinin iştirakı ilə il ərzində 4 başçəkmə həyata keçirilmişdir.

BMT-nin İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyasının Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələblərinə uyğun təşkil olunmuş başçəkmələrdə məqsəd bu müəssisədə saxlama şəraiti və rəftar məsələlərinin, saxlanılan şəxslərin hüquqlarının təmin olunması vəziyyətinin və Ombudsmanın ünvanına daxil olmuş müraciətlərin araşdırılmasından ibarət olmuşdur.

Başçəkmələr zamanı digər təqsirləndirilən şəxslərlə yanaşı, Ermənistandan olan və Azərbaycanın işğaldan azad olunmuş ərazisində ictimai təhlükəli əməllərin törədilməsində təqsirləndirilən şəxs qismində müəyyən edilərək məhkəmə qərarı əsasında saxlanılan A.Q. konfidensial qaydada qəbul edilmişdir.

Ombudsman MPM mandatı çərçivəsində həyata keçirdiyi başçəkmə zamanı həmin şəxsin də müraciətlərini dinlənilmiş, ona öz dilində qanunvericilik aktları təqdim edilməklə hüquqları izah olunmuşdur.

Hər hansı bir fərq qoyulmadan həmin şəxsə münasibətdə hüquqlarının, lazımi tibbi və psixoloji xidmətin təmin olunduğu müşahidə edilmişdir.

Həyata keçirilmiş başçəkmələrin yekununda Müvəqqəti saxlama yeri və istintaq təcridxanasının rəhbərliyi ilə saxlanılan şəxslərin hüquqlarının təmini müzakirə olunub, milli və beynəlxalq qanunvericiliyə uyğun tövsiyələr verilmişdir.

### 2.2.4. Səhiyyə Nazirliyinin müəssisələri

Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində Səhiyyə Nazirliyinin tabeliyində olan müəssisələrə əvvəlcədən xəbərdarlıq etmədən 14 başçəkmə həyata keçirilmişdir.

MPQ üzvləri tərəfindən *Səhiyyə Nazirliyinin 1 saylı Körpələr Evinə* planlı başçəkmə həyata keçirilmişdir.

MPQ-nin ixtisasca psixoloq ekspertinin də iştirak etdiyi başçəkmə çərçivəsində 1 saylı Körpələr evinin yataq və tibb otaqlarına, oyun zalına, mətbəx, camaşırxana və digər yerlərə baxışlar keçirilmiş, qidalanma səviyyəsi, tibbi yardımın və psixoloji işin təşkili ilə bağlı mövcud vəziyyət və sənədləşmə araşdırılıb, bir sıra çatışmazlıqlar müəyyən edilmişdir.

Başçəkmə zamanı növbətçi həkimin məzuniyyətdə olduğu və onu əvəz edəcək əməkdaşın təyin olunmadığı aşkar edilmişdir.

Yataq otaqlarına baxış zamanı sanitar qovşağın sanitar gigiyenik normalara uyğun olmadığı, kranların işləməməsi, uşaqlar üçün nəzərdə tutulmuş gigiyenik vasitələrin, diş fırçaları kimi əşyaların olmaması, uşaq çəkməcələrin bəzilərinin üzərində adlar yazılsa da daxillərinin boş olduğu, əməkdaşların şəxsi əşyalarının körpələrin əşyaları ilə bir saxlanıldığı müşahidə edilib.

Tibbi hissədə ilkin tibbi yardım üçün tibbi çantanın olmaması, dərmanların (peyvəndlərin) qeydiyyatında nöqsanlar, fizioterapiya, masaj və manipulyasiya otaqlarının istifadə edilməməsi, fizioterapiya üçün nəzərdə tutulmuş aparatların işlək olmaması müəyyən edilmişdir. Belə ki, uşaqlara vurulan peyvəndlərin qeydiyyat dəftərinə baxış zamanı qeyd olunan rəqəmlərlə mövcud olan peyvənd sayının uyğunsuzluğu müşahidə olunub (qeydlərə əsasən: uşaqlara vurulan peyvəndlərin sayı qalıq peyvənd sayından çoxdur).

Uşaqların tibb kitabçalarına baxış zamanı 3 uşağın A.F.Qarayev adına 2 saylı uşaq kliniki xəstəxanasına yerləşdirildiyi müəyyən edilmişdir. Həmin uşaqların cari vəziyyətləri haqqında əməkdaşların məlumatsız olması səbəbi ilə, MPQ üzvü tərəfindən xəstəxana ilə əlaqə saxlanılmış və əlavə məlumat əldə edilmişdir.

Camaşırxanada ümumi səliqəsizlik, eyni zamanda əməkdaşların çirkli əşyalarının orda olması müşahidə olunmuşdur. Yanğına qarşı avtomatik sistemin mövcudluğu, lakin yanğınsöndürən balonların istifadə müddətinin bitdiyi müəyyən edilmişdir.

Uşaqlarla psixoloji işin ümumiyyətlə aparılmadığı müşahidə olunmuşdur. Belə ki, özünəxidmət bacarıqlarının (misal üçün, uşaqların diş fırçalama, sərbəst yemək yemə) inkişaf dinamikasının müşahidəsi, ilkin və mütəmadi qiymətləndirməsi və qeydiyyatı aparılmır. Buna əsas səbəb kimi psixoloq ştatının olmaması göstərilmişdir. Qeyd etmək vacibdir ki, 5 həkim-pediatr, 11 tibb bacısı, 12 dayə, 21 tərbiyəçi olmaqla ümumilikdə 69 əməkdaş olan müəssisədə loqoped və uşaq psixoloqu fəaliyyət göstərmir.

Uşaqlar havanın soyuq olması bəhanəsi ilə həyatə çıxarılmır, lakin başçəkmə günü və əvvəlki günlərdə havanın mülayim keçməsi bu səbəbin əsassız olduğunu göstərir. Uşaqlar üçün oyuncaqların sayının az olması ilə yanaşı, onların yaşlarına uyğun və inkişaf etdirici oyuncaqların demək olar ki, mövcud olmaması müşahidə edilmişdir.

Müəssisənin hovuzu istifadə olunmur.

Uşaqların individual əşyalarının (əmziklərin) sterilizasiyasında, ərzaqların saxlanılmasında nöqsanlar aşkarlanmışdır.

Sənədlərə baxış zamanı müəssisənin əsasnaməsinin (nizamnaməsinin) 1997-ci ildə təsdiq olunduğu və keçən müddət ərzində yenilənmədiyi müəyyən olunub.

Başçəkmənin yekununda müəssisə rəhbərliyi və əməkdaşları ilə söhbət aparılmış, müəyyən olunan nöqsanların aradan qaldırılması ilə bağlı qanunvericiliyin tələbləri izah olunmuş, habelə yerində aradan qaldırılması mümkün olan məsələlərlə bağlı tövsiyələr verilmişdir.

Qeyd etmək lazımdır ki, müəssisədə aşkar edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması məqsədilə Ombudsmanın adından səhiyyə nazirinə məktub ünvanlanmış, zəruri təklif və tövsiyələr qeyd edilmişdir. Alınmış cavab məktubundan aydın olmuşdur ki, Səhiyyə Nazirliyinin müvafiq Sərəncamı ilə komissiya yaradılmış və 1 saylı Körpələr Evində yerində araşdırma aparılmış, nəticədə baş həkim vəzifəsini icra edən şəxsə töhmət elan edilmiş, müəssisə rəhbərliyinə aşkar edilmiş nöqsanların qısa müddətdə aradan qaldırılması tapşırılmışdır.

Təkrar başçəkmə zamanı Ombudsmanın verdiyi təklif nəzərə alınaraq müəssisədə ixtisasca psixoloq olan 2 nəfər mütəxəssis tərəfindən uşaqlarla psixoloji işin aparıldığı da müşahidə edilib.

*Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Gəncə Körpələr Evinə* başçəkmə həyata keçirilmişdir. Müəssisədə 5 vakant - 3 həkim-pediatr, fizioterapevt, şüa-diaqnostika həkimi ştatları mövcuddur.

Müəssisə dezinfeksiyaedici məhlullarla təmin edilsə də, hərarətin məsafədən yoxlanılması aparatı ilə təchiz olunmadığı məlum olmuşdur.

Başçəkmə zamanı müəssisənin iki mərtəbədən ibarət olan yataqxanasının ikinci mərtəbəsinin tamamilə istifadəyə yararsız olması müşahidə edilmişdir. Müəssisədə şüa diaqnostika kabineti, fizioterapiya və tibbi bərpa kabineti və aptek nəzərdə tutulsa da, mövcud olmadığı müəyyən edilmişdir.

Ümumilikdə, Körpələr Evinin binasının, insfrastukturunun hazırki vəziyyəti uşaqlar üçün layiqli yaşayış sahəsinin, keyfiyyətli sosial xidmətin həyata keçirilməsinin təmin edilməsinə, yaş və fərdi xüsusiyyətləri nəzərə alınmaqla uşaqların fiziki, psixoloji və sosial inkişafının, sadə əmək vərdişlərinə yiyələnmələrinin, istedad və qabiliyyətlərinin üzə çıxarılmalarının, sağlamlıqlarının qorunmalarının tam şəkildə icra edilməsinə imkan vermir.

Milli Preventiv Qrupun üzvləri tərəfindən əvvəlcədən xəbərdarlıq etmədən *Səhiyyə Nazirliyinin Respublika Psixiatriya Xəstəxanasına* həyata keçirilmiş planlı başçəkmənin məqsədi müəssisədə müalicə olunan pasiyentlərlə rəftar, saxlanma şəraiti, tibbi yardımın vəziyyəti və müvafiq sənədləşmənin araşdırılması olmuşdur.

Saxlanma şəraiti öyrənilmiş, aşkar olunmuş və yerində aradan qaldırılması mümkün olan nöqsanlarla bağlı müəssisə rəhbərliyinə tövsiyələr verilmiş, habelə pasiyentlərin hüquqlarının qorunması və gələcəkdə onlara qarşı hər hansı pis rəftar hallarının baş verməsinin qarşısının alınması məqsədilə müəssisə rəhbərliyi və əməkdaşları ilə hüquqi maarifləndirici söhbətlər aparılmışdır.

Respublika Psixiatriya Xəstəxanasının Adi Rejimli Məcburi Müalicə Şöbəsinə baxış zamanı orada rütubətli havanın normadan yüksək olması müəyyən edilib, bu isə həmin şöbədə saxlanılan vərəm xəstəliyindən əziyyət çəkən pasiyentlərin sağlamlığını təhlükəyə atır. Odur ki, pasiyentlərin sağlamlıq hüququnun təmin edilməsi məqsədi ilə müvafiq şəraitin yaradılması, o cümlədən həmin korpusun qısa zamanda təmir olunması zəruridir.

Aptekə (xəstəxananın əczaxanası) baxış zamanı orada psixotrop dərmanların saxlanıldığı otağın giriş hissəsində müvafiq qaydalara zidd olaraq xüsusi qapının olmadığı müşahidə edilib.

Həmin müəssisənin Gücləndirilmiş və Ciddi Müşahidə Altında Məcburi Müalicə Şöbəsinə baxış keçirilən zaman kamera tipli otaqların bir neçəsində televizor və kondisioner olduğu halda, digər otaqlarda mövcud olmadığı müşahidə edilib. Bu çatışmazlıq isə pasiyentlərin hüquqlarının təmin edilməsində bərabərlik prinsipinin pozulması kimi qiymətləndirilə bilər.

Şöbədə sənədləşmə ilə bağlı bir sıra nöqsanların olduğu, pasiyentlərin giriş-çıxışının düzgün qeyd edilməydiyi, imza yerlərinin boş saxlanıldığı, bəzi qeydlərdə düzəlişlərin olduğu aşkar edilmişdir.

Xəstəxananın ərazisinə baxış zamanı bir neçə pasiyentin məcburi əməyə cəlb edildiyi müşahidə olunmuş və məsələ Səhiyyə Nazirliyi qarşısında qaldırılmaqla tədbirlər görülmüşdür. BMT-nin "Psixi xəstələrin müdafiəsi və psixiatriya yardıEşmının yaxşılaşdırılması prinsipləri"nə əsasən pasiyentlər heç bir halda məcburi əmək fəaliyyətinə cəlb olunmamalıdırlar. Bu kimi halların qarşısının alınması üçün nəzarətin gücləndirilməsini və müvafiq qaydaların qəbul edilməsi vacibdir.

*Səhiyyə Nazirliyinin Sumqayıt şəhər Psixiatriya Xəstəxanasına* başçəkmə həyata keçirilmişdir. Müəssisədə rəhbərlik tərəfindən pandemiya səbəb göstərilərək qadınların kişi pasiyentlərdən fərqli olaraq açıq havada gəzinti hüququnun təmin olunmadığı müəyyən edilmişdir. Məlum olduğu kimi pasiyentlərə hər gün açıq havada gəzmək imkanı verilməlidir. Odur ki, pasiyentlərin hüquqlarının təmin olunmasına diqqətin artırılması vacibdir.

Başçəkmə zamanı müəssisədə sosial-psixoloji reabilitasiya tədbirlərinin demək olar ki aparılmadığı, müalicənin farmako-terapiya ilə məhdudlaşdığı müəyyən olunmuşdur. Eyni zamanda pasiyentlərlə əmək terapiyası, qrup terapiyası, incəsənət, dram, musiqi və idman məşğələlərinin aparılmadığı, onların yeni peşələrə yiyələnməsi və işə düzəlməsi üçün müalicə-istehsalat sahəsinin yaradılmadığı, habelə yüngül iş şəraiti olan xüsusi istehsalat sahələrinin olmadığı müşahidə edilmişdir.

Bununla yanaşı pasiyentlərlə bağlı müalicənin məqsədləri, üsulları kimi məlumatları əks etdirən fərdi müalicə planının olmadığı müəyyən edilmişdir. CPT standartlarına əsasən hər bir pasiyent üçün müalicə planının işlənib hazırlanması fərdi yanaşmaya əsaslanmalıdır, o cümlədən "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikasının Qanununun 15.0.8-ci bəndinə uyğun olaraq psixi pozuntusu olan şəxslərin əmək terapiyası, yeni peşələrə yiyələnməsi və işə düzəlməsi üçün müalicə-istehsalat müəssisələri, habelə yüngül iş şəraiti olan xüsusi istehsalat sahələri yaradılmalıdır.

Qeyd olunanları nəzərə alaraq, müəssisədə müalicəni farmako-terapiya ilə məhdudlaşdırmamaq, psixo-sosial reabilitasiya tədbirlərinin müasir standartlara uyğun təşkil olunması, o cümlədən əmək terapiyasının uzun müddətli müalicənin tərkib hissəsinə çevrilməsini, pasiyentlərin müalicə planlarının tərtibatında iştirakının dəstəklənməsi, xüsusi istehsalat sahələrinin yaradılması, hər bir pasiyent üçün müalicə məqsədlərini, terapiya üsullarını və müalicəyə cavabdeh olan əməkdaşların adlarının əks olunduğu fərdi müalicə planının tərtib olunması tövsiyə edilir.

Sumqayıt şəhər Psixiatriya Xəstəxanasında saxlanma şəraitinin yaxşılaşdırılması məqsədilə müəssisənin binasının tam əsaslı təmirinə ehtiyacın olduğu müşahidə edilmişdir.

Burada menyunun həftəlik deyil, gündəlik olaraq hazırlandığı, lövhədə təbaşir ilə yazıldığı, rasionda meyvə və tərəvəz çatışmazlığı müşahidə edilmişdir. Odur ki, menyunun müvafiq qaydalara uyğun tərtib edilməsi, rasionun isə qida normalarına əsasən təşkil olunması məqsədəmüvafiqdir.

Sənədləşmə ilə bağlı da bəzi nöqsanlar aşkar edilmişdir. Sənədlərə təsadüfi seçim əsasında baxış zamanı bəzi sənədlərdə imzanın kim tərəfindən çəkildiyinin qeyd olunmadığı, bir neçə sənədin boş hissələrinə irəli tarixli (başçəkmə 27 avqust 2021ci il tarixdə keçirilib, imzalar isə 31 avqust 2021-ci il tarixi ilə çəkilib) möhür və imza qoyulduğu aşkar edilmişdir.

Bundan başqa psixotrop dərmanların qeydiyyatında da nöqsanlar müəyyən olunmuşdur. Belə ki, mövcud dərman sayının qeydiyyatda əks olunmuş dərman sayı ilə uyğun gəlməmişdir.

Qeyd etmək lazımdır ki, Respublika Psixiatriya Xəstəxanası və Sumqayıt şəhər Psixiatriya Xəstəxanalarına həyata keçirilmiş başçəkmələrdən sonra Səhiyyə Nazirliyinə məktub ünvanlanmış, aşkar edilmiş nöqsan və çatışmazlıqlar

qeyd edilərək, bunların aradan qaldırılması istiqamətində zəruri təklif və tövsiyələr verilmişdir. Alınmış cavabda çatışmazlıqların aradan qaldırılması istiqamətində görülmüş tədbirlər barədə məlumat verilmişdir.

MPQ üzvləri tərəfindən SN-nin *Lənkəran şəhər Psixatriya Xəstəxanasına* plan üzrə başçəkmə həyata keçirilmişdir. Başçəkmədə məqsəd yeni növ Koronavirus infeksiyasının (COVID-19) geniş yayılmasının qarşısının alınması və onunla mübarizənin gücləndirilməsi üçün tətbiq edilən xüsusi karantin rejimi dövründə buradakı saxlanma şəraiti, rəftar məsələləri, qidalanma səviyyəsi, tibbi-sosial xidmətlərə çıxış imkanları, daxil olmuş müraciətlərin araşdırılması, hospitallaşdırılmış pasiyentlərin hüquqlarının təmin olunması, müvafiq şəkildə sənədləşmənin aparılması, ümumilikdə əvvəlki səfərlərdə aşkar edilmiş nöqsanların aradan qaldırılmasına istiqamətlənmiş tövsiyələrin icrası vəziyyətinin öyrənilməsi olmuşdur.

Qadın və kişi sektorunda saxlanılan şəxslərlə söhbət aparılaraq, müalicəsi, səhhətlərinin vəziyyəti, dərmanların qəbulu və psixiatriya yardımının effektivliyi və hüquqlarının pozulub-pozulmaması məsələləri araşdırılmışdır. Pasiyentlər onlarla rəftardan, saxlanma şəraitindən, qida və dərman təminatından, tibbi yardımın səviyyəsindən şikayətlərinin olmadığını söyləmişlər.

Başçəkmə zamanı tibbi yardımın təşkili məsələsi araşdırılarkən, baş həkim müəssisədə 4 həkimin fəaliyyət göstərdiyini, kadr çatışmazlığı olduğunu, gənc həkimlərin isə psixatriya sahəsində çalışmaq istəmədiyini bildirmişdir. O, Koronavirus pandemiyası ilə əlaqədar pasiyentlərin yaxın qohumları ilə görüşünün məhdudlaşırıldığını bildirmişdir.

Ərzaq anbarına baxış zamanı ərzaqların az olması müşahidə olunmuşdur. Müəssisənin təsərrüfat müdiri ayın sonu olduğuna görə ərzaqların azaldığını, təczhizat şöbəsi tərəfindən müəssisənin təmin olunacağını söylədi. MPQ üzvləri tərəfindən bu məsələnin təcili həll olunmalı olduğu diqqətə çatdırılmışdır.

Başçəkmə zamanı müəssisəyə əvvəlki səfərlərdə aşkar edilmiş nöqsanların aradan qaldırıldığı və MPM-in tövsiyələrinin icra olunduğu müşahidə edilmişdir.

MPQ üzvləri tərəfindən *Qazax Rayonlararası Psixiatriya Xəstəxanasına* plan üzrə başçəkmə həyata keçirilmişdir. Xəstəxana Qazax, Ağstafa, Tovuz (Gəncə şəhəri, Şəmkir, Gədəbəy, Samux, Göygöl, Daşkəsən, Goranboy, Yevlax rayonlarından da xəstələr qəbul edilir) rayonlarınaa xidmət etməklə 100 nəfər saxlama limitinə malikdir. Xəstəxanada həkim çatışmazlığı mövcuddur.

Müəssisəyə əvvəlki başçəkmələr zamanı çatışmazlıq kimi qeyd olunmuş halların aradan qaldırıldığı, pasiyentlərin istifadə etmələri üçün ibadət otağı və kitabxananın təşkil edildiyi müşahidə olunmuşdur.

Bununla yanaşı Qazax Rayonlararası Psixatriya Xəstəxanasının binasının köhnə olması, uzun müddətli təbii aşınmalara məruz qalması cari təmir işlərinin müntəzəm olaraq davamını zəruri edir. Bu baxımdan müəssisə üçün yeni binanın tikintisinə ehtiyac duyulur. Müəssisə rəhbərinin verdiyi məlumata əsasən Qazax

Rayonlararası Psixatriya Xəstəxanasının yeni binasının tikintisi üçün Qazax rayonu ərazisində yer ayrılıb, layihə sənədləri hazırlanıb və yaxın zamanlarda tikintinin başlanılması gözlənilir.

*Quba Rayonlararası Psixonevroloji Mərkəzinə* başçəkmə həyata keçirilmişdir. Başçəkmədə məqsəd müəssisədə saxlanma şəraitinin və rəftarın, habelə saxlanılan şəxslərin hüquqlarının təmin olunması, müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Saxlanma şəraiti ilə bağlı müəssisənin palatalarına, mətbəxə və digər inzibati otaqlara baxışlar keçirilmiş, qidalanma, içməli isti və soyuq su təminatı, sənədləşmə araşdırılmışdır.

Rəftar məsələlərinin araşdırılması ilə bağlı MPQ üzvləri tərəfindən həmin müəssisədə saxlanılan 4 nəfər şəxs konfidensial qaydada dinlənilmiş, hüquqlarının təmin olunma vəziyyəti, sənədləşmə yerində araşdırılmışdır.

Yekunda müəssisə rəhbərliyi və məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbət aparılmış, milli və beynəlxalq qanunvericiliyin tələbləri onların nəzərinə çatdırılmış və saxlanma şəraitinin təkmilləşdirilməsi ilə bağlı digər müvafiq tövsiyələr verilmişdir.

MPQ üzvləri tərəfindən *Lənkəran Rayonlararası Narkoloji Xəstəxanasına* plan üzrə başçəkmə həyata keçirilmişdir. BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolu, Konstitusiya Qanunu, Narkoloji xidmət və nəzarət haqqında Azərbaycan Respublikası Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmədə məqsəd müəssisədə saxlanma şəraiti və rəftarın qiymətləndirilməsi, qidalanma və dərman təchizatı, keyfiyyətli tibbi xidmət və diqqət yetirilməli olan digər məsələlərin dairəsinin müəyyənləşdirilməsindən ibarət olmuşdur.

Başçəkmə zamanı palatalara, qəbul, tibb işçisi otaqlarına, hamam, dezinfeksiya otağına, mətbəxə və digər obyektlərə baxış keçirilərək buradakı vəziyyəti, işıqlandırma, ventilyasiya, sanitariya şəraiti yoxlanılmışdır.

Narkoloji Xəstəxanada müalicə olunan 6 nəfər şəxsin hər biri ilə söhbət aparılmış, onlarla rəftar, hüquqlarının təmin olunması məsələləri, habelə müalicə və səhhətlərinin vəziyyəti araşdırılmışdır.

Yekunda müəssisə rəhbərliyi ilə narkoloji xidmətin və nəzarətin məqsədi, əsas prinsipləri, həyata keçirilməsinin ümumi şərtləri, ixtisaslaşdırılmış narkoloji yardımın göstərilməsi, narkomaniyaya düçar olan şəxslərin müalicəsinin və narkoloji xəstələrin cəmiyyətə qovuşmasına yönəlmiş tədbirlərin həyata keçirilməsinin əhəmiyyəti və digər mühüm məqamlar barədə müzakirə aparılmış, milli və beynəlxalq qanunvericiliyin tələbləri əsasında saxlanma şəraitinin təkmilləşdirilməsi ilə bağlı müvafiq tövsiyələr verilmişdir.

## 2.2.5. Təhsil Nazirliyinin müəssisələri

Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində Təhsil Nazirliyinin tabeliyində olan müəssisələrə əvvəlcədən xəbərdarlıq etmədən 33 başçəkmə həyata keçirilmişdir. Başçəkmələr zamanı beynəlxalq təcrübə nəzərə alınmaqla təhsil müəssisələrində saxlanma şəraiti və rəftar məsələləri, habelə bu sahədə milli və beynəlxalq standartların praktik tətbiqi məsələləri araşdırılmışdır.

Həyata keçirilən başçəkmələrin 16-ı inteqrasiya təlimli internat tipli gimnaziyalara, 7-i xüsusi internat məktəblərinə, 4-ü ümumtəhsil internat məktəblərinə, 4-ü xüsusi təlim-tərbiyə müəssisələrinə, 2-i sanator tipli ümumtəhsil internat məktəblərinə həyata keçirilmişdir.

Bakı şəhərində yerləşən Sağlamlıq imkanları məhdud uşaqlar üçün 3, 4 və 5 nömrəli Respublika xüsusi internat məktəblərinə və E.Quliyev adına Sağlamlıq imkanları məhdud uşaqlar üçün 9 nömrəli xüsusi internat məktəbinə 1-i plandankənar olmaqla ümumilikdə 7 başçəkmə həyata keçirilmişdir. Başçəkmələrdə məqsəd xüsusi internat məktəblərində təhsil alan uşaqların hüquqlarının təmini vəziyyəti, müəssisələrdə saxlanma şəraiti, rəftar məsələləri, qidalanma səviyyəsi, müvafiq sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi, o cümlədən öncəki başçəkmələr zamanı verilmiş tövsiyələrin icrası üzrə görülmüş tədbirlərin yoxlanılması, habelə Ombudsmanın 916 Çağrı Mərkəzinə müraciət edən M.İ.-nin şikayətinin yerində araşdırılması olmuşdur.

Sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 nömrəli Respublika xüsusi internat məktəbinə həyata keçirilən başçəkmə zamanı müəssisədə görmə qabiliyyəti olmayan X, XI, XII sinif şagirdləri üçün Brayl əlifbası ilə çap olunmuş dərsliklərin olmadığı müşahidə edilmişdir. Bununla bağlı məktəbin direktoru 2018-ci ildən bu məsələ ilə bağlı Təhsil Nazirliyinə bir neçə dəfə müraciət etdiyini və hal-hazırda çap işinin icra mərhələsində olduğunu bildirərək, yeni tədris ilində bu problemin aradan qaldıracağını bildirmişdir. Lakin, növbəti başçəkmə zamanı adıçəkilən problemin həll olunmadığı müəyyən edilimişdir. Müsahibələr zamanı şagirdlər bununla bağlı əziyyət çəkdiklərini, müəllimlər isə dərslərin səmərəliliyinin aşağı olduğunu bildirmişlər. 2021-2022-ci tədris ilində müəssisədə görmə qabiliyyəti olmayan 33 nəfər X-XII sinif şagirdi dərsliklər ilə təmin olunmayıb, odur ki, öncəki illərin də şagird sayını nəzərə alsaq uşaqların təhsil hüququnun təminində sistematik pozuntunun olduğunu demək olar. Bununla yanaşı, kitabxanada Brayl əlifbası ilə çap olunmuş bədii ədəbiyyata ehtiyacın olduğu müəssisə əməkdaşları tərəfindən bildirilmişdir.

Bundan başqa, məktəbin yataqxanasında işıqlandırmanın müvafiq normalara uyğun olmadığı müşahidə edilmiş və bununla bağlı müəssisə rəhbərliyinə müvafiq tövsiyələr verilmişdir. Təkrar başçəkmə zamanı problemin həll edildiyi müşahidə olunmuşdur.

Sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 nömrəli Respublika xüsusi internat məktəbində uşaqların müəssisəni müvəqqəti tərk etməsinə dair sənədlərin mövcud olmaması ilə bağlı MPQ üzvlərinin müəssisə rəhbərliyinə müvafiq tövsiyəsindən sonra həyata keçirilmiş təkrar başçəkmədə məsələnin müsbət həll edildiyi, sənədləşmənin aparıldığı müşahidə edilmişdir.

Bundan başqa, təkrar başçəkmədə uşaqlarla aparılan konfidensial söhbətin gedişində onların əvvəlki başçəkmə zamanı qidalanma ilə bağlı problemin həll olunduğu müəyyən edilmişdir.

Məktəbin anbarına baxış zamanı orada Brayl əlifbasının öyrənilməsinə yönəlmiş alətlərin istifadəsiz qaldığı, sinif otaqlarında bu alətlərin məhdud sayda (2 otağa 1 alət) və istifadəyə yararsız vəziyyətdə olduğu müəyyən edilmişdir. Bu məsələ müəssisə direktoruna bildirilmiş və növbəti başməkmə zamanı uşaqların lazımi avadanlıqlarla təmin olunduğu müşahidə edilmişdir.

*9 nömrəli xüsusi internat məktəbinə* həyata keçirilən başçəkmə zamanı əmək təlimi, peşəyönümü və peşə hazırlığı işlərinin aparılması üçün heç bir maddi-texniki bazanın, o cümlədən emalatxanaların olmadığı, 5 nömrəli xüsusi internat məktəbində isə peşəyönümlü işlərin aparılmasına baxmayaraq, bu dərslərin davamlı olmadığı müəyyən edilmişdir.

916 Çağrı Mərkəzinə müraciət edən M.İ.-nin şikayətinin yerində araşdırılması məqsədilə 9 saylı xüsusi internat məktəbində 4 fərqli sinifdə fərdi və qrup şəklində görüşlər keçirilmişdir. Şagirdlərin ümumilikdə məktəbə və müəllimlərinə müsbət yanaşdığı, məktəbə həvəslə gəldikləri müşahidə edilmişdir. Lakin uşaqların qidalanması ilə bağlı çatışmazlıqlar mövcuddur.

Burada uşaqların loqopedik məşğələlərə dərs vaxtı cəlb olunduğu müəyyən olunmuş və müəssisə rəhbərliyinə bu məsələ ilə bağlı qanunvericiliyin tələbləri izah edilmişdir. Müəssisəyə keçirilən təkrar başçəkmə zamanı problemin həll olunduğu, loqopedik məşğələlərin təhsil prosesinə maneə törətmədən dərsdənkənar zaman keçirildiyi müşahidə edilmişdir.

9 nömrəli xüsusi internat məktəbində psixoloqun 2020-ci ildən fəaliyyət göstərmədiyi, növbəti başçəkmədə isə, müvafiq vakansiya üzrə mütəxəssisin fəaliyyətə cəlb olunduğu müəyyən edilmişdir.

Bundan başqa qızlar üçün nəzərdə tutulmuş hamam otağında uşaqların şəxsi gigiyenik əşyalarının saxlanılmasının qaydalara uyğun olmaması məsələsi həll olunmuş, uşaqların əşyalarının fərdiləşdirildiyi (əşyaların üzərilərinə tanınması üçün uşaqların adları qeyd edilmiş) və onların sanitar-gigiyenik normalara uyğun şəkildə saxlanıldığı müşahidə olunmuşdur.

Əvvəlki başçəkmə zamanı aşkar edilən kobud rəftar halı ilə bağlı müəssisənin 3 əməkdaşına əmək intizamının pozulmasına görə yazılı xəbərdarlıq edilmişdir.

3 nömrəli Sağlamlıq imkanları məhdud uşaqlar üçün Respublika xüsusi internat məktəbinə keçirilən başçəkmə zamanı müəssisənin saxlanma şəraitinin

standartlara cavab vermədiyi müəyyən edilmişdir. Belə ki, məktəbin korpus sayının çox olmasına baxmayaraq, onların 2/3 hissəsində qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdığı, uşaqların yataq otaqlarında sıxlıq və işıqlandırmanın normalara cavab vermədiyi, müəssisənin əsaslı təmirə ehtiyacının olduğu müşahidə edilmişdir.

Sağlamlıq imkanları məhdud Valideyn himayəsindən məhrum uşaqlar üçün 4 nömrəli Respublika xüsusi internat məktəbinin Nizamnaməsinin 2005-ci ildə təsdiq edildiyi və həmin sənəddə müəssisənin adı "Yetim və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün Respublika yardımçı internat məktəbi" kimi qeyd olunduğu, burada müəssisənin fəaliyyətinə dair dəyişikliklərin təsbit olunmadığı müəyyən edilmişdir.

Ümumilikdə, xüsusi internat müəssisələrinə keçirilən başçəkmələr zamanı xüsusi təhsilə aid dövlət standartlarının və təhsil proqramlarının (kurikulum) mövcud olmadığı, habelə müvafiq tədris-maddi bazası olan məktəblərin məzunlarına peşə təhsilinə aid hər hansı bir sənədin verilmədiyi, bununla yanaşı peşə təhsili üzrə xüsusi dövlət standartlarının və təhsil proqramlarının olmadığı müşahidə edilmişdir. Xüsusi internat məktəblərində valideynlər və müəllimlər üçün metodiki vəsaitlərin çatışmazlığı müşahidə olunmuşdur. Bu məktəblərdə təhsil alanların psixoloji vəziyyətini, təlim nailiyyətlərini, inkişaf meyillərini, maraq dairəsini müəyyən etmək məqsədilə müayinə və təhlillər aparmaqla real vəziyyətin müəyyənləşdirilməsinin, müvafiq fərdi inkişaf planları hazırlanmasının demək olar ki, aparılmadığı müəyyən olunmuşdur.

Ümumilikdə, müəssisələrdə sağlamlıq imkanları məhdud uşaqların inkişaf planlarının tərtib olunmasına, digər pedaqoji işçilərlə əməkdaşlıq çərçivəsində şagirdlərə yönəlmiş kompleks tədbirlərin aparılmasına, psixoloji kabinetlərin didaktik materiallarla təchiz edilməsinə ehtiyac vardır.

2021-ci ildə Bakı, Sumqayıt, Gəncə, Balakən, Goranboy, Tovuz, Salyan, Siyəzən, Şəki, Mingəçevir və Zaqatala şəhərlərində yerləşən İnteqrasiya təlimli internat tipli gimnaziyalara ümumilikdə 16 planlı başçəkmə həyata keçirilib.

Başçəkmələrdə məqsəd inteqrasiya təlimli internat tipli gimnaziyalarda təhsil alan uşaqların hüquqlarının təmini vəziyyəti, müəssisələrdə saxlanma şəraiti, rəftar məsələləri, qidalanma səviyyəsi, müvafiq sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

*Şəki şəhər İnteqrasiya təlimli internat tipli gimnaziyada* təsadüfi seçim əsasında 4 uşaqla aparılan konfidensial söhbət zamanı 3 uşaq onlara qarşı kobudluğun olduğunu bildirmişdir. Məsələnin araşdırılması məqsədilə Ombudsman tərəfindən Təhsil Nazirliyinə müraciət ünvanlanmışdır. Verilmiş cavabda müəssisəyə nəzarətdə və fəaliyyətində yol verdiyi ciddi nöqsanlara görə gimnaziyanın direktoru ilə bağlanmış əmək müqaviləsinin ləğv edildiyi,

müəssisəsinin baş müsahibinə isə əmək funksiyalarını keyfiyyətsiz yerinə yetirdiyinə və digər nöqsanlara görə töhmət verildiyi qeyd edilmişdir.

O cümlədən verilmiş cavabda De-institutlaşma və Uşaqların Müdafiəsi İdarəsinə nöqsanların qarşısının alınması məqsədilə idarənin tabeliyində olan digər təhsil müəssisələrinin rəhbərliyi ilə aidiyyəti maarifləndirmə işinin aparılması, bu sahədə nəzarətin gücləndirilməsi tapşırıldığı bildirilib.

*Sumqayıt şəhər İnteqrasiya təlimli internat tipli gimnaziyada* uşaqların loqopedik məşğələlərə dərs vaxtı cəlb olunduğu müəyyən edilib və bununla bağlı müəssisə rəhbərliyinə qanunvericiliyin tələbləri izah edilib.

*Goranboy şəhər R.Ağakişiyev adına İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziyaya* keçirilən başçəkmə zamanı müəssisənin əsaslı təmirə ehtiyacının, yataqxana, kitabxana və idman zalının qəzalı vəziyyətdə olduğu müşahidə edilmişdir. Gimnaziyada qazanxana qurğularının nasazlığı səbəbilə elektrik qızdırıcılarından istifadə olunduğu və təhlükəsizlik qaydalarına riayət edilmədiyi müəyyən olunmuşdur.

Müəssisədə psixoloji xidmətin təşkili üçün didaktik materiallarla təchiz edilməsinə ehtiyac vardır. Burada tibbi xidmətin təşkilində nöqsanların olduğu, tibb otağında zəruri dərman vasitələrinin olmadığı müşahidə edilmişdir.

*Qovlar şəhər İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziyanın* psixoloji xidmətin təşkili üçün didaktik materiallarla təchiz edilməsinə ehtiyacın olduğu, *Gəncə şəhər İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziyada* isə loqoped ştatının uzun müddətdir ki vakant olduğu müəyyən edilmişdir.

MPQ üzvləri tərəfindən *Siyəzən şəhər İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziyaya* başçəkmə həyata keçirilmişdir.

Başçəkmə çərçivəsində müəyən olunmuşdur ki, əvvələr mövcud olan bir sıra nöqsanlar aradan qaldırılmışdır. Belə ki, gimnaziyanın idman zalı, sanitar qovşaqları təmir olunmuş, ümumi ərazi səliqə-səhmana salınmışdır.

Burada bəzi dərman vasitələrinin istifadə müddətinin bitdiyi, eyni zamanda uşaqların içməli su ilə təminatında çatışmazlıqların olduğu aşkar edilmiş, yekununda müəssisə rəhbərliyi və məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbətlər aparılmış, müvafiq tövsiyələr verilmişdir.

*Zaqatala şəhər İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziyaya* başçəkmə həyata keçirilmişdir. 1960-cı ildən fəaliyyət göstərən müəssisənin 2009-cu ilin may ayında yeni binasının açılışı olmuşdur. Buna baxmayaraq Gimnaziyanın əsaslı təmirə ehtiyac olduğu müşahidə edilmişdir.

Tibb məntəqəsində ambulator qeydiyyat dəftəri, şagirdlərin gündəlik qeydiyyat müayinə dəftəri möhürlənməmiş və qaytanlanmamışdır. Dərman preparatlarının saxlanılması üçün soyuducu yoxdur. Yekunda müşahidə edilmiş çatışmazlıqlar gimnaziya rəhbərliyinin diqqətinə çatdırılmış, tibbi xidmət və sənədləşmə ilə bağlı tövsiyələr verilmişdir.

MPQ üzvləri tərəfindən *Mingəçevir şəhər İnteqrasiya təlimli internat tipli gimnaziyaya* başçəkmə həyata keçirilmişdir. Gimnaziyanın tədris korpusunda əsaslı təmir işləri aparılsa da, korpusun bir hissəsində məcburi köçkün ailəsi məskunlaşdığından həmin hissənin təmiri aparılmamışdır. Gimnaziyanın direktoru vəzifəsini icra edən şəxs məcburi köçkün ailəsinin tədris korpusunun həmin hissəsindən təklif olunan yerə köçməməsi səbəbilə təmir aparılmasının mümkün olmadığını bildirmişdir.

Gimnaziyada tibb otağı təşkil olunmamışdır. Dərman preparatları tədris korpusunda otaqlardan birində saxlanılır. Dərman preparatlarının saxlanılması üçün soyuducu olmamışdır. Baxış zamanı müəssisənin işçi heyəti və şagird kontingentinin sağlamlıq vəziyyəti ilə bağlı qeyd jurnalında heç bir qeyd aparılmadığı müşahidə olunmuşdur.

*Quba şəhər Valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün tam orta internat məktəbinə və R.Kəlbiyev adına Xınalıq kənd internat tam orta məktəbinə* ~~4~~ başçəkmə həyata keçirilmişdir.

Ümumtəhsil internat məkəblərinə həyata keçirilən başçəkmələrdə məqsəd uşaqların hüquqlarının təmini vəziyyəti, müəssisələrdə saxlanma şəraiti, rəftar məsələləri, qidalanma səviyyəsi, müvafiq sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Quba şəhər Valideyn himayəsindən məhrum olunmuş uşaqlar üçün tam orta internat məktəbində 2 kompleks sinfin olduğu müşahidə olunmuşdur. Siniflərdən birində 1-ci və 3-cü sinif, digərində isə 2-ci və 4-cü sinif şagirdləri bir yerdə təhsil alır. Müəssisə rəhbərliyi bu halın müəllim və şagirdlərə çətinlik yaratdığını və məsələ ilə bağlı dəfələrlə Təhsil Nazirliyinə müraciət edildiyini bildirmişdir.

Hər iki müəssisədə psixoloq ştatının vakant olduğu, uşaqların fərdi inkişaf planlarının tərtib olunmadığı və sosial reabilitasiyası və inteqrasiyasına yönəlmiş tədbirlərin demək olar ki həyata keçirilmədiyi müşahidə olunumuşdur**.**

*Quba Xüsusi Peşə Məktəbinə* həyata keçirilən başçəkmələrdə məqsəd müəssisədə saxlanılan uşaqların hüquqlarının təmini vəziyyəti, öncəki başçəkmələr zamanı verilmiş tövsiyələrin icrası üzrə görülmüş işlərin araşdırılması, müəssisədə saxlanma şəraiti, rəftar məsələləri, qidalanma səviyyəsi, müvafiq sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Quba Xüsusi Peşə Məktəbinə keçirilən başçəkmələr zamanı orada saxlanma şəraitinin uşaqlar üçün uyğun olmadığı, binanın qəzalı vəziyyətdə olduğu, o cümlədən müəssisənin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 13 may tarixli 65 nömrəli Qərarı ilə təsdiq edilmiş "Açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələri haqqında" nümunəvi nizamnaməsində təsbit olunan uşaqların davranışının korreksiyası və cəmiyyətə uyğunlaşması, o cümlədən onların tibbi, sosial reabilitasiyası, habelə psixoloji reabilitasiya və

psixoloji korreksiyasını təmin etmək, təhsili üçün şərait yaratmaq məqsədlərinə cavab vermədiyi müəyyən edilmişdir.

Belə ki, son iki ildə müəssisədə onlayn və ənənəvi qaydada dərslərin keçirilmədiyi, peşə və ixtisas hazırlığının olduqca zəif və qeyri-müntəzəm aparıldığı, son aylarda isə aparılmadığı, məktəbdə psixoloqun fəaliyyət göstərmədiyi, uşaqların sosial reabilitasiyası və inteqrasiyasına yönəlmiş tədbirlərin həyata keçirilmədiyi, sinif və yataq otaqlarının vəziyyətinin qənaətbəxş olmadığı, məktəbin əsaslı təmirə, avadanlığın isə yenilənməsinə ehtiyacın olduğu, tibb otağının fəaliyyət göstərmədiyi, paltar və yataq dəstlərinin yuyulması üçün şəraitin olmadığı, anbarda ərzaq qıtlığı və vaxtı keçmiş ərzaq məhsullarının olduğu, habelə sənədləşmədə nöqsan və çatışmazlıqlar müəyyən edilmişdir.

2021-ci il ərzində 10 və 8 nömrəli sanatoriya tipli internat məktəblərinə ~~2~~ planlı başçəkmələr həyata keçirilib. Başçəkmələrdə məqsəd sanator tipli internat məktəblərində təhsil alan uşaqların hüquqlarının təmini vəziyyəti, müəssisələrdə saxlanma şəraiti, rəftar məsələləri, qidalanma səviyyəsi, müvafiq sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olub.

8 nömrəli Sanatoriya tipli internat məktəbində təmirə ehtiyacın olduğu müşahidə edilmiş, eyni zamanda təhsilalanlara qarşı kobud rəftar hallarının olmasına dair əsaslı şübhələr yaranmışdır. Məsələ Təhsil Nazirliyi qarşısında qaldırılmışdır.

### 2.2.6. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müəssisələri

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müəssisələrinə MPM fəaliyyəti çərçivəsində əvvəlcədən xəbərdarlıq etmədən ümumilikdə 6 başçəkmə həyata keçirilmişdir.

MPQ-nin üzvləri tərəfindən ƏƏSMN Sosial Xidmətlər Agentliyinin *Həssas Əhali Qruplarından olan Şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsinə* planlı başçəkmə həyata keçirilmişdir. Müəssisədə saxlanılan şəxslə görüş keçirilmiş, onunla konfidensial söhbət aparılmış, saxlanma şəraiti və rəftar məsələləri araşdırılmışdır. Həmin şəxsin Ombudsmana müraciəti qəbul edilmişdir.

MPQ üzvləri tərəfindən ƏƏSMN-nin *1 saylı sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəssisəsinə* başçəkmə həyata keçirilmişdir. Başçəkmənin məqsədi müxtəlif yaş qruplarından olan və müəssisədə yaşayan uşaqların saxlanma şəraitinin və müəssisə əməkdaşlarının onlarla rəftarı məsələlərinin, habelə uşaqların hüquqlarının təmin edilməsi vəziyyətinin öyrənilməsi olmuşdur.

Müəssisədə 1 psixiatr və 3 sosial işçi ştatlarının vakant olduğu, ştat cədvəlində psixoloq və uşaq inkişafı mütəxəssisi kimi ştat vahidlərinin nəzərdə tutulmadığı müəyyən edilmişdir.

Uşaqların yataq otaqlarına baxış zamanı onların çarpayılarının olduqca sıx yerləşdiyi və otaqların rütubətli olduğu, eyni zamanda sanitar qovşaqlarda sanitar-gigiyena norma və qaydalarının pozulduğu müşahidə edilmişdir.

Sənədlərə baxış zamanı hər bir uşaq üçün sosial xidmət göstərilməsinə dair fərdi planının olduğu, lakin onların mütəmadi olaraq yenilənmədiyi müəyyən edilmişdir.

Başçəkmənin yekununda aşkar edilmiş çatışmazlıqlarla bağlı müəssisə rəhbərliyi ilə söhbət aparılmış, saxlanma şəraitinin təkmilləşdirilməsi ilə əlaqədar müvafiq tövsiyələr verilmişdir.

MPQ üzvləri tərəfindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin *Ahıl şəxslər üçün sosial xidmət müəssisəsində* əvvəlcədən xəbərdarlıq etmədən planlı başçəkmə həyata keçirilmişdir.

Başçəkmə çərçivəsində müəssisənin fərdi otaqlardan ibarət hər iki korpus, tibb məntəqəsi, yeməkxana, anbar, çamaşırxana, növbətçi hissə və digər obyektlərinə baxış keçirilmiş, saxlanma şəraiti, qidalanma, su və istilik təminatı, gəzinti, görüş, habelə tibbi yardımın təşkili ilə bağlı mövcud vəziyyət və sənədləşmə araşdırılmış, işçilərlə və ahıl sakinlərlə görüş keçirilmişdir.

Müəssisənin direktoru ilə görüş keçirilmiş, müəssisə haqqında ümumi məlumat əldə edilmişdir. Müəssisə 70-dən yuxarı yaşı olanlar üçün nəzərdə tutulduğu qeyd edilmişdir.

Başçəkmədə öncəki monitorinqlər zamanı müəyyən olunmuş problemlərin qalmaqda davam etdiyi müşahidə olunmuşdur.

Müəssisənin yataqxana və yeməkxana korpuslarının əsaslı təmirə, avadanlığın isə yenilənməsinə, otaqların işıq, müşahidə kameraları ilə təmin olunmasına ehtiyacın olduğu müəyyən edilmişdir.

Müəssisədə tibb hissəsində şəraitin qənaətbəxş olduğu, baxış zamanı sakinlərin də tibb heyətinin fəaliyyətindən razılığını bildirmişlər. Tibb anbarında dərman vasitələrinin kifayət qədər çox olduğu müəyyən olunmuşdur.

Başçəkmə zamanı yataq otaqlarının vəziyyətinin qənaətbəxş olmadığı müşahidə edilmişdir. Belə ki, baxış zamanı kondisioner sisteminin işləməməsi, siqnal düymələrinin olmaması, bəzi otaqların qapılarının nasaz olması, süni işıqlandırmanın ümumi qəbul edilmiş texniki normalara uyğun olmaması, bəzi otaqların natəmiz olması və ümumilikdə yataqxananın əsaslı təmirə ehtiyacın olması müəyyən edilmişdir.

Müəssisənin yeməkxanasında mövcud olan soyuducuda saxlama müddəti bitmiş ərzaqlar aşkar olunmuşdur.

Müəssisədə ştat cədvəlinə uyğun bir psixoloq işləyir.

Rəftar məsələlərinin araşdırılması məqsədilə MPQ üzvləri tərəfindən bir neçə ahıl şəxslə görüş keçirilmiş, onlarla müvafiq söhbətlər aparılmışdır.

Başçəkmənin sonunda müəssisənin direktoru ilə yekun söhbət aparılmış, müəyyən olunan problemlər və onların həll yolları müzakirə olunmuş, bəzi tapşırıqlar verilmişdir.

ƏƏSMN-in Sosial Xidmətlər Agentliyinin tabeleyində olan *Gəncə şəhər 4 saylı Psixonevroloji Sosial Xidmət Müəssisəsinə* planlı başçəkmə həyata keçirilmişdir.

Başçəkmə zamanı müəssisənin inzibati binasına, yataqxanasına və xüsusilə ağır vəziyyətdə olan, infeksion xəstəliklərdən əziyyət çəkən şəxslərin saxlanılması üçün nəzərədə tutulan 50 nəfərlik əlavə yataqxanaya, yeməkxanaya, mətbəxə, ərzaq anbarına, hamam və sanitar qovşaqlara baxış keçirilmiş, həmin yerlərdə yüksək səviyyəli təmir və yenidənqurma işlərinin aparıldığı, palataların yaşayış üçün bütün zəruri avadanlıqlarla, istilik sistemləri, kondisionerlərlə təchiz edilməsi, hər otaq üçün ayrıca hamam və tualetin mövcud olduğu müşahidə edilmişdir.

Müəssisədə qalan sakinlərlə söhbət zamanı saxlanma şəraiti və rəftarla bağlı şikayət daxil olmamışdır.

Bununla yanaşı müəssisədə bir sıra nöqsanlar da mövcuddur. Müəssisənin Nizamnaməsinin 3.1.3-cü bəndinə əsasən qəbul edilmiş şəxslərə sosial xidmətin göstərilməsi və onların sosial reabilitasiyasının təşkili məqsədilə hər bir şəxs üçün razılaşdırılmış fərdi plan hazırlamaq və həmin plan əsasında sosial xidmət göstərmək və şəxslərin reabilitasiyasını həyata keçirmək müəssisənin vəzifəsi olsa da, heç bir fərdi planın hazırlanmadığı müəyyən edilmişdir.

Həmçinin Müəssisənin Nizamnaməsinin 3.2.10-cu bəndinə əsasən müəssisədə daxili intizam qaydaları müəyyən edilməli olsa da həmin qaydaların tərtib olunmadığı müəyyən edilmişdir. Müəssisədə yaşayan şəxslərin və müəssisənin işçi heyətinin hüquq və vəzifələrinin, gündəlik fəaliyyətlərinin dəqiq müəyyən edilməsi baxımından daxili intizam qaydalarının dərhal qəbul olunmasına zərurət var.

Müəssisədə yaşayan şəxslərin senzurasız məktublaşmaq, bağlama, banderol və pul baratları almaq və göndərmək, telefondan və digər rabitə vasitələrindən istifadə etmək, yaxınları ilə görüşmək və digər xidmətlərdən istifadə etmək hüquqlarının həyata keçirilməsinin qeydiyyatının aparılması həmin şəxslərin hüquqlarının təminatı və onlara qarşı sui-istifadə hallarının və laqeyd münasibətlərin qarşısının alınması üçün zəruri olsa da, belə qeydiyyatın aparılmadığı müəyyən edilmişdir. Həmçinin müəssisədə yaşayan şəxslərin hüquq və vəzifələri haqqında məlumatlandırıcı lövhələrin də quraşdırılmasına ehtiyac vardır.

Müəssisəyə qəbul edilən şəxslərin üzərində şəxsi axtarış zamanı axtarış haqqında protokolun tərtib olunmadığı, bu barədə şəxsi tibbi kartda qısa qeydlərin

edildiyi müşahidə olunmuşdur. Həmçinin qəbul edilən qadınlarla yanaşı əksər hallarda kişilərin də üzərində soyundurulmaqla şəxsi axtarışın müəssisədəki qadın əməkdaşlar (tibb bacıları) tərəfindən aparıldığı bildirilmişdir ki, bu da baxış zamanı eyni cinsdən olan şəxslərin iştirakı tələbinin pozulmasıdır.

Müəssisədə yaşayan müxtəlif psixi xəstəliklərdən əziyyət çəkən şəxslərin 25 nəfərinin əlilliyinin müəyyən olunmadığı, bu istiqamətdə TSEK-ə göndərişlərin təmin olunmadığı müəyyən edilmişdir.

### 2.2.7. Yerli icra hakimiyyəti orqanlarının müəssisələri

2021-ci ildə yerli icra hakimiyyəti orqanlarının tabeliyində olan müəssisələrə 11 başçəkmə həyata keçirilmişdir.

MPQ üzvləri tərəfindən *Gəncə Uşaq Evinə* planlı başçəkmə həyata keçirilmişdir. Uşaq evində 3-18 yaş arası olan uşaqların yaşaması nəzərdə tutulub və müəssisəyə hər bir uşaq Yerli İcra Hakimiyyətinin sərəncamı əsasında qəbul edilir. Burada onların təlim-tərbiyəsi ilə 50 mütəxəssis məşğul olur. Uşaq evində xidmətlər psixoloqlar, sosial işçilər və sosial xidmətçilər tərəfindən həyata keçirilir. Müəssisədə saxlanılan bir nəfər nitq qüsurlu uşağın təlimi üçün 2 saylı şəhər poliklinikasında fəaliyyət göstərən loqopedin xidmətlərindən istifadə olunur.

Müəssisəyə baxış zamanı uşaq evinin sakinləri ilə görüş keçirilmiş, onların ümumi şəraitlərinin (geyim, otağın istiliyi, yataq ləvazimatlarının təmizliyi, əyani vəsaitlər və.s.) normal olması müşahidə edilmişdir.

Müəssisə rəhbərliyi bildirmişdir ki, uşaqların qidalanması və geyimləri ilə bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 9 mart tarixli, 130 saylı Qərarı ilə təsdiq edilmiş "Uşaq bağçalarında, Uşaq Evlərində və məktəbəqədər Uşaq sanatoriyalarında uşaqlar üçün qida normaları"nın və həmçinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 17 yanvar tarixli 15 nömrəli Qərarı ilə təsdiq edilmiş Uşaq evlərində uşaqlar üçün geyim, ayaqqabı və yumşaq inventarlarla təmin olunması normaları hazırki tələbata və uşaqların yaş xüsusiyyətlərinə cavab vermir.

Həmçinin uşaq evinin ərazisinə baxış zamanı müəssisənin saxlanma şəraitinin və istilik sisteminin təkmilləşdirilməsi üçün 2018-ci ilin dekabr ayında tikintisinə başlanılmış yeni korpusunun və istilik qazanxanasının içində əlavə tamamlama işlərinin aparılmasına ehtiyac olduğu müəyyən edilmişdir.

MPQ üzvləri tərəfindən *Şəki Qarışıq Tipli Uşaq Evinə* başçəkmə keçirilmişdir. Başçəkmədə məqsəd müxtəlif yaş qruplarından olan və müəssisədə yaşayan uşaqların saxlanma şəraitinin və müəssisə əməkdaşlarının onlarla rəftarının, uşaqların hüquqlarının təmin edilməsi vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmə zamanı müəssisənin yataq, dərs və asudə vaxtın təşkili üçün nəzərdə tutulmuş otaqlarına, tibb otağına, yeməkxanaya, mətbəxə, ərzaq anbarına baxış keçirilmişdir.

Müəssisədə rəftar məsələlərinin araşdırılması məqsədilə karantin rejimi qaydalarına əməl olunmaqla müəssisə rəhbərliyi, psixoloq və digər əməkdaşlarla, həmçinin uşaqlarla söhbət aparılmışdır.

Şəki Qarışıq Tipli Uşaq Evinin direktoru həkim pediatr ştatının uzun müddətdir vakant olduğunu, müəssisədə ştat sayının kifayət etmədiyini bildirmişdir. Direktor həmçinin dərslərin onlayn qaydada tədris edildiyini, lakin internetin sürətinin zəif olması səbəbi ilə tədris prosesində çətinliklərin olduğunu qeyd etmişdir.

Başçəkmə zamanı ərzaq anbarında havalandırma sisteminin işə salınmadığı müşahidə edilmişdir. Müəssisə rəhbərliyi bunu elektrik enerjisi üçün ayrılmış limitin az olması səbəbindən havalandırma sisteminin daimi işlədilməsinin mümkün olmadığı ilə əlaqələndirmişdir.

MPQ üzvləri tərəfindən *Lənkəran şəhər O.Mirzəyev adına Qarışıq Tipli Uşaq Evinə* əvvəlcədən xəbərdarlıq etmədən planlı başçəkmə həyata keçirilmişdir. Başçəkmə çərçivəsində oğlanlar və qızlar üçün olan yataqxanalara, dərs və asudə vaxtın təşkili üçün nəzərdə tutulmuş otaqlara, mətbəx, ərzaq anbarı, hamam və digər yardımçı otaqlara baxış keçirilmiş, tibbi yardımın təşkili, qidalanma və təminatla bağlı mövcud vəziyyət və sənədləşmə araşdırılmışdır.

Müəssisədə həkim-pediatrın öz ərizəsi ilə işdən çıxdığı və başqa bir həkimin ştata götürüləcəyi barədə məlumat verilmişdir.

Başçəkmə zamanı müəssisədə rəftar, uşaqların hərtərəfli fiziki və mənəvi inkişafı məsələlərinin araşdırılması məqsədilə karantin rejimi qaydalarına əməl olunmaqla müəssisə rəhbəri və digər əməkdaşlarla, həmçinin uşaqlarla söhbət aparılmışdır.

Pandemiya ilə əlaqədar uşaqların onlayn dərslərdə iştirakının təmin edildiyi müəyyən olunmuşdur.

Başçəkmənin sonunda müəssisə rəhbərliyinə uşaq hüquqlarının effektiv təmini məqsədilə müəssisə əməkdaşlarının fəaliyyətinin daha da təkmilləşdirilməsi istiqamətində tövsiyələr verilmişdir.

MPQ üzvləri tərəfindən əvvəlcədən xəbərdarlıq etmədən *Bakı şəhər 2 saylı Uşaq Evinə* planlı başçəkmələr həyata keçirilib. Ümumi olaraq qeyd etmək lazımdır ki, müəssisəyə ilk başçəkmə zamanı verilmiş tövsiyələrin ikinci başçəkmə zamanı nəzərə alındığı müşahidə edilmişdir.

Ombudsmanın müraciəti nəticəsində uşaq evinin məktəbəqədər qrupunun avadanlıqları dəyişdirilərək yaş və inkişaflarına uyğun yeniləri ilə əvəz edilib.

Uşaq evində sanitar-gigiyenik şəraitin tələblərə uyğun olduğu müəyyən edilib. Həyətdə yerləşən hamam otağının nasaz vəziyyətdə olan duş kranları təmir olunub və yeniləri ilə təmin edilmişdir.

Əvvəlki başçəkmə zamanı "Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq son 36 ayda uşaqlara profilaktik peyvəndlərin edilmədiyi, eyni zamanda "Uşaqların icbari dispanserizasiyası haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq uşaqların müşahidə ili ərzində tibbi baxışdan keçirilmədiyi müəyyən olunub. Təkrar başçəkmə zamanı uşaqların peyvənd edildiyi və tibbi baxışdan keçirildiyi müəyyən edilib.

Başçəkmə zamanı təqdim olunan Ombudsmanın 916 Çağrı Mərkəzinin plakatı telefon aparatının yanında yerləşdirilib.

Uşaqların yataq otaqlarına baxış zamanı uşaqların standartlara uyğun yaş kateqoriyalarına görə qruplaşdırılmadığı, çarpayıların olduqca sıx yerləşdiyi, bununla yanaşı müəssisənin bəzi hissələrinin təmirə ehtiyacı olduğu müşahidə edilmişdir.

Uşaqlarla psixoloji işin aparılması məqsədilə müəssisədə 1 psixoloqun, 2 loqopedin fəaliyyət göstərdiyi müşahidə edilmişdir. Əməkdaşlarla söhbət zamanı onlar ixtisasartırma və təlim proqramlarında iştirak etmək istəklərini bildirmiş və bu istiqamətdə olan tədbirlərin həyata keçirilməsi məqsədilə köməklik göstərilməsini xahiş etmişlər. Müəssisə rəhbəri tərəfindən də əməkdaşların son illərdə heç bir ixtisasartırma proqramlarında və təlimlərdə iştirak etmədikləri bildirilib. Qeyd edilən məsələlər Ombudsman tərəfindən Bakı Şəhər İcra Hakimiyyəti qarşısında qaldırılmış və həlli tələb olunmuşdur.

Müəssisədə 1-i stomatoloq olmaqla 2 həkim və 4 tibb bacısı fəaliyyət göstərir. Başçəkmə zamanı tövsiyələr nəzərə alınmaqla stomatoloji kabinetin fəaliyyət göstərdiyi, qeydiyyat dəftərinin doldurulduğu müşahidə olunmuşdur. Lakin uşaqların ortodontik müayinə və müalicəsinin aparılmadığı aşkar edilib, bununla bağlı müvafiq tövsiyələr verilib. Bununla yanaşı, uşaqların peyvənd olunduğu və tibbi baxışdan keçirildiyi də müşahidə edilmişdir.

Ərzaq anbarına baxış zamanı ət məhsullarının möhürsüz, menyu ilə yeməkxanada təqdim olunan yeməklərin isə uyğun olmadığı müəyyən olunmuşdur.

İlk başçəkmə zamanı müşahidə olunan kimyəvi məhsulların saxlanıldığı anbarda məktəbəhazırlıq kitablarının saxlanılması və həmin kitablardan uşaqlarla pedaqoji iş zamanı istifadə olunmaması halının aradan qaldırıldığı müəyyən olunub. Belə ki, məktəbəqədər yaşlı uşaqların otağına baxış zamanı orada müvafiq təlim-tədris materialların olduğu müşahidə edilmişdir.

Öncəki başçəkmə zamanı verilmiş tövsiyələr nəzərə alınaraq, uşaqların asudə vaxtının səmərəli təşkili məqsədilə musiqi məktəbinə əlavə olaraq 2 (ümumilikdə 4), idman dərnəyinə isə 25 uşaq qeydiyyata alınıb.

Uşaqlara Ombudsmanın uşaq hüquqları sahəsində fəaliyyəti və 916 "Çağrı mərkəzi" haqqında ~~ümumi~~ məlumat verilib.

*Bakı şəhər 3 saylı Uşaq Evinə* başçəkmələr həyata keçirilib. İlk başçəkmə ilin əvvəllərində keçirilmiş, ilin sonlarında isə əvvəlki başçəkmədə verilmiş tövsiyələrin icrasının monitorinqi məqsədilə təkrar başçəkmə keçirilmişdir.

Qeyd etmək lazımdır ki, təkrar başçəkmə zamanı bir sıra nöqsan və çatışmazlıqların aradan qaldırıldığı müşahidə edilmişdir.

Ombudsmanın təklifi nəzərə alınaraq uşaqların təhsil hüquqlarının səmərəli təmini və onlayn təhsildən yayınma hallarının aradan qaldırılması məqsədilə müəssisədəki kompüterlərin kamera ilə təchiz edildiyi, maddi şəraitin yaxşılaşdırılması məqsədilə sanitar qovşaqlarda təmir işlərinin aparıldığı, kran və digər avadanlıqların təmir olunduğu və ya yeniləri ilə əvəz edildiyi, uşaqların şəxsi gigiyenik əşyalarının təmiz saxlanılması üçün müvafiq tədbirlər görüldüyü müşahidə olunmuşdur.

Çarpayıların sayı ilə şəxsi dolabçaların sayının eyni olmaması müəssisə rəhbərinə bildirilmiş, o isə öz növbəsində məsələnin qısa zamanda həll ediləcəyini vurğulamışdır.

Müəssisənin həkimi stomatoloji müayinə və müalicənin aparılmasında çətinliklərlə qarşılaşdıqlarını və bu istiqamətdə köməklik göstərilməsini xahiş etmişdir.

Uşaqlarla psixoloq tərəfindən psixoloji işin aparıldığı, psixoloqdan başqa digər uşaqlarla birbaşa ünsiyyətdə olan əməkdaşların uşaq inkişafına dair bilik və bacarıq səviyyəsinin aşağı olduğu müşahidə edilmişdir. Müəssisə rəhbəri tərəfindən əməkdaşların son illərdə heç bir ixtisasartırma proqramlarında, təlimlərdə, treninqlərdə iştirak etmədiyi bildirilmişdir.

Başçəkmələrin yekununda müəssisə rəhbərliyi ilə söhbət aparılmış, müəyyən olunan nöqsanların aradan qaldırılması ilə bağlı qanunvericiliyin tələbləri izah olunmuş, habelə yerində aradan qaldırılması mümkün olan məsələlərlə bağlı tövsiyələr verilmişdir.

### 2.2.8. Dövlət Miqrasiya Xidmətinin tabeliyindəki müəssisələr

Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən Dövlət Miqrasiya Xidmətinin (DMX) *Yevlax rayonundakı Qanunsuz Miqrantların Saxlanılma Mərkəzinə* planlı başçəkmə həyata keçirilmişdir.

BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyası"nın Fakültativ Protokolu, "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanunu əsasında təşkil olunmuş başçəkmədə məqsəd saxlanma şəraitinin və rəftarın araşdırılması, saxlanılan şəxslərin hüquqlarının təmin edilməsi, müvafiq şəkildə sənədləşmənin aparılması, eyni zamanda müəssisə ilə bağlı əvvəlki dövrlərdə verilmiş təklif və tövsiyələrin icrası vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmə zamanı Yevlax rayonundakı Qanunsuz Miqrantların Saxlanılma Mərkəzinin inzibati binasına, könüllü və məcburi saxlanılanlar üçün nəzərdə tutulan binalara, mətbəxə, yeməkxanaya, camaşırxanaya, hamama, ərzaq anbarına, görüş, tibb və digər xidməti otaqlara, idman meydançasına, etap məqsədilə istifadədə olan xidməti avtomobilə baxış keçirilmişdir.

Mərkəzdə ümumi şərait qənaətbəxş olsa da, bir sıra nöqsanların olduğu müşahidə edilmişdir.

Görüş otağında "Qanunsuz miqrantların saxlanılması mərkəzlərinin daxili intizam Qaydaları"nın 14.28-ci bəndinin tələbinə əməl olunmayaraq ərizə və şikayətlər üçün qutunun, otağın görünən yerlərində sovqatların qəbulu, sovqatların təqdimetmə qaydaları, Mərkəzdə saxlanılan əcnəbilərə verilməsi və ya ötürülməsi, sovqatlarda gətirilməsi, bağlama və banderollarda göndərilməsi qadağan olunmuş əşyaların siyahısı barədə məlumat, habelə bu siyahıda göstərilən əşyaların yoxlamadan gizlətməklə və ya hər hansı digər üsulla verilməsi (göndərilməsi və ya ötürülməsi) ilə bağlı məsuliyyəti müəyyən edən normativ aktların mətninə dair məlumat lövhələrinin mövcud olmaması müəyyən edilmişdir. Bundan başqa görüş otağında istilik sisteminin mövcud olmadığı müşahidə edilmişdir.

Mərkəzdə yerləşdirilən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin "Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin" 87.1.20-ci maddəsi ilə nəzərdə tutulmuş telefon əlaqəsindən istifadə etmək hüququnun həyata keçirilməsi üçün müvafiq telefon danışığı məntəqəsinin olmadığı, telefon danışığına ehtiyac yarandığı təqdirdə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin nəzarət altında şəxsi mobil telefonlarından, şəxsi mobil telefon olmadıqda isə mərkəz əməkdaşlarının şəxsi mobil telefonlarından istifadə etdikləri müəyyən edilmişdir.

"Qanunsuz miqrantların saxlanılması mərkəzlərinin daxili intizam Qaydaları"nın 19.2-ci bəndinin tələbinə baxmayaraq, mərkəzdə ixtisasca həkim olan tibb işçisinin olmadığı müəyyən edilmişdir. Müəssisədə miqrasiya xidmətinin cəmi bir nəfər ixtisasca feldşer qadın əməkdaşının olması, həmin əməkdaşın həm tibbi müayinələrə, həm də qadın miqrantların şəxsi axtarış tədbirlərinə cəlb edilməsi müəyyən olunmuşdur.

Mərkəzin tibb otağında saxlanılan dərman preparatlarının saxlanılması qaydalarına riayət edilmədiyi, dərmanların paltar saxlancı üçün nəzərdə tutulmuş yerdə saxlanıldığı, habelə Mərkəzə gətirilən miqrantların yeni növ Koronavirus pandemiyası dövründə COVID-19 testlərindən keçirilmədiyi müəyyən edilmişdir.

Mərkəzə gətirilən miqrantların İİV/QİÇS-lə bağlı yoxlamalardan keçirilməsi üçün müvafiq testlərin 2 aydan çox müddətdə bitməsinə və DMX-yə müraciət edilməsinə baxmayaraq təmin edilmədiyi bildirilmişdir.

Mərkəzin məcburi saxlanılan miqrantlar üçün nəzərdə tutulmuş binasındakı bütün otaqlarda, o cümlədən miqrantların gün ərzində qaldığı və gecələdiyi otaqlarda gizli müşahidə kameralarının olduğu və bu kameralar vasitəsilə onların sutka ərzində müəssisə əməkdaşları tərəfindən xəbərsiz müşahidə edildiyi, kameraların çəkiliş sahələrinin çarpayıları tam, tualet otağını isə qismən əhatə etdiyi aşkar edilmişdir.

Bundan başqa, müəssisədə saxlanılan miqrantların şəxsi işlərinin tam və qaydasında doldurulması və sənədləşmənin təkmilləşdirilməsi, şəxslərin özünə xəsarət hallarının qarşısının alınması məqsədilə kameraların qapılarındakı müşahidə pəncərələrinin və qapalı rejimdə saxlanılan miqrantlara qida çatdırılması üçün istifadə edilən qab-qacağın sınmayan materiallarla əvəz edilməsi tövsiyə edilmişdir.

DMX-nin *Bakı şəhəri Qanunsuz Miqrantların Saxlanılması Mərkəzinə* başçəkmə həyata keçirilmişdir. MPQ üzvləri Mərkəzin yataqxana korpuslarına, yaşayış və tibb otaqlarına, müsahibə yerlərinə, yeməkxana, ərzaq anbarı və digər obyektlərə baxışlar keçirib, sovqat qəbulu, gəzinti, telefon danışıqları ilə bağlı mövcud vəziyyət və sənədləşdirməni araşdırmışlar.

Ümumi olaraq, mərkəzə yerləşdirilən şəxslərin hüquqlarının və azadlıqlarının qorunmasında zəruri tədbirlərin həyata keçirildiyi və orada yaradılan şəraitin beynəlxalq standartlara uyğun olduğu müəyyən edilmişdir.

Eyni zamada məcburi qaydada saxlanılan şəxslər üçün nəzərdə tutulan binanın əsaslı təmir olunması ilə bağlı fəaliyyətinin müvəqqəti dayandırıldığı müşahidə olunmuşdur.

Başçəkmə zamanı rəftar məsələlərinin araşdırılması ilə bağlı burada saxlanılan Böyük Britaniya vətəndaşı A.E. və Tacikistan vətəndaşı A.G. qəbul edilərək konfidensial qaydada dinlənilib, onlar saxlanma şəraiti və rəftardan razı olduqlarını qeyd etmişlər. Böyük Britaniya vətəndaşının müraciəti yerindəcə təmin edilmiş və əcnəbi şəxs Ombudsmana təşəkkürünü bildirmişdir.

Yekunda müəssisə rəhbərliyi və əməkdaşlarla milli və beynəlxalq qanunvericilik əsasında hüquqi maarifləndirici söhbət aparılmış, müəssisədə COVID-19-la bağlı testlərin aparılması üçün şəraitin yaradılması və digər müvafiq tövsiyələr verilmiş, o cümlədən Ombudsmanın Çağrı Mərkəzi ilə əlaqədar məlumatların əks olunduğu plakatlar təqdim edilmişdir.

Başçəkmələrin yekunlarının nəticəsi Ombudsman tərəfindən Dövlət Miqrasiya Xidməti qarşısında qaldırılmış, aşkar edilmiş çatışmazlıqlar, eləcə də təklif və tövsiyələr müraciətdə qeyd edilmişdir. DMX-dən gələn cavab məktubunda qeyd edilən çatışmazlıqların aradan qaldırılması və irəli sürülən təklif və tövsiyələrin icrası istiqamətində müvafiq işlərin davam etdirildiyi bildirilmişdir.

## BÖLMƏ 3.

## HÜQUQİ TƏHLİL

Müvəkkilin Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində həyata keçirilən fəaliyyət istiqamətlərindən biri də preventiv başçəkmələr və hüquqi maarifləndirmə tədbirləri zamanı əldə olunmuş məlumatların hüquqi təhlilidir.

Hüquqi təhlil işinin səmərəli təşkil olunması Müvəkkilin MPM fəaliyyəti çərçivəsində qarşısında duran əsas məsələlərdən biri olmuşdur. İşgəncə və pis rəftar hallarının qarşısının alınmasının təmin olunması məqsədi ilə həyata keçirilmiş fəaliyyətin nəticələri və mövcud normativ-hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində təklif və tövsiyələr işlənib hazırlanmışdır.

MPM-in hüquqi təhlil istiqamətində fəaliyyəti, qüvvədə olan qanunvericilik və qanun layihələrinə dair təklif və qeydlərin təqdim edilməsi hüququ FP-nin 19-cu maddəsində birbaşa təsbit olunmuşdur.

Hüquqi təhlil prosesi çərçivəsində həyata keçirilən fəaliyyət, eləcə də bu fəaliyyətlə əlaqədar toplanmış məlumatların, alınmış tövsiyələrin, mövcud qanunvericilik aktlarının nəzəri-təcrübi təhlili, əldə olunmuş nəticələrin ümumiləşdirilməsi aparılır.

MPQ üzvləri tərəfindən başçəkmələr zamanı şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrdə saxlanılan şəxslərin qəbul olunması və Müvəkkilə ünvanlanmış şikayətlərlə yanaşı, Ombudsmanın 24 saat fəaliyyət göstərən Çağrı Mərkəzinə edilmiş müraciətlər (zənglər) də təhlillər üçün mənbələrdən olmuşdur.

***Qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı.*** Penitensiar Xidmətin Müalicə Müəssisəsində ixtisaslaşmış tibbi müayinənin həyata keçirilməsində zəruri olan bəzi tibbi avadanlıqların, həmçinin mütəxəssis həkimlərin olmaması səbəbindən bəzi hallarda həbs yerlərində saxlanılan şəxslərin, habelə məhkumların sağlamlıq vəziyyətinin, o cümlədən ağırlaşmaların dəqiq müəyyən edilməsi, əhatəli müayinə və müalicənin effektiv təşkili mümkün olmamışdır. Penitensiar Xidmətin müəssisələrində saxlanılan şəxslərin icbari tibbi sığortası qanunvericilikdə nəzərdə tutulmadığı üçün bəzi zəruri müayinə və müalicələrin TƏBİB-in tabeliyində olan tibb müəssisələrində həyata keçirilməsi mümkün olmamışdır.

Belə ki, həbs edilmiş şəxslər, habelə müəyyən müddətə azadlıqdan məhrumetmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslər (məntəqə tipli cəzaçəkmə müəssisələri istisna olmaqla) “Tibbi sığorta haqqında” Azərbaycan Respublikası Qanununun 15-2-ci maddəsi ilə müəyyən edilmiş sığortaolunanların kateqoriyasına aid edilməmişdir.

Göründüyü kimi, qanunun müvafiq müddəası həbs edilmiş, habelə müəyyən müddətə azadlıqdan məhrumetmə və ömürlük azadlıqdan məhrum etmə növündə

cəza çəkən şəxslərin sağlamlıq vəziyyətinin dövlət hesabına əhatəli müayinə və müalicəsinə imkan vermir.

*Şəki Penitensiar Müəssisəsində saxlanılan M. (FŞ-22336-21) tibbi rəyə əsasən, tibbi müayinə nəticəsində ona təyin edilən cərrahi əməliyyatın Penitensiar Xidmətin Müalicə Müəssisəsində aparılmadığını, maddi vəziyyətinin isə ağır olduğunu bildirmiş, müvafiq köməklik göstərilməsini xahiş etmişdir.*

*Ombudsmanın TƏBİB-ə müraciətinə verilmiş cavabdan məlum olmuşdur ki, "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, cərrahi əməliyyatın aparılması mümkün olmamışdır.*

Qeyd edilənlər nəzərə alınaraq, həbs edilmiş, habelə müəyyən müddətə azadlıqdan məhrumetmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslərin sağlamlığının qorunması hüququnun effektiv müdafiəsi məqsədilə belə şəxslərin müayinə və müalicəsinin Penitensiar Xidmətin Müalicə Müəssisəndə aparılması mümkün olmadıqda, zəruri tibbi xidmətlərin digər tibb müəssisələrində dövlət hesabına həyata keçirilməsi ilə bağlı müvafiq qanunvericiliyə zəruri əlavə və dəyişikliklərin edilməsi vacibdir.

Ombudsman 2020-ci il üzrə məruzəsində məhkumlara ailə üzvləri və yaxınları ilə videogörüntü vasitəsi ilə əlaqə saxlamaq imkanının yaradılmasını və bu məqsədlə Cəzaların İcrası Məcəlləsinə əlavə və dəyişikliklərin olunmasını təklif etmişdir.

Təqdirəlayiq haldır ki, Ombudsmanın həmin təklifi Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən nəzərə alınmış və Cəzaların İcrası Məcəlləsinə dəyişikliklərlə bağlı hazırlanmış qanun layihəsində öz əksini tapmışdır. Həmin layihə mülahizələrinin öyrənilməsi və müvafiq rəy və təkliflərinin verilməsi məqsədilə Müvəkkilə də göndərilmişdir. Ombudsman bu layihəni müsbət qiymətləndirməklə yanaşı əlavə təkliflərini də Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinə ünvanlamışdır.

Ombudsman dəfələrlə qadın məhkumlara gigiyenik vasitələrin, habelə cəzaçəkmə müəssisəsində təşkil edilən uşaq evlərində məhkum qadınların üç yaşına çatmayan uşaqlarına uşaq bezlərinin verilməsini təklif etmişdir. Təhlillərimiz nəticəsində müəyyən edilmişdir ki, Penitensiar Xidmətin saxlanılması üçün ayrılmış dövlət vəsaiti hesabına qadın məhkumlara gigiyenik vasitələrin və uşaq bezlərinin verilməsi təmin edilir, lakin qanunvericilikdə bu məsələ öz əksini tapmamışdır.

Gigiyenik vasitələrlə təminat beynəlxalq standartlarda da nəzərdə tutulan məsələlərdəndir. Milli qanunvericilikdə bu məsələnin öz həllini tapmasına ehtiyac vardır.

Qeyd etmək lazımdır ki, Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən "Məhkumların yemək və maddi-məişət normalarının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 25 sentyabr tarixli 154

nömrəli qərarında dəyişiklik edilməsi haqqında Nazirlər Kabinetinin Qərar layihəsi hazırlanmışdır. Gigiyenik vasitələrlə və uşaq bezləri ilə təminatı nəzərdə tutan bu layihəyə dair rəy və təkliflərinin öyrənilməsi məqsədilə Ombudsmanın ünvanına məktub daxil olmuşdur. Müvəkkil öz növbəsində sayla bağlı bir qədər artım təklif etməklə layihəni müsbət qiymətləndirmişdir və Penitensiar Xidmətə cavab məktubu ünvanlanmışdır. Ombudsman qısa zamanda bu məsələlərin qanunvericilikdə əks etdirilməsini zəruri hesab edir.

***Saxlanma şəraiti ilə bağlı.*** Penitensiar Xidmətin bəzi müəssisələrində saxlanma şəraiti ilə bağlı çatışmazlıqlar hələ də qalmaqdadır. Belə ki, hesabat dövründə müşahidə edilmişdir ki, bəzi müəssisələrdə cari təmir işlərinə ehtiyac olduğu halda, 2 və 3 saylı istintaq təcridxanalarında, 4 saylı Cəzaçəkmə Müəssisəsində, Tərbiyə müəssisəsində, Penitensiar Xidmətin Həbsxanasında kompleks təmir-tikinti işlərinin görülməsi zəruridir. Eləcə də, müəssisələrin tikilməkdə olan yeni binalara köçürülməsi prosesi sürətləndirilməlidir.

Saxlanma şəraiti ilə bağlı əsas narahatlıq yaradan məqamlardan biri sıxlıq problemidir. Belə ki, müəssisədə saxlanılan şəxslərin sayı nəzərdə tutulandan artıq olarsa, bu, həmin müəssisənin daxilindəki bütün xidmətlərə və fəaliyyətlərə mənfi təsir göstərir, nəticədə ümumi həyat səviyyəsi aşağı düşür. CPT-nin tövsiyələrinə görə, bir müəssisədə və ya onun hər hansı bir hissəsində həddən artıq saxlanılan şəxsin olması insanın fiziki mövcudluğu nöqteyi-nəzərindən qeyri-insani və ya ləyaqəti alçaldan rəftar təşkil edə bilər.[1]

Penitensiar Xidmətin tabeliyindəki müəssisələr içərisində istintaq təcridxanalarında sıxlıq problemi hələ də aktualdır və demək olar ki, pandemiya şəraitində bu xüsusilə narahatedici məqam kimi diqqət göstərilməsini əhəmiyyətli etmişdir. *Ombudsman istintaq təcridxanalarında sıxlıq probleminin aradan qaldırılması baxımından da həbsə alternativ qətimkan tədbirlərinin seçilməsinin əhəmiyyətini bir daha vurğulayır.*

Sıxlıq problemi sadəcə istintaq təcridxanaları ilə bağlı deyil. Monitorinqlər həyata keçirilmiş cəzaçəkmə müəssisələrində də sıxlıqla rastlaşmaq mümkündür. Məsələn, hesabat dövründə 350 nəfər üçün nəzərdə tutulan 4 saylı CÇM-də başçəkmə anında 379 nəfərin olduğu müəyyən edilmişdir. Bəzi müəssisələrdə ümumi məhkum sayı saxlama limitindən az olmasına baxmayaraq, bəzi kameraların boş, bəzilərinin isə 3 nəfər üçün nəzərdə tutulsa da, orada 4 nəfərin saxlanıldığı müşahidə edilir (6 saylı CÇM).

Saxlanma şəraiti ilə bağlı diqqət yetirilən məsələlərdən biri də müxtəlif kateqoriyalı şəxslərin, təqsirləndirilən şəxslərlə məhkum olunmuş şəxslərin, kişilərlə qadınların, yetkinlik yaşına çatmayan şəxslərlə digərlərinin ayrı saxlanılmasıdır. Qeyd etmək lazımdır ki, il ərzində həyata keçirilmiş başçəkmələr zamanı Penitensiar Xidmətin tabeliyindəki istintaq təcridxanalarında yetkinlik yaşına çatmayan şəxslərin yetkinlik yaşına çatan şəxslərlə birlikdə saxlanıldığı

[1] CPT, GR2, §46

müşahidə edilmişdir. Bu isə "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 30-cu maddəsinin tələblərinin pozulmasıdır. *Ombudsman yetkinlik yaşına çatmayan şəxslərin onları zərərli təsirlərdən mümkün qədər qoruyan şəraitdə saxlanılmasının əhəmiyyətini vurğulayır.*

Bundan başqa, təhlükəsizlik məqsədi ilə təcrid olunmuş məhkumlarla barəsində cərimə təcridxanasına keçirilməsi növündə tənbeh tədbiri seçilmiş şəxslərin bir yerdə saxlanıldığı da müşahidə edilir (6 saylı CÇM).

Saxlanma şəraiti ilə bağlı diqqət yetirilməli məsələlərdən biri də qida təminatı ilə bağlıdır. Həyata keçirilən monitorinqlər zamanı Penitensiar Xidmətin müəssisələrində qida təminatı ilə bağlı məsələlərin təkmilləşdirilməsinə ehtiyac olduğu müəyyən edilmişdir. Belə ki, verilən qidaların az və keyfiyyətsiz olduğu, verilən yeməklərin menyuya uyğun olmadığı, beləliklə tərtib edilən menyunun formal xarakter daşıdığı, ticarət köşklərindəki gündəlik tələbat mallarının qiymətlərinin mövcud bazar qiymətlərindən çox fəqrləndiyini söyləmək mümkündür.

*Ombudsman Penitensiar Xidmət tərəfindən tabeliyində olan müəssisələrdə qida təminatı, qida rasionunun Nazirlər Kabinetinin müəyyən etdiyi normalara uyğunlaşdırılması məsələlərinə diqqətin artırılmasına çağırır.*

***Rəftar məsələləri ilə bağlı.*** Məhkumlar, habelə onların ailə üzvləri tərəfindən Ombudsmana ünvanlanan bir sıra müraciətlərdə onların əsassız yerə cərimə təcridxanasına keçirilməsi məsələsi öz əksini tapmışdır. Həmin müraciətlərin, habelə başçəkmələrin nəticələrinin təhlili onu deməyə əsas verir ki, penitensiar müəssisələrdə bu tənbeh növünün tətbiqi və eyni şəxs barəsində təkrar tətbiqi çoxluq təşkil edir. Bu halların mövcudluğu müəssisələrdə rejim pozuntularının sayının çox olduğunu və məhkumların islah edilməsi üzrə vəzifələrin lazımınca yerinə yetirilmədiyini göstərir.

Sadəcə bir müəssisədə (6 saylı cəzaçəkmə müəssisəsi) eyni anda 40 nəfər məhkumun cərimə təcridxanasında saxlanılması bu növdə tənbeh tədbirinin tətbiqinin çox olduğunu sübut edir.

Bəzi müraciətlərdə məhkumlar qanunsuz olaraq xüsusi vasitələrin tətbiq edildiyindən şikayət etmişlər (6 və 10 saylı CÇM-lər). Başçəkmələr zamanı da müxtəlif müəssisələrdə əl qandalı, rezin dəyənək kimi xüsusi vasitələrin onların saxlanılması üçün nəzərdə tutulmamış yerlərdə aşkarlanması pis rəftar halları ilə bağlı iddiaların həqiqəti əks etdirdiyini göstərir.

Cəzaçəkmə müəssisəsində xüsusi vasitələrin tətbiqi ilə bağlı qeydiyyatın formal aparıldığı, buna görə də xüsusi vasitələrdən istifadə hallarının sayı və mütəmadiliyi ilə bağlı hansısa qənaətə gəlmənin çətin olduğu qeyd edilməlidir.

"Azərbaycan Respublikasının penitensiar sistemində təhlükəsizlik tədbirləri və onların tətbiq edilmə qaydaları haqqında" Təlimatda xüsusi vasitənin tətbiqi müddətinin, həddinin və əsaslarının *BMT-nin Məhbuslarla minimal standart*

*davranış qaydalarına, Avropa Penitensiar Qaydalarına, eyni zamanda CPT və SPT tövsiyələrinə uyğun son zərurət tədbiri qismində təkmilləşdirilməlidir.*

Ombudsman islah işlərinin gücləndirilməsi istiqamətində müasir yanaşmaların tətbiqini, habelə xarici ölkələrin müsbət təcrübəsindən istifadə edilməsini məqsədəmüvafiq hesab edir.

Başçəkmələr zamanı müəssisəyə yeni daxil olan şəxslər üçün nəzərdə tutulmuş "karantin yer"ləri ilə bağlı da nöqsanlar da aşkar edilir ki, bu da müəssisələrdə rəftarın düzgün təşkil edilmədiyini, deməyə əsas verir. Başçəkmələr zamanı konfidensial söhbət aparılan şəxslər cəzaçəkmə müəssisəsinə yeni daxil olmuş məhkumların karantindən vaxtında çıxması ilə bağlı problemlərin olduğunu, bəzi məhkumların müddətdən artıq karantində saxlanıldığını bildirmişlər. Ombudsman pis rəftar hesab edilə biləcək və məhkumların hüquqlarını məhdudlaşdıran bu kimi halların qarşısının alınması prosessual qanunvericiliyin tələblərinin və məhkumlarla insan ləyaqətinə uyğun rəftarın təşkil edilməsi üçün Penitensiar Xidmətin müəssisələrinin rəhbərliyinə və əməkdaşlarına maarifləndirici tədbirlərin təşkil edilməsini təklif etmiş və sislsilə tədbirlər keçirilmişdir.

***Qeydiyyat məsələləri ilə bağlı.*** Aidiyyəti qurumların tutulmuş, həbs və ya məhkum edilmiş şəxslər barədə mövcud qeydiyyat sistemlərinin əlaqələndirilməsi vasitəsilə (onlara aid məlumatlara çıxış imkanlarını təmin etməklə) vahid və sistemli elektron qeydiyyat işinin tətbiqi zəruridir.

Qeydiyyatla bağlı monitorinqlər zamanı məhkumun (həbs olunmuş şəxsin) kimliyi, azadlıqdan məhrumetmənin səbəbləri, həbsin müddəti, məhkumun müəssisəyə gətirildiyi, müəssisəni tərk etdiyi (istintaq və məhkəmə iclası üçün) və oraya qayıtdığı vaxt, onun səhhəti və fiziki vəziyyəti, məhkəmə qarşısına çıxarılması, barəsində tətbiq edilən tənbeh tədbirləri kimi məsələlər araşdırma predmeti qismində çıxış edir.

Cərimə təcridxanaları və karantin yerlərinin qeydiyyat kitabları araşdırılarkən, habelə bu yerlərə keçirilmə ilə bağlı qərarlar öyrənilərkən müddət və saatlara, habelə şəxslərin buraxılması ilə bağlı müddətlərə riayət edilməməsinə dair nöqsanlar müşahidə edilir. Bəzən şəxslərin cərimə təcridxanasına keçirilməsi ilə bağlı qeydlər olsa da, azadolma ilə bağlı hansısa qeydə rast gəlinmir.

*Ombudsman şəxslərin hüquqlarının təmini və pis rəftar hallarından müdafiəsi üçün vacib təminatlardan olan hərtərəfli qeydiyyat sisteminin təkmilləşdirilməsini tövsiyə edir.*

***Tibbi yardımla bağlı.*** Ombudsmanın Çağrı Mərkəzi preventiv tədbirlərin görülməsi baxımından uğurlu vasitə olmuşdur. Daxil olan müraciətlər üzrə aparılmış araşdırmalar nəticəsində saxlanılan şəxslərin sağlamlıq vəziyyəti və müalicəsi, Penitensiar Xidmətin Müalicə Müəssisəsinə köçürülmə kimi məsələlər müsbət həll edilmişdir.

*Başçəkmə zamanı məhkum A. (D/O № 4915-21) Ombudsmana müraciət edərək, depressiyadan əziyyət çəkdiyini, ciddi psixi sağlamlıq problemlərinin və bununla bağlı tibbi rəyin olduğunu bildirmiş, zəruri tibbi yardımın göstərilməsini xahiş etmişdir.*

*Ombudsmanın Azərbaycan Respublikası Ədliyyə Nazirliyinə müraciətindən sonra 10 saylı cəzaçəkmə müəssisəsində cəza çəkən həmin şəxs Müalicə Müəssisəsinə keçirilmiş və lazımi müalicə tədbirləri ilə təmin olunmuşdur.*

*Ərizəçi M. (X/O № 2/4333-21) Ombudsmana müraciət edərək, məhkum həyat yoldaşı Ə.-nin səhhətinin getdikcə ağırlaşdığını bildirmiş, onun müayinə və müalicəsinin təşkilində köməklik göstərilməsini xahiş etmişdir.*

*Ombudsmanın Ədliyyə Nazirliyinin Tibb Baş İdarəsinə müraciətindən sonra həmin şəxs Müalicə Müəssisəsinə köçürülmüş, burada müayinələrə cəlb olunaraq müxtəlif ixtisaslı həkimlər, o cümlədən Səhiyyə Nazirliyinin Respublika Neyrocərrahiyyə Xəstəxanasının mütəxəssisləri tərəfindən konsultasiya olunmuş, MRT müayinəsi təşkil edilmişdir.*

Tibbi yardımla bağlı müəssisələrdə qarşıya çıxan nöqsanlardan biri də dolablarda istifadəyə yararlılıq müddətinin bitmiş dərman vasitələrinə rast gəlinməsidir. Bu isə öz növbəsində saxlanılan şəxslərin ya köhnə dərmanlarla müalicə edildiyi ya da lazımi dərmanlar olmadığından müalicənin aparılmadığına ehtimal verir.

*Ombudsman saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrdə olan dərman preparatlarının üzərində satışının qadağan edildiyini bildirən möhürün olmasını və dərman preparatlarının istifadəyə yararlılığına nəzarətin gücləndirilməsini zəruri hesab edir.*

Eyni zamanda müəssisələrdə zəruri avadanlıqların, rentgen, USM və digərlərinin işlək vəziyyətdə olmadığı müşahidə edilmişdir. İlkin tibbi müayinə və müalicə üçün zəruri tibbi avadanlıqların işlək vəziyyətdə olması və onları işlədə bilən ixtisaslı mütəxəssislərin mövcud olması saxlanılan şəxslərin tibbi yardıma əlçatanlığı baxımından əhəmiyyətlidir.

Tibb-sanitar hissədə (TSH) qeydiyyat məsələləri araşdırılarkən tibbi kitabça və xəstəlik tarixçələri ilə bağlı qeydlərin olmaması, bəzi şəxslərin ehtiyac olmadan imtiyazlı şərait yaradılaraq TSH-də saxlanıldığı müşahidə edilir (10 saylı CÇM). Bu isə, həqiqi müalicəyə ehtiyac olan şəxslər üçün yer olmamasına səbəb olur və bunun nəticəsində həmin şəxslərin tibbi xidmətə çatımlılığına maneə yaranır. CPT də qeyd edir ki, məhkumlar istənilən vaxt həkimə müraciət etmək imkanına malik olmalıdırlar. Tibbi xidmət elə təşkil edilməlidir ki, həkimlə

məsləhətləşmələr barədə xahişlər lüzumsuz yubanmalar olmadan yerinə yetirilsin[2].

*Ombudsman şəxslərin tibbi xidmətə çatımlılığının təmin edilməsi baxımından dəqiq qeydiyyatın aparılması işinə nəzarətin artırılmasını vacib hesab edir.*

***Telefon danışığı hüququ ilə bağlı.*** Penitensiar Xidmətin 6 saylı cəzaçəkmə müəssisəsində başçəkmə zamanı telefon danışığı ilə bağlı aşkar edilmiş neqativ hal (müəyyən məbləğ qarşılığında əlavə telefon danışığının verilməsi) sıxlığa səbəb olmaqla qanunla müəyyən müddətlərdə danışıq hüququ olan şəxslərə müəyyən maneələr yaradır. Halbuki, beynəlxalq standartlara əsasən həbs edilmiş şəxslərin, o cümlədən məhkumların telefondan istifadə etmək üçün uzun müddət gözləmək məcburiyyətində qalmaması məqsədilə müvafiq sayda telefonla təmin edilməli olduğu qeyd edilir.

*Ombudsman saxlanılan şəxslərin, məhkumların telefon danışığının onların ətraf aləmlə ən vacib ünsiyyət imkanlarından biri olduğunu nəzərə alaraq, qanunvericiliklə nəzərdə tutulmuş bu hüququn tam təmin edilməsini zəruri hesab edir.*

***Daxili İşlər Nazirliyinin tabe müəssisələri ilə bağlı.*** Başçəkmələr zamanı bir sıra saxlanılan şəxslər müvəqqəti saxlama yerlərinə qəbul zamanı geyimlərinin tam və ya qismən çıxarılaraq yoxlanılması ilə bağlı şikayətlərini bildirmişlər. Ombudsman saxlanılan şəxslərin müəssisəyə daxil olarkən üzərlərində yoxlamaların zəruri texniki avadanlıqlardan istifadə etməklə aparılmasını təklif edir. Bu müasir texnologiyaların təcrübədə tətbiqinə şərait yaratmaqla yanaşı, həm də saxlanılan şəxslərin ləyaqət hüququnun müdafiəsi baxımından əhəmiyyət kəsb edir.

Polis nəzarətində saxlanılan şəxslərin vaxtında vəkillə təmin olunması pis rəftar ehtimalına qarşı vacib təminat kimi xüsusi əhəmiyyət daşıyır.

Ombudsmana ünvanlanan müraciətlərin təhlili göstərir ki, polis tərəfindən saxlanılan şəxslərin öz müdafiəçiləri ilə görüşmək hüququ ilə bağlı bir sıra problemlər hələ də qalmaqdadır.

*Ərizəçi R. (13027-21) Ombudsmanın Çağrı Mərkəzinə müraciət edərək, hüquqlarını müdafiə etdiyi şəxsin Abşeron Rayon Polis İdarəsində saxlanıldığını, lakin onunla görüşünə icazə verilmədiyini bildirmiş, qanunamüvafiq köməklik göstərilməsini xahiş etmişdir.*

*Həmin müraciət dərhal araşdırılmaqla vəkilin hüquqlarını müdafiə etdiyi şəxslə görüşü təmin edilmişdir.*

*Ərizəçi Ə. (21087-21) Ombudsmanın Çağrı Mərkəzinə müraciət edərək, Quba Rayon Polis Şöbəsində saxlanılan hüquqlarını müdafiə etdiyi şəxslə görüşünə icazə verilmədiyini bildirmiş, müvafiq köməklik göstərilməsini xahiş etmişdir.*

---

[2] *CPT/Inf (92) 3*

*Ombudsmanın aidiyyəti üzrə müdaxiləsindən sonra vəkilin hüquqlarını müdafiə etdiyi şəxslə görüşünə şərait yaradılmışdır.*

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin şəhər və rayon polis idarə, şöbə və bölmələrinin müvəqqəti saxlama yerlərinə, İnzibati həbs olunanların saxlama mərkəzinə həyata keçirilən başçəkmələr çərçivəsində, eləcə də müraciətlər üzrə aparılan araşdırmalar zamanı şəxslərin saxlanılmasının qanuniliyi, müddətlərə riayət edilməsi, qeydiyyat və sənədləşmənin aparılması vəziyyəti yerində yoxlanılmış, saxlanılan şəxslərlə fərdi söhbətlər aparılmış, onların saxlanma əsasları və şəraiti qiymətləndirilmiş, saxlanıldıqları müddət ərzində, habelə tutularkən pis rəftara məruz qalıb-qalmamaları öyrənilmişdir.

Başçəkmələr zamanı, eyni zamanda Ombudsmanın Çağrı Mərkəzinə daxil olmuş müraciətlərin təhlili nəticəsində polis tərəfindən bir sıra hallarda prosessual normaların pozulması, qanunvericilikdə nəzərdə tutulmuş müddətlərdən artıq saxlama halları müşahidə edilmişdir.

Müvəqqəti saxlama yerlərinə həyata keçirilən başçəkmələr zamanı müşahidə edilmişdir ki, saxlanılan şəxslərdən COVID-19 testi üçün götürülən analiz nümunələrinin cavablarının bir həftəyədək uzandığına görə belə şəxslərin istintaq təcridxanasına və digər müəssisələrə köçürülməsi müddətləri qanunvericilikdə müəyyən edilmiş müddətə uyğun gəlmir.

Qeyd olunan çatışmazlıqlardan narahatlığını bildirən Ombudsman müəyyən olunmuş hallar və pandemiyanın davam etməsini nəzərə alaraq, saxlanılan şəxslərdən COVID-19 testi üçün götürülən analiz cavablarının qısa müddətdə verilməsinin təmin olunması istiqamətində tədbirlərin görülməsini zəruri hesab edir.

İl ərzində Ombudsmanın Çağrı Mərkəzinə karantin qaydalarının pozulması ilə əlaqədar polis bölmələrində qanunsuz saxlama iddiası ilə bağlı əsasən yanvar və fevral aylarında daxil olan müraciətlərdə karantin qaydalarının pozulması ilə əlaqədar şəxslərin polis bölməsinə aparıldığı, cərimənin ödənilməyəcəyi təqdirdə sərbəst buraxılmayacaqları bildirilmişdir. Bəzi belə müraciətlər üzrə aparılmış araşdırmalardan sonra saxlanılan şəxslər sərbəst buraxılmışdır. Bununla yanaşı, son dövrlər həyata keçirilən tədbirlər nəticəsində bu kimi halların sayı azalmışdır.

*Ərizəçi S. (998-21) Ombudsmana müraciət edərək, atasının pandemiya ilə əlaqədar xüsusi karantin qaydalarını pozduğuna görə Xəzər Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən saxlanılaraq polis bölməsinə aparıldığını, yalnız cəriməni ödəyəcəyi halda sərbəst buraxılacağına dair məlumat verildiyini bildirmiş, köməklik göstərilməsini xahiş etmişdir. Ombudsmanın müdaxiləsindən sonra şəxs sərbəst buraxılmışdır.*

Saxlanılan şəxslərin hüquqi yardım almaq, müdafiəçiləri ilə görüşmək hüquqlarının təmin edilməsinin vacibliyini vurğulayaraq, Ombudsman bu sahə ilə bağlı polis əməkdaşlarına ünvanlanmış maarifləndirmə işinin aparılmasını və bu məsələlərə nəzarətin gücləndirilməsini təklif edir.

Qanunvericilikdə saxlanılan şəxsin hüquqları barədə məlumatlandırılması hüququ və cinayət təqibi orqanı tərəfindən bu cür məlumatı vermə vəzifəsi təsbit edilmişdir. Odur ki, Ombudsman saxlanılan şəxslərin hüquqları barədə məlumatlandırılması məsələsinə diqqətin artırılmasını zəruri hesab edir.

İstər beynəlxalq təcrübə, istərsə də milli qanunvericilik və başçəkmələrin təhlili göstərir ki, saxlanılan şəxslə bağlı vahid və hərtərəfli qeydiyyat aparıldığı halda bütün prosessual hərəkətlər (saxlama vaxtı və səbəbləri, hüquqlarına dair məlumatlandırma, xəsarətlərin qeydiyyatı, yaxınları və müdafiəçisi ilə əlaqə saxlama, qida, dindirilmə, köçürülmə, sərbəst buraxılma) qeyd olunarsa, saxlanılan şəxslərin müdafiə təminatları daha da artır. Saxlanılan şəxsin vəkilinin də bu qeydiyyat sənədlərinə çıxışı təmin edilməlidir.

Saxlanılan şəxslərin səmərəli müdafiəsi üçün qeydiyyat məsələlərinin əhəmiyyəti beynəlxalq standartlarda da mütləq şərt kimi qeyd olunmuşdur. Ombudsman vahid, hərtərəfli və səmərəli qeydiyyat sisteminin əhəmiyyətini xatırladır.

***Dövlət uşaq müəssisələri ilə bağlı.*** 2021-ci ildə uşaqların saxlanıldığı müəssisələrə keçirilmiş başçəkmələrin sayı artmış və ümumi başçəkmələrin 30 faizini təşkil etmişdir. Bu, Ombudsman Aparatında uşaq hüquqlarının müdafiəsi üzrə yeni struktur vahidinin yaradılması, Milli Preventiv Qrupun fəaliyyətinə uşaq hüquqları ilə birbaşa məşğul olan psixoloqun cəlb edilməsi, UNICEF-lə əməkdaşlıqda bu istiqamətdə Ombudsmanın məqsədyönlü fəaliyyətinin nəticəsidir. Başçəkmələr zamanı rəftar məsələlərin öyrənilməsi, o cümlədən uşaqların hüquqları ilə bağlı məlumatlılığının genişləndirilməsi məqsədilə uşaq iştirakçılığının artırılması ilə əlaqədar 117 uşaqla fərdi və qrup şəklində müsahibələr keçirilmişdir.

Həmin müəssisələrə keçirilmiş başçəkmələr zamanı aşkar edilmiş nöqsan və çatışmazlıqlar, habelə onların aradan qaldırılması ilə bağlı təkliflər səlahiyyətli dövlət qurumlarına ünvanlanmışdır. Belə ki, uşaq evlərinə keçirilən başçəkmələr zamanı uşaqların fərdi planının olmadığı, bununla da Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 26 aprel tarixli, 112 nömrəli Qərarı ilə təsdiq edilmiş "Uşaqların dövlət və bələdiyyə tərəfindən yaradılan uşaq evləri sosial xidmət müəssisələrinə qəbulu, həmin müəssisələri tərk etməsi, uşaq evlərində xidmətin təşkili, həmçinin uşaq evlərində uşaqların təminatı və yaşayış şəraitinə dair Qaydalar"ın 3.7-ci bəndinin tələblərinin yerinə yetirilmədiyi müəyyən edilmişdir. Qaydalara əsasən, müəssisədə hər bir uşaq üçün sosial xidmətin formasını, növünü, müddətini özündə əks etdirən fərdi plan hazırlamaqla müvafiq xidmətlər göstərilməlidir.

Qeyd edilən Qaydaların 3.6-cı bəndində uşaq evlərində xidmətlərin psixoloqlar, sosial işçilər və sosial xidmətçilər tərəfindən həyata keçirildiyi qeyd edilsə də, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 13 iyul tarixli, 172 nömrəli Qərarı ilə təsdiq edilmiş "Uşaq evlərinin rəhbər işçilərinin, pedaqoji, inzibati-təsərrüfat, tədris-köməkçi və xidmətedici heyətinin nümunəvi Ştatları"nda "sosial işçi" ştat vahidi nəzərdə tutulmamışdır.

Ombudsman uşaqların hərtərəfli inkişafı üçün fərdi planın hazırlanmasının, həmçinin uşaq evlərinin ştat cədvəlində "sosial işçi" ştat vahidinin nəzərdə tutulmasının vacibliyini diqqətə çatdırır, bu Qərara müvafiq dəyişikliyin olunmasını təklif edir.

Uşaqların saxlanıldığı müəssisələrə, o cümlədən internat məktəblərinə keçirilən başçəkmələr zamanı psixoloji xidmətin təşkilində də sistematik çatışmazlıqlar müəyyən edilmişdir. Belə ki, "Psixoloji yardım haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş, eyni zamanda Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 aprel tarixli Qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrində psixoloji xidmətin təşkili Qaydaları"nda təsbit olunmuş psixoloji xidmətin fəaliyyət istiqamətlərinin icra olunmadığı, bəzi müəssisələrdə psixoloq ştatının vakant olduğu, didaktik materialların çatışmazlığı müşahidə olunmuşdur.

Ombudsman uşaqların sağlamlıq və inkişaf hüquqlarının təmini məqsədilə onların psixi sağlamlığına göstərilən diqqətin artırılmasını, qeyd olunan çatışmazlıqların aradan qaldırılmasını vacib hesab edir.

Müəssisələrdə aşkar edilən nöqsanların bir çoxu Ombudsmanın müraciətləri nəticəsində aradan qaldırılmış və daha sonra təkrar başçəkmələr zamanı təmini vəziyyəti yerində yoxlanılmışdır. Belə ki, uşaq evlərində uşaqların sağlamlıq və təhsil hüququnun təmin edilməsi ilə bağlı çatışmazlıqlar aradan qaldırılmış, 2 saylı uşaq evində məktəbəqədər qrup üçün nəzərdə tutulmuş mebel və avadanlıqlar uşaqların yaş və inkişaflarına uyğun olaraq yeniləri ilə əvəz edilmişdir. Həmin müəssisədə saxlanılan uşaqların asudə vaxtının səmərəli təşkili məqsədilə onların musiqi məktəbinə və idman dərnəklərinə qeydiyyatı təmin olunmuş, habelə sənədləşməyə aid çatışmazlıqlar aradan qaldırılmışdır. 3 saylı uşaq evində uşaqların təhsil hüquqlarının səmərəli təmini və onlayn təhsildən yayınma hallarının aradan qaldırılması məqsədilə Ombudsmanın təklifi nəzərə alınaraq müəssisədəki kompüterlər kameralar ilə təchiz edilmişdir. Eyni zamanda, hər iki müəssisənin fəaliyyətini tənzimləyən yeni nizamnaməsi tərtib olunmuşdur.

Bakı şəhərində yerləşən 9 nömrəli xüsusi internat məktəbində təhsil hüququnun təmininə aid nöqsan aradan qaldırılaraq, uşaqlara göstərilən loqoped xidməti qaydalara müvafiq olaraq qeyri-tədris saatlarında təşkil edilmişdir. Sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 nömrəli Respublika xüsusi internat məktəbində isə uşaqların müəssisəni müvəqqəti tərk etməsinə dair sənədləşmənin

aparılması, eyni zamanda məktəbin yataqxanasında işıqlandırmanın müvafiq normalara uyğun təşkili təmin olunmuşdur.

***Səhiyyə Nazirliyinin müəssisələri ilə bağlı.*** Ombudsmanın müraciəti əsasında Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Bakı şəhəri 1 saylı körpələr evində tibbi xidmətin təşkilinə və saxlanma şəraitinə aid aşkar edilmiş nöqsanlar qismən aradan qaldırılmış, uşaqlarla psixoloji işin aparılması üçün müvəqqəti olaraq mütəxəssislər cəlb olunmuşdur. Lakin aparılan işlərin davamlı olmaması narahatlıq doğuran məqamdır.

Məlum olduğu kimi, körpələr evinə yerləşdirilən əksər uşaqlarda neqativ uşaqlıq təcrübəsinin və bunun nəticəsi olaraq onların gələcəkdə sağlamlıq və sosial risklərə məruz qalma ehtimalının daha yüksək olması onlarla aparılan reabilitasiya, sosial-psixoloji işlərin vacibliyini göstərir.

Qeyd olunan vəzifələrin səmərəli icrası üçün uşaqlarla işləyən əməkdaşların davamlı olaraq qayğı və erkən inkişafın, uşaq psixologiyasının, erkən aşkarlanma, profilaktika və erkən müdaxilənin əsas aspektləri üzrə hazırlıq keçməsi, sosial-psixoloji bacarıqlarının və bilik səviyyələrinin artırılması vacibdir.

Ombudsman körpələr evləri üçün uşaq psixoloqu, uşaqların erkən inkişafı üzrə mütəxəssis kimi vəzifələrin nəzərdə tutulması məqsədi ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1996-cı il 29 may tarixli, 61 nömrəli "Büdcədən maliyyələşdirilən məktəbəqədər təhsil müəssisələrinin nümunəvi ştatı haqqında" qərarında müvafiq dəyişikliklər olunmasını təklif edir.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyindəki 1 saylı Psixiatriya Xəstəxanası (Maştağa qəsəbəsi), Sumqayıt və Şəki psixiatriya müəssisələrində aparılmış başçəkmələr zamanı saxlanma şəraitinə və sənədləşməyə aid aşkar edilmiş ciddi çatışmazlıqlar Ombudsmanın müdaxiləsi nəticəsində aradan qaldırılmışdır. Bununla belə, Respublika Psixiatriya Xəstəxanası, Sumqayıt şəhər Psixiatriya Xəstəxanası və Şəki rayon Psixiatriya Xəstəxanasında saxlanma şəraitinin, rəftarın təkmilləşdirilməsi, kadr çatışmazlığının aradan qaldırılması, sosial reabilitasiyaya yönəlmiş tədbirlərin davam etdirilməsi məsələlərinə diqqət artırılmalıdır.

Nazirliyin tabeliyindəki psixiatriya müəssisələrində ixtisaslı kadrların çatışmazlığı müşahidə edilir ki, bu da müalicənin effektiv təşkilində çətinliklərə səbəb olur. Müalicə prosesinin multidistiplinar komanda tərəfindən aparılmasının vacibliyi nəzərə alınaraq, bu prosesə həkim-psixiatrlarla yanaşı, psixoloqların, sosial işçilərin, əmək terapevtlərinin, art terapevtlərinin cəlb olunması tövsiyə edilir.

## BÖLMƏ 4.

## MİLLİ PREVENTİV MEXANİZM MANDATI ÇƏRÇİVƏSİNDƏ HƏYATA KEÇİRİLƏN DİGƏR FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

2021-ci il ərzində Ombudsmanın Milli Preventiv Mexanizm mandatı çərçivəsində fəaliyyəti yalnız başçəkmələrlə kifayətlənməmişdir. Belə ki, saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssislərin monitorinqi, Ombudsmana edilən müraciətlərin araşdırılması ilə yanaşı hüquqi maarifləndirmə tədbirlərli keçirilmiş, ictimaiyyətlə və beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq davam etdirilmişdir.

### 4.1. Hüquqi Maarifləndirmə

Başçəkmələr zamanı Penitensiar Xidmətin müəssisələrində, müvəqqəti saxlama yerlərində, təhsil, səhiyyə və digər müəssisələrdə xidmət əməkdaşlarına və həmin müəssisələrdə qəbul edilmiş saxlanılan şəxslərə ünvanlanmış hüquqi maarifləndirmə işi aparılmış, qaldırılan məsələlər üzrə hüquqi məsləhətlər verilmişdir.

Ombudsman Aparatı tərəfindən 2021-ci ildə təsisatın insan hüquqlarının müxtəlif sahələri üzrə, o cümlədən COVID-19 pandemiyası ilə əlaqədar UNICEF-in Azərbaycan Nümayəndəliyi tərəfindən çap edilmiş maarifləndirici nəşrləri, 916 Çağrı Mərkəzinin əlaqə vasitələrini əks etdirən plakatlar başçəkmələr həyata keçirilən müəssisələrdə paylanılmışdır.

Milli Preventiv Qrupun uşaqların saxlanıldığı müəssisələrə keçirdiyi başçəkmələr zamanı bir sıra hüquqi maarifləndirmə tədbirləri həyata keçirilib. Belə ki, uşaqların və müəssisə əməkdaşlarının iştirakı ilə keçirilən təlimlər zamanı Ombudsman Aparatının Uşaq hüquqlarının müdafiəsi sektorunun əməkdaşlarının da iştirakı təmin olunmaqla uşaq hüquqlarına dair mövcud normativ hüquqi aktlar və hüquqi müdafiə vasitələri haqqında məlumat verilmişdir. Eyni zamanda, ayrı-seçkilik və onunla mübarizə üsulları, uşaqların istismar, sui-istifadə, laqeyd rəftar və zorakılıqdan müdafiəsi, erkən nikah, uşaq əməyi, zərərli təsirlərdən mühafizəsi məsələlərinə toxunulmuşdur.

Ombudsmanın təşəbbüsü əsasında hüquq-mühafizə orqanları üçün kadr hazırlığını həyata keçirən tədris müəssisələri, o cümlədən Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası, Daxili İşlər Nazirliyinin Polis Akademiyası ilə əməkdaşlıq, hüquqi biliklərin artırılması məqsədini daşıyan tədbirlər davam etdirilib. Bu fəaliyyət çərçivəsində MPQ-nin rəhbəri və üzvləri tərəfindən növbəti məruzələr "Ombudsmanın insan hüquqlarının müdafiəsində rolu" və "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin Milli Preventiv Mexanizm fəaliyyəti"

mövzularında olmuş, Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin, Tibb Baş İdarəsinin əməkdaşlarına, habelə notariat fəaliyyəti ilə məşğul olmağa hazırlaşan və təlimə cəlb edilmiş hüquqşünaslara ünvanlanmışdır.

Təqdim edilmiş məruzələrdə dinləyicilərə Ombudsmanın təşəbbüsləri və təklifləri nəzərə alınmaqla Azərbaycan Respublikasının milli qanunvericiliyində həyata keçirilən islahatlar, Müvəkkilin insan hüquqlarının müdafiəsi və MPM qismində fəaliyyəti, beynəlxalq standartlar əsasında rəftar məsələləri və saxlanma şəraitinin araşdırılmasında göstərdiyi yanaşmalar haqqında geniş məlumat verilmişdir.

Milli Preventiv Qrupun üzvləri il ərzində müxtəlif tədbirlərdə iştirak etmişlər. Belə ki, beynəlxalq humanitar hüquqda məhkəmə təminatları mövzusunda təşkil edilmiş seminarda İşgəncələrin qarşısının alınması şöbəsinin bir neçə əməkdaşı iştirak etmişdir. ADA Universitetində keçirilən Üçüncü Cenevrə Konvensiyasının yenilənmiş Kommentariyasının təqdimatına həsr olunan tədbirlər bu baxımdan əhəmiyyətli olmuşdur.

## 4.2 İctimaiyyətlə əlaqələr və beynəlxalq əməkdaşlıq

2021-ci ildə Müvəkkilin Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində ictimaiyyət, kütləvi informasiya vasitələri, QHT-lər, regional və beynəlxalq təşkilatlarla, xarici ölkə MPM-ləri ilə informasiya və təcrübə mübadiləsinin aparılması, keçirilən tədbirlərdə qarşılıqlı iştirakın təmin olunması, eləcə də birgə tədbirlərin təşkili istiqamətində işlər davam etdirilmişdir.

MPM-in fəaliyyət istiqaməti ilə bağlı 2021-ci il ərzində 25 mətbuat açıqlaması yayılmışdır. Bunlardan 21-i Ombudsman və MPQ üzvləri tərəfindən həyata keçirilən başçəkmələr, 1-i əfv sərəncamının icrası ilə əlaqədar, 3-ü isə digər tədbirlərlə bağlı olmuşdur.

Press-relizlər, həmçinin MPM-in fəaliyyətinə dair hesabatlar, MPQ-nin tərkibi barədə məlumat, habelə müvafiq normativ-hüquqi aktlar Müvəkkilin rəsmi internet saytında yaradılmış xüsusi bölmədə Azərbaycan və İngilis dillərində yerləşdirilmişdir. Hesabatlar Müvəkkilin rəsmi internet səhifəsində yerləşdirilməklə yanaşı, aidiyyəti dövlət qurumlarına və beynəlxalq təşkilatlara da göndərilmişdir.

Ombudsman Səbinə Əliyeva 27 may 2021-ci il tarixdə Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Arian Bauer ilə görüşmüşdür. Qonağa Ombudsmanın fəaliyyəti barədə məlumat, o cümlədən Ermənistan tərəfindən işğal dövründə Azərbaycan ərazilərində basdırılmış minaların xəritələrinin verilməməsi, Azərbaycanla Ermənistan arasında hərbi əməliyyatlara son qoyulmasını təsdiq edən 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın imzalanmasından sonra da Ermənistanın təxribatçı hərəkətləri haqqında məlumat verilmişdir. Ombudsman üçtərəfli bəyanatın

imzalanmasından sonra Azərbaycan ərazisində cinayətlər törətməkdə təqsirli bilinərək saxlanılmış və barələrində istintaq aparılan Ermənistandan olan silahlı qrupun üzvlərinə bir neçə dəfə baş çəkdiyini, nəticələrlə bağlı müvafiq beynəlxalq təşkilatlara ad hoc hesabatlar göndərildiyini bildirmişdir.

Ombudsman Aparatında Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) regional nümayəndəliyinin Həbsxana sistemləri üzrə məsləhətçisi və həmin təşkilatın Azərbaycan nümayəndəliyinin əməkdaşları qəbul edilib. Həmin görüşdə MPQ üzvləri ilə əməkdaşlıq istiqamətində müzakirələr aparılıb.

Qonaqlara Ombudsmanın Milli Preventiv Mexanizm qismində həyata keçirilmiş fəaliyyəti barədə ətraflı məlumat verilib, irəli sürülmüş təklif və tövsiyələr, əməkdaşlıq perspektivləri müzakirə edilib, müxtəlif suallar cavablandırılıb.

Görüşdə MPQ və onun yeni tərkibi, həmçinin həyata keçirilmiş fəaliyyət istiqamətləri diqqətə çatdırılıb. Pandemiya şəraitində mövcud çağırışlar və şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə həyata keçirilən başçəkmələr, eyni zamanda Ombudsman təsisatı ilə BQXK arasında səmərəli əməkdaşlıq əlaqələrindən bəhs edilib.

BQXK-nın ölkə nümayəndəliyi ilə Ombudsman təsisatı arasında əməkdaşlıq ötən ildə də davam etdirilmişdir. Bilindiyi kimi, BQXK saxlanılan şəxslərin saxlanma şəraiti və onlarla rəftarı qiymətləndirmək məqsədi ilə Azərbaycan Respublikasının ərazisindəki saxlama və həbs yerlərinə baş çəkir. BQXK nümayəndələri başçəkmələr zamanı məhbuslarla təklikdə görüşlər keçirir, fərdi söhbətlər edir. Belə başçəkmələr zamanı saxlanılan bəzi şəxslər Ombudsman Aparatının nümayəndələrinin onlarla görüşməsini xahiş edirlər. Ombudsmanın ünvanına belə müraciətlərlə bağlı 2021-ci il ərzində bir neçə məktub daxil olmuş, adları qeyd edilmiş şəxslər MPQ üzvləri tərəfindən başçəkmələrdə qəbul edilmişlər.

İnsan Hüquqları üzrə Müvəkkil Səbinə Əliyevanın Aparatda Vəkillər Kollegiyasının sədri Anar Bağırov və Kollegiyanın nümayəndələri ilə keçirdiyi görüşdə MPQ-nin rəhbəri iştirak etmişdir.

Habelə MPQ-nin rəhbəri və üzvləri, İşgəncələrin qarşısının alınması şöbəsinin əməkdaşları çoxsaylı onlayn tədbirlərdə iştirak etmişlər.

# BÖLMƏ 5

# TƏKLİF VƏ TÖVSİYƏLƏR

Müvəkkil MPM qismində həyata keçirdiyi fəaliyyətin nəticələrinin təhlili, saxlanılan şəxslərin hüquqlarının effektiv təmini məqsədilə aşağıdakıları təklif edir.

## Normativ hüquqi aktlarla bağlı

1. Həbs edillmiş, habelə müəyyən müddətə azadlıqdan məhrumetmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslərin sağlamlığının qorunması hüququnun effektiv müdafiəsi məqsədilə belə şəxslərin müayinə və müalicəsinin Penitensiar Xidmətin Müalicə Müəssisəndə aparılması mümkün olmadıqda, tibbi xidmətlərin digər tibb müəssisələrində dövlət hesabına həyata keçirilməsi ilə bağlı müvafiq qanunvericiliyə zəruri əlavə və dəyişikliklərin edilməsi.
2. Cəzaçəkmə müəssisələrində çəza çəkən şəxslərin ali təhsil müəssisələrinə qəbul imtahanlarında iştirak edə bilmələri üçün mexanizmin hazırlanması.
3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 13 iyul tarixli, 172 nömrəli Qərarı ilə təsdiq edilmiş "Uşaq evlərinin rəhbər işçilərinin, pedaqoji, inzibati-təsərrüfat, tədris-köməkçi və xidmətedici heyətinin nümunəvi Ştatları"nda "sosial işçi" ştatının əlavə edilməsi.
4. Körpələr evlərində uşaq psixoloqu, erkən inkişaf üzrə mütəxəssis kimi vakant yerlərin açılması məqsədi ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29 may 1996-cı il tarixli 61 nömrəli "Büdcədən maliyyələşdirilən məktəbəqədər təhsil müəssisələrinin nümunəvi ştatı haqqında" Qərarında müvafiq dəyişikliklərin edilməsi təklif edilir.
5. Məhkumlara ailə üzvləri və yaxınları ilə videogörüntü vasitəsi ilə əlaqə saxlamaq imkanının yaradılmasını və bu məqsədlə Cəzaların İcrası Məcəlləsinə əlavə və dəyişikliklərin olunması ilə bağlı qanunvericiliyə əlavələrin edilməsinin sürətləndirilməsi.
6. Beynəlxalq standartlarda da nəzərdə tutulan qadın məhkumların gigiyenik vasitələrlə təminini nəzərdə tutan qanunvericilik layihəsinin qəbulunun sürətləndirilməsi.
7. Həbsdə saxlanılan şəxslərin və məhkumların şəhərlərarası telefon danışığı haqqının dövlət hesabına ödənilməsini nəzərdə tutal dəyişikliyin edilməsi.

## Daxili İşlər Nazirliyinə tövsiyələr

1. Müvəqqəti saxlama yerlərinə qəbul zamanı şəxslərin üzərlərində yoxlamaların geyimlərin tam çıxarılmadan və zəruri texniki avadanlıqlardan istifadə etməklə yoxlanılması ilə bağlı zəruri texniki avadanlıqlardan istifadə etməklə aparılması.
2. Polis tərəfindən saxlanılan şəxslərin hüquqi yardım almaq, müdafiəçiləri ilə görüşmək hüququ ilə bağlı təcrübədə rast gəlinən maneələrin aradan qaldırılması üçün əməli addımların atılması və buna nəzarətin gücləndirilməsi.
3. Qanunvericilikdə nəzərdə tutulmuş müddətlərdən artıq polis orqanlarında saxlama hallarına qarşı ciddi tədbirlərin həyata keçirilməsi;
4. Dərman vasitələrinin istifadəyə yararlılıq müddətinə və saxlanılması şəraitinə nəzarətin artırılması.
5. Saxlanılan şəxslərin ailə üzvləri ilə əlaqə məsələsinə (telefon və s.) nəzarətin artırılması.
6. Vahid və hərtərəfli qeydiyyat sistemi, sənədləşmə və qeydiyyat işinə nəzarətin gücləndirilməsi;

## Ədliyyə Nazirliyinə tövsiyələr

1. Penitensiar müəssisələrdə sıxlıq probleminin aradan qaldırılması istiqamətində addımların atılması, tikilməkdə olan müəssisələrin tikinti prosesinin sürətləndirilməsi;
2. Penitensiar Müəssisələrdə müxtəlif kateqoriyalı şəxslərin (yeniyetmələr və böyüklər), əvvəl məhkum olunmuşlar və ilk dəfə həbs olunanlar) ayrı saxlanılması sahəsində məsələlərə nəzarətin artırılması;
3. Cəzaçəkmə Müəssisələrində Cərimə təcridxanasına keçirilmə təcrübəsinə mümkün qədər az müraciət edilməsi;
4. Həbs edilmiş şəxslər və məhkumlara göstərilən tibbi xidmətin keyfiyyətin artırılması məqsədi ilə Penitensiar Xidmətin Müalicə Müəssisəsində, İxtisaslaşdırılmış Müalicə Müəssisəsində zəruri avadanlıqların, o cümlədən MRT cihazının təmin edilməsi.
5. Dərman vasitələrinin istifadəyə yararlılıq müddətinə və saxlanılması şəraitinə nəzarətin artırılması.

## Digər tövsiyələr

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 26 aprel tarixli, 112 nömrəli Qərarı ilə təsdiq edilmiş “Uşaqların dövlət və bələdiyyə tərəfindən yaradılan uşaq evləri sosial xidmət müəssisələrinə qəbulu,

həmin müəssisələri tərk etməsi, uşaq evlərində xidmətin təşkili, həmçinin uşaq evlərində uşaqların təminatı və yaşayış şəraitinə dair Qaydalar"ın 3.7-ci bəndinin tələblərinə uyğun olaraq hər bir uşaq üçün sosial xidmətin formasını, növünü, müddətini özündə əks etdirən fərdi plan hazırlamaqla müvafiq xidmətlər göstərilməsi.

2. Dövlət uşaq müəssisələrində olan uşaqların sağlamlıq və inkişaf hüquqlarının təmini məqsədilə onların psixi sağlamlığına göstərilən diqqətin, habelə psixoloji xidmətin artırılması.
3. Səhiyyə Nazirliyinin tabeliyindəki psixiatriya müəssisələrində təcridetmə otaqlarının istifadəsindən, habelə xüsusi vasitələrin tətbiqindən imtina edilməsi.

# STATİSTİK GÖSTƏRİCİLƏR

*Əlavə 1*









***Diaqram 3. MPM qismində həyata keçirilən başçəkmələrin illər üzrə sayı***

***Diaqram 4. MPM-in mətbuat açıqlamalarının sayı (illər üzrə)***



# İŞGƏNCƏLƏRƏ VƏ DİGƏR QƏDDAR, QEYRİ-İNSANİ YAXUD LƏYAQƏTİ ALÇALDAN RƏFTAR VƏ CƏZA NÖVLƏRİNƏ QARŞI KONVENSİYANIN

## FAKÜLTATİV PROTOKOLU
## Preambula

Hazırkı Protokolun iştirakçı dövlətləri,

İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəf-tarın və cəza növlərinin qadağan edildiyini və onların insan hüquqlarının ciddi pozuntuları olduğunu bir daha təsdiq edərək,

İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiyanın (bundan sonra "Konvensiya" adlan-dırılacaq) məqsədlərinə nail olunması və azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi üzrə gələcək tədbirlərin zəruriliyinə əmin olaraq,

Konvensiyanın 2-ci və 16-cı maddələrinin hər bir iştirakçı dövlətin öz yurisdiksiyasında olan hər hansı ərazidə işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması üçün səmərəli tədbirlərin görülməsini öhdəsinə qoyduğunu xatırlayaraq,

Dövlətlərin bu maddələrin həyata keçirilməsinə görə birbaşa məsuliyyət daşıdığını, azadlıqdan məhrum edilmiş şəxslərin müdafiəsinin gücləndiril-məsinin və onların insan hüquqlarına tam riayət olunmasının ümumi vəzifə olduğunu və Konvensiyanın tətbiqi üzrə beynəlxalq qurumların milli tədbirləri tamamladığını və möhkəmləndirdiyini etiraf edərək,

İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin səmərəli şəkildə qarşısının alınmasının maarifləndirmə sahəsində tədbirlərin görülməsini və müxtəlif qanunvericilik, inzibati, məh-kəmə və digər tədbirlərin birləşdirilməsini tələb etdiyini xatırlayaraq,

Həmçinin, Vyanada 1993-cü ilin iyun ayında keçirilmiş İnsan Hüquqları üzrə Ümumdünya Konfransında işgəncələrin kökünün kəsilməsi üzrə səylərin ilk öncə onun qarşısının alınmasına yönəlməli olduğunu bəyan etdiyini və saxlanma yerlərinə mütəmadi başçəkmə üzrə preventiv sistemin yaradılması məqsədi daşıyan Konvensiyanın fakültativ protokolunun qəbul edilməsinə çağırdığını xatırlayaraq,

Azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin saxlanma

yerlərinə mütəmadi başçəkmələrə əsaslanan preventiv xarakter daşıyan qeyri-məhkəmə tədbirləri əsasında gücləndirə bilinməsinə əmin olaraq,

Aşağıdakılar barədə razılığa gəldilər:

## I HİSSƏ

## ÜMUMİ PRİNSİPLƏR

***Maddə 1***

Hazırkı Protokolun məqsədi işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması üçün azadlıqdan məhrum edilmiş şəxslərin saxlanıldığı yerlərə müstəqil beynəlxalq və milli orqanlar tərəfindən mütəmadi başçəkmələr sisteminin yaradıl-masından ibarətdir.

***Maddə 2***

1. Hazırkı Protokolda ifadə olunan funksiyaları yerinə yetirən İşgəncələrə qarşı Komitənin İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması üzrə Altkomitə (bundan sonra Qarşısını Alma üzrə Altkomitə adlandırılacaq) yaradılır.

2. Qarşısını Alma üzrə Altkomitə fəaliyyətini Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi çərçivəsində həyata keçirir və onun məqsəd və prinsiplərinin, habelə Birləşmiş Millətlər Təşkilatının azadlıqdan məhrum edilmiş şəxslərlə rəftara aid normalarını rəhbər tutur.

3. Qarşısını Alma üzrə Altkomitə, həmçinin konfidensiallıq, qərəzsizlik, qeyri-seçicilik, universallıq və obyektivlik prinsiplərini rəhbər tutur.

4. Qarşısını Alma üzrə Altkomitə və iştirakçı dövlətlər hazırkı Protokolun həyata keçirilməsində əməkdaşlıq edir.

***Maddə 3***

Hər bir iştirakçı dövlət işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması məqsədilə milli səviyyədə (milli preventiv mexanizmlər adlandırılan) bir və ya bir neçə başçəkmə orqanını yaradır, təyin edir və ya dəstəkləyir.

***Maddə 4***

1. Hər bir iştirakçı dövlət Hazırkı Protokola, 2-ci və 3-cü maddələrdə qeyd olunan mexanizmlərə uyğun olaraq yurisdiksiyası və nəzarəti altında olan azadlıqdan məhrum edilmiş şəxslərin dövlət orqanının sərəncamı və ya onun göstərişi, yaxud icazəsi və ya susmaqla razılığı əsasında saxlanıldığı və yaxud saxlanıla bildiyi hər bir yerə (bundan sonra saxlanma yerləri adlandırılacaq) başçəkmələrə icazə verir. Zərurət olduqda bu başçəkmələr belə şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi məqsədi ilə həyata keçirilir.

2. Hazırkı Protokolun məqsədləri üçün azadlıqdan məhrum etmə dedik-də şəxsin hər hansı məhkəmə, inzibati və ya digər orqanın qərarı ilə həbsdə saxlanılmasının və ya azadlıqdan məhrum edilməsinin, yaxud öz iradəsi ilə tərk etmə hüququ olmadan dövlət yaxud özəl həbsdə saxlanma yerinə yerləşdirilməsinin istənilən forması başa düşülür.

## II HİSSƏ

## QARŞISINI ALMA ÜZRƏ ALTKOMİTƏ

***Maddə 5***

1. Qarşısını alma üzrə Altkomitə on üzvdən ibarətdir. Hazırkı Protoko-lun əllinci ratifikasiya fərmanının və ya ona qoşulma haqqında sənədin saxlanma üçün verilməsindən sonra Altkomitənin üzvlərinin sayı iyirmi beş nəfərə qədər artırılır.

2. Qarşısını alma üzrə Altkomitənin üzvləri yüksək mənəvi keyfiyyətlərə malik və ədalət mühakiməsi, xüsusilə də cinayət ədalət mühakiməsi sahəsində, penitensiar sistemdə və ya polis orqanlarında, yaxud azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarla aid istənilən sahələrdə təsdiq edilmiş iş təcrübəsi olan şəxslər sırasından seçilir.

3. Qarşısını alma üzrə Altkomitənin yaradılması zamanı ədalətli coğrafi bölgü və iştirakçı dövlətlərin müxtəlif mədəniyyət formalarının və hüquq sistemlərinin təmsilçiliyinin zərurətinə lazımi diqqət yetirilir.

4. Qarşısını alma üzrə Altkomitənin yaradılması zamanı həmçinin bərabərlik və ayrı-seçkiliyin yolverilməzliyi prinsipləri əsasında tarazlaşdırılmış gender təmsilçiliyinə diqqət yetirilir.

5. Qarşısını alma üzrə Altkomitənin tərkibinə eyni dövlətin birdən çox vətəndaşı daxil ola bilməz.

6. Qarşısını alma üzrə Altkomitənin üzvləri öz funksiyalarını şəxsi qisimdə həyata keçirir, onlar müstəqil və qərəzsiz olmalı və Altkomitənin tərkibində səmərəli işləməyə imkanları olmalıdır.

***Maddə 6***

1. Hər bir iştirakçı dövlət hazırkı maddənin 2-ci bəndinə uyğun olaraq 5-ci maddədə təsbit olunmuş ixtisas və tələblərə cavab verən iki namizədi irəli sürə bilər, bununla belə dövlət həmin namizədlərin ixtisası haqqında ətraflı məlumat təqdim edir.

2. a) Namizədlər hazırkı Protokolun iştirakçı dövlətinin vətəndaşı olma-lıdır;

b) irəli sürülmüş iki namizəddən ən azı biri onun namizədliyini irəli sürən iştirakçı dövlətin vətəndaşlığına malik olmalıdır;

c) bir iştirakçı dövlətin vətəndaşı olan iki nəfərdən çox namizəd irəli sürülə bilməz;

d) hər hansı iştirakçı dövlət digər iştirakçı dövlətin vətəndaşını namizəd kimi irəli sürməkdən əvvəl, o, həmin iştirakçı dövlətə sorğu verir və razılı-ğını alır.

3. Seçkilərin keçirilməsi nəzərdə tutulan iştirakçı dövlətlərin müşavirə-sinin başlanmasından ən azı beş ay əvvəl Birləşmiş Millətlər Təşkilatının Baş katibi iştirakçı dövlətlərə üç ay ərzində öz namizədlərini irəli sürmək təklifi ilə məktub göndərir. Baş katib bütün namizədlərin, onları irəli sürmüş iştirakçı dövlətlər göstərilməklə əlifba qaydasında siyahısını təqdim edir.

***Maddə 7***

1. Qarşısını alma üzrə Altkomitənin üzvləri aşağıdakı qaydada seçilir:

a) əsas diqqət hazırkı Protokolun 5-ci maddəsinin tələblərinə və meyar-larına əməl edilməsinə yetirilir;

b) ilk seçkilər hazırkı Protokolun qüvvəyə minməsindən sonra altı ay müddətindən gec olmayaraq keçirilir;

c) iştirakçı dövlətlər Qarşısını alma üzrə Altkomitənin üzvlərini gizli səsvermə yolu ilə seçir;

d) Qarşısını alma üzrə Altkomitənin üzvünün seçkiləri Birləşmiş Millətlər Təşkilatının Baş katibi tərəfindən iki ildə bir dəfə çağırılan iştirakçı dövlətlərin iclaslarında keçirilir. İştirakçı dövlətlərin sayının üçdə iki hissəsi kvorum hesab edilən bu iclaslarda ən çox səs və iştirak edən və səs verən iştirakçı dövlətlərin nümayəndələrinin mütləq səs çoxluğunu toplamış şəxs-lər Altkomitəyə seçilmiş üzvlər hesab olunur.

2. Seçkilər zamanı hər hansı iştirakçı dövlətin iki vətəndaşının Qarşısını alma üzrə Altkomitənin tərkibində işləmək hüququnu əldə etdiyi təqdirdə, ən çox səs toplamış namizəd Altkomitənin üzvü seçilir. Bu vətəndaşların eyni sayda səs topladığı təqdirdə, aşağıdakı prosedur tətbiq olunur:

a) namizədlərin yalnız biri vətəndaşı olduğu iştirakçı dövlət tərəfindən irəli sürüldüyü təqdirdə bu vətəndaş Qarşısını alma üzrə I Altkomitənin üzvü seçilir;

b) hər iki namizəd vətəndaş olduqları iştirakçı dövlət tərəfindən irəli sürüldüyü təqdirdə, Qarşısını alma üzrə Altkomitənin üzvlüyünə namizəd-lərdən birinin müəyyən edilməsi üçün ayrıca gizli səsvermə keçirilir;

c) namizədlərdən heç biri vətəndaşı olduğu iştirakçı dövlət tərəfindən irəli sürülmədiyi təqdirdə Qarşısını alma üzrə Altkomitənin üzvlüyünə namizədlərdən birinin müəyyən edilməsi üçün ayrıca gizli səsvermə keçi-rilir.

***Maddə 8***

Qarşısını alma üzrə Altkomitə üzlərindən birinin vəfat etdiyi və ya istefa verdiyi yaxud hər hansı digər səbəbdən Altkomitə üzvünün funksiyalarını yerinə yetirməsi mümkün olmadığı təqdirdə, onun namizədliyini irəli sürmüş iştirakçı dövlət seçilmək hüququ olan, 5-ci maddədə təsbit olunmuş ixtisasa malik və tələblərə cavab verən şəxsi teyin edir. Bu şəxs səlahiy-yətlərin müxtəlif sahələri arasında müvafiq tarazlığın təmin edilməsi zərurəti nəzərə alınmaqla, iştirakçı dövlətlərin növbəti iclasına qədər olan səlahiyyət müddətinə, onun iştirakçı

dövlətlərin çoxluğu tərəfindən təsdiq olunması şərti ilə teyin olunur. Birləşmiş Millətlər Təşkilatı Baş katibinin ehtimal edilən təyinat haqqında bildirişindən sonra altı ay ərzində iştirakçı dövlətlərin yarısı və ya yarısından çoxu tərəfindən belə təyinata qarşı çıxış edilmədiyi təqdirdə təsdiqetmə baş tutmuş hesab olunur.

***Maddə 9***

Qarşısını alma üzrə Altkomitənin üzvləri il 4 müddətinə seçilir. Namizədlikləri irəli sürüldüyü təqdirdə onlar bir dəfə təkrarən seçilə bilərlər. İlk seçkilərdə seçilmiş üzvlərin yarısının səlahiyyət müddəti iki illik müddət bitdikdən sonra başa çatır; ilk seçkilərdən dərhal sonra bu üzvlərin adları 7-ci maddənin 1 d bəndində qeyd olunan iclasın Sədri tərəfindən keçirilən püşk atma yolu ilə müəyyən olunur.

***Maddə 10***

1. Qarşısını alma üzrə Altkomitə öz vəzifəli şəxslərini iki il müddətinə seçir. Onlar təkrarən seçilə bilərlər.

2. Qarşısını alma üzrə Altkomitə öz prosedur qaydalarını müəyyən edir. Bu prosedur qaydalar xüsusilə aşağıdakıları nəzərdə tutur:

a) üzvlərin yarısı üstə gəl bir kvorum təşkil edir;

b) Qarşısını alma üzrə Altkomitənin qərarları iştirak edən üzvlərin səs çoxluğu ilə qəbul olunur;

c) Qarşısını alma üzrə Altkomitənin iclasları qapalı keçirilir.

3. Birləşmiş Millətlər Təşkilatının Baş katibi Qarşısını alma üzrə Altkomitənin ilk iclasını çağırır. İlk iclasdan sonra Qarşısını alma üzrə Altkomitə prosedur qaydalarına müvafiq olan intervalda iclaslarını keçirir. Altkomitə və İşgəncələrə qarşı Komitə ildə bir dəfədən az olmayaraq birlikdə toplaşırlar.

## III HİSSƏ

## QARŞISINI ALMA ÜZRƏ ALTKOMİTƏNİN MANDATI

***Maddə 11***

Qarşısını alma üzrə Altkomitə:

a) 4-cü maddədə qeyd olunan yerlərə baş çəkir və azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsi ilə bağlı iştirakçı dövlətlərə tövsiyələr təqdim edir;

b) milli preventiv mexanizmlərə münasibətdə:

i) zərurət olduqda, beləmexanizmlərin yaradılmasında iştirakçı dövlət-lərə məsləhət verir və yardım göstərir;

ii) milli preventiv mexanizmlərlə birbaşa, zərurət olduqda konfidensial şəkildə əlaqə saxlayır və onların potensialının gücləndirilməsi məqsədi ilə peşəkar hazırlıq və texniki yardım sahəsində xidmətlər təklif edir;

iii) azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi üçün ehtiyacların və zəruri tədbirlərin qiymətləndirilməsi işində məsləhət verir və yardım göstərir;

iv) milli preventiv mexanizmlərinin imkanlarının və mandatının gücləndirilməsi məqsədi ilə işgəncələrin və digər qəddar, qeyri-insani yaxud ləya-qəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması üçün iştirakçı döv-lətlərə tövsiyə və iradları təqdim edir.

c) işgəncələrin qarşısının alınması məqsədilə Birləşmiş Millətlər Təşkilatının aidiyyəti qurum və mexanizmləri ilə, habelə bütün şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi marağından çıxış edən beynəl-xalq, regional və milli təsisat və ya təşkilatlarla əməkdaşlıq edir.

***Maddə 12***

Qarşısını alma üzrə Altkomitənin 11-ci Maddədə təsbit olunmuş manda-tının həyata keçirə bilməsi üçün iştirakçı dövlətlər aşağıdakıları öhdəsinə götürür:

a) Qarşısını alma üzrə Altkomitəni öz ərazisində qəbul etmək və hazırkı Protokolun 4-cü Maddəsində müəyyən olunmuş saxlanma yerlərinə baş çəkməyə imkan vermək;

b) azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi üçün ehtiyacların və zəruri olan tədbirlərin qiymətləndirilməsi məqsədilə Qarşısını alma üzrə Altkomitə tərəfindən sorğu edilə bilən bütün aidiyyəti məlumatı təqdim etmək;

c) Qarşısını alma üzrə Altkomitə və milli preventiv mexanizmlər arasın-da əlaqələri təşviq etmək və asanlaşdırmaq;

d) Qarşısını alma üzrə Altkomitənin tövsiyələrini öyrənmək və onların mümkün tətbiqi ilə bağlı dialoq aparmaq.

***Maddə 13***

1. Qarşısını alma üzrə Altkomitə 11-ci Maddədə təsbit olunmuş mandatının həyata keçirilməsi məqsədilə iştirakçı dövlətlərə müntəzəm başçəkmələr proqramını ilk dəfə püşk atma yolu ilə müəyyən edir.

2. Məsləhətləşmələrin keçirilməsindən sonra, Qarşısını alma üzrə Altko-mitə öz proqramı haqqında iştirakçı dövlətləri məlumatlandırır ki, onlar təxirə salınmadan başçəkmələrin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Başçəkmələr Qarşısını alma üzrə Altkomitənin ən azı iki üzvü tərə-findən həyata keçirilir. Zərurət olduqda, bu üzvləri hazırkı Protokolun əhatə etdiyi sahələr üzrə təsdiq olunmuş iş təcrübəsinə və biliklərə malik ekspertlər müşayiət edə bilər. Ekspertlər Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarı və Beynəlxalq Cinayətkarlığın Qarşı-sının Alınması üzrə Mərkəzi tərəfindən, iştirakçı dövlətlərin irəli sürdüyü təkliflər əsasında hazırlanmış

ekspertlər siyahısından seçilir. Bu siyahının hazırlanması zamanı aidiyyəti iştirakçı dövlətlər 5 nəfərdən çox olmayaraq milli ekspert təklif edir. Aidiyyəti iştirakçı dövlət başçəkmə üçün təklif edilmiş ekspertin namizədliyini rədd edə bilər, bundan sonra Altkomitə digər eksperti təklif edir.

4. Qarşısını alma üzrə Altkomitə zəruri hesab etdiyi təqdirdə, müntəzəm başçəkmənin həyata keçirilməsindən sonra növbəti qısa başçəkmə təşkil etməyi təklif edə bilər.

***Maddə 14***

1. Qarşısını alma üzrə Altkomitə mandatını həyata keçirə bilməsi üçün hazırkı Protokolun iştirakçı dövlətləri ona aşağıdakıları təqdim etməyi öhdələrinə götürürlər:

a) 4-cü Maddədə müəyyən olunmuş saxlanma yerlərində olan azadlıqdan məhrum edilmiş şəxslərin sayı, həmçinin belə yerlərin sayı və yerləşdiyi yer haqqında istənilən məlumat məhdudiyyətsiz əldə etmək imkanı;

b) belə şəxslərlə rəftar, habelə onların saxlanma şəraiti haqqında istə-nilən məlumat məhdudiyyətsiz əldə etmək imkanı;

c) aşağıdakı 2-ci bəndə uyğun olaraq, bütün saxlanma yerlərinə, onların binalarına və obyektlərinə məhdudiyyətsiz buraxılış;

d) azadlıqdan məhrum edilmiş şəxslərlə şahidsiz, şəxsən və ya zərurət olduqda, tərcüməçi vasitəsilə, habelə Altkomitənin fikrinə görə aidiyyəti məlumatı verə biləcək istənilən digər şəxslə fərdi qaydada söhbətlər apar-maq imkanı;

e) baş çəkmək niyyətində olduğu yerləri və söhbət etmək niyyətində olduğu şəxsləri maneəsiz seçmək hüququ.

2. Konkret saxlanma yerinə başçəkməyə münasibətdə etirazlar yalnız təcili surətdə baş vermiş və başçəkməyə müvəqqəti maneə törədən milli müdafiə, dövlət təhlükəsizliyi, təbii fəlakət və ya baş çəkilməsi ehtimal edilən yerdə ciddi iğtişaşla bağlı inandırıcı mülahizələrə əsaslana bilər. Elan olunmuş fövqəladə vəziyyətin mövcudluğu başçəkmənin həyata keçirilmə-sinə etiraz səbəbi kimi gətirilə bilməz.

***Maddə 15***

Heç bir orqan və ya vəzifəli şəxs Qarşısını alma üzrə Altkomitəyə və ya onun üzvlərinə verilən hər hansı, istər doğru, istərsə də yalan, məlumatın bildirilməsinə görə istənilən şəxs və ya təşkilata münasibətdə hər hansı sanksiyanı teyin edə, tətbiq edə, icazə verə və ya yol verə bilməz və heç bir belə şəxs və ya təşkilat digər şəkildə sıxışdırıla bilməz.

***Maddə 16***

1. Qarşısını alma üzrə Altkomitə öz tövsiyə və iradlarını konfidensial qaydada iştirakçı dövlətə və zərurət olduqda, milli preventiv mexanizminə göndərir.

2. Qarşısını alma üzrə Altkomitə öz hesabatını iştirakçı dövlət tərəfindən müvafiq xahişin daxil olduğu təqdirdə, iştirakçı dövlətin iradları ilə birlikdə dərc edir. İştirakçı dövlət hesabatın bir hissəsini açıqladığı təqdirdə Altko-mitə hesabatı tam və ya qismən dərc edə bilər. Bununla yanaşı şəxsi xarakter daşıyan məlumatlar müvafiq şəxsin birbaşa ifadə edilən razılığı olmadan dərc edilə bilməz.

3. Qarşısını alma üzrə Altkomitə fəaliyyəti haqqında açıq illik hesabatını İşgəncələrə qarşı Komitəyə təqdim edir.

4. İştirakçı dövlətin 12-ci və 14-cü Maddələrə uyğun olaraq Qarşısını alma üzrə Altkomitə ilə əməkdaşlıq etməkdən və ya Qarşısını alma üzrə Altkomitənin tövsiyələrinə müvafiq olaraq vəziyyətin yaxşılaşdırılması üçün tədbirlər görməkdən imtina etdiyi təqdirdə, İşgəncələrə qarşı Komitə Qarşısını alma üzrə Altkomitənin xahişi ilə iştirakçı dövlətə öz müla-hizələrini ifadə etmək imkanı verdikdən sonra açıq bəyanatla çıxış etmək və ya Altkomitənin hesabatını dərc etmək barədə öz üzvlərinin səs çoxluğu ilə qətnamə qəbul edə bilər.

## IV HİSSƏ

## MİLLİ PREVENTİV MEXANİZMLƏR

***Maddə 17***

Hazırkı Protokolun qüvvəyə minməsindən, və ya onun ratifikasiyasın-dan, yaxud ona qoşulmasından sonra bir ildən gec olmayaraq hər bir işti-rakçı dövlət milli səviyyədə işgəncələrin qarşısının alınması üçün bir və ya bir neçə müstəqil milli preventiv mexanizmləri dəstəkləyir, teyin və ya təsis edir. Mərkəzsizləşdirilmiş orqanlar tərəfindən təsis edilmiş mexanizmlər hazırkı Protokolun məqsədləri üçün, Protokolun tələblərinə cavab verdiyi təqdirdə, milli preventiv mexanizmlər qismində teyin edilə bilər.

***Maddə 18***

1. İştirakçı dövlətlər milli preventiv mexanizmlərinin funksional müstə-qilliyinə, habelə onların işçi heyətinin müstəqilliyinə təminat verir.

2. İştirakçı dövlətlər milli preventiv mexanizmlərinin ekspertlərinin zəruri potensiala və peşə biliklərinə malik olmasının təmin edilməsi üçün zəruri tədbirlər görür. Onlar gender balansını və ölkədə mövcud olan etnik və azlıq qruplarının bərabər təmsilçiliyini təmin edir.

3. İştirakçı dövlətlər milli preventiv mexanizmlərin fəaliyyəti üçün zəruri resursları təqdim etməyi öhdələrinə götürür.

4. Milli preventiv mexanizmlərin yaradılması zamanı iştirakçı dövlətlər insan hüquqlarının müdafiəsi və təşviq edilməsi üzrə milli təsisatların statu-suna dair Prinsipləri nəzərə alır.

***Maddə 19***

Milli preventiv mexanizmlərə ən azı aşağıdakı səlahiyyətlər verilir:

a) zərurət olduqda, işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiənin gücləndirilməsi məqsədilə 4-cü Maddədə müəyyən olunmuş saxlanma yerlərində azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarla bağlı məsələyə müntəzəm olaraq baxıl-ması;

b) Birləşmiş Millətlər Təşkilatının müvafiq normaları nəzərə alınmaqla azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarın və onların saxlanma şəraitinin yaxşılaşdırılması məqsədilə müvafiq qurumlara tövsiyələrin təqdim edil-məsi, işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəf-tar və cəza növlərinin qarşısının alınması;

c) qüvvədə olan qanunvericilik və qanun layihələrinə dair təklif və qeydlərin təqdim edilməsi.

***Maddə 20***

Milli preventiv mexanizmlərin öz mandatının yerinə yetirə bilməsi məqsədilə, hazırkı Protokolun iştirakçı dövlətlər onlara aşağıdakıları təqdim etməyi öhdələrinə götürür:

a) 4-cü Maddədə müəyyən olunmuş həbsdə saxlanma yerlərində olan azadlıqdan məhrum edilmiş şəxslərin sayı, həmçinin belə yerlərin sayı və yerləşdiyi yer haqqında istənilən məlumatı əldə etmək imkanı;

b) belə şəxslərlə rəftar, habelə onların həbsdə saxlanma şəraiti haqqında istənilən məlumatı əldə etmək imkanı;

c) bütün həbsdə saxlanma yerlərinə, onların binalarına və obyektlərinə buraxılış;

d) azadlıqdan məhrum edilmiş şəxslərlə şahidsiz, şəxsən və ya zərurət olduqda tərcüməçi vasitəsilə, habelə milli preventiv mexanizmin fikrinə gö-rə aidiyyəti məlumatı verə biləcək istənilən digər şəxslə fərdi söhbətlər apar-maq imkanı;

e) baş çəkmək niyyətində olduqları yerləri və söhbət etmək niyyətində olduqları şəxsləri maneəsiz seçmək hüququ;

f) Qarşısını alma üzrə Altkomitə ilə əlaqələr qurmaq, ona məlumat ötür-mək və onunla görüşmək hüququ.

***Maddə 21***

1. Heç bir orqan və ya vəzifəli şəxs milli preventiv mexanizmə verilən hər hansı, istər doğru, istərsə də yalan məlumatın bildirilməsinə görə istəni-lən şəxs və ya təşkilata münasibətdə hər hansı sanksiyanı teyin edə, tətbiq edə, icazə verə və ya yol verə bilməz və hər hansı belə şəxs və ya təşkilat digər şəkildə sıxışdırıla bilməz.

2. Milli preventiv mexanizm tərəfindən toplanmış konfidensial məlumat açıqlanmır. Şəxsi xarakter daşıyan məlumatlar yalnız müvafiq şəxsin bir-başa ifadə edilən razılığı olduğu təqdirdə dərc edilir.

*Maddə 22*

Müvafiq iştirakçı dövlətin səlahiyyətli orqanları milli preventiv mexa-nizmin tövsiyələrini araşdırır və onların tətbiqi üzrə mümkün təbirlərlə bağlı dialoq aparır.

***Maddə 23*** Hazırkı Protokolun iştirakçı dövlətləri milli preventiv mexa-nizmlərinin illik hesabatlarının dərc etməyi və yaymağı öhdələrinə götürür.

## V HİSSƏ

## BƏYANAT

*Maddə 24*

1. Ratifikasiyadan sonra iştirakçı dövlətlər hazırkı Protokolun III Hissə-sinə və ya IV Hissəsinə uyğun olaraq öz öhdəliklərinin yerinə yetirilməsinin təxirə salınması ilə bağlı bəyanat verə bilər.

2. Belə təxirə salınma ən çoxu üç il müddətində qüvvədə qalır. İştirakçı dövlət tərəfindən müvafiq materialların təqdim edilməsindən və Qarşısını al-ma üzrə Altkomitə ilə məsləhətləşmələrdən sonra İşgəncələrə qarşı Komitə bu müddəti daha iki il uzada bilər.

## VI HİSSƏ

## MALİYYƏ MÜDDƏALARI

*Maddə 25*

1. Hazırkı Protokolun həyata keçirilməsi zamanı Qarşısını alma üzrə Altkomitə tərəfindən sərf edilmiş xərclər Birləşmiş Millətlər Təşkilatı tərə-findən ödənilir.

2. Birləşmiş Millətlər Təşkilatının Baş katibi hazırkı Protokola uyğun olaraq Qarşısını alma üzrə Altkomitəni funksiyalarını səmərəli şəkildə yeri-nə yetirməsi üçün zəruri işçi heyət və vəsaitlə təmin edir.

*Maddə 26*

1. Başçəkmədən sonra Qarşısı alma üzrə Altkomitə tərəfindən iştirakçı dövlətə irəli sürülmüş tövsiyələrin həyata keçirilməsi və milli preventiv mexanizmləri üçün tədris proqramlarının maliyyələşdirilməsi məqsədilə Baş Assambleyanın müvafiq proseduruna uyğun olaraq Birləşmiş Millətlər Təşkilatının maliyyə müddəaları və qaydaları əsasında idarə olunan Xüsusi Fond yaradılır.

2. Bu Xüsusi Fond hökumətlər, hökumətlərarası, qeyri-hökumət və digər özəl və ya dövlət qurumları tərəfindən ödənilən könüllü ödəmələr hesabına maliyyələşə bilər.

## VII HİSSƏ

## YEKUN MÜDDƏALAR

***Maddə 27***

1. Hazırkı Protokol Konvensiyanı imzalamış istənilən dövlətə imzalan-maq üçün açıqdır.

2. Hazırkı Protokol Konvensiyanı ratifikasiya etmiş və ya ona qoşulmuş istənilən dövlət tərəfindən ratifikasiya olunmalıdır. Ratifikasiya fərmanları saxlanılması üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verilir.

3. Hazırkı Protokol Konvensiyanı ratifikasiya etmiş və ya ona qoşulmuş istənilən dövlətə qoşulmaq üçün açıqdır.

4. Qoşulma bu haqda sənədin saxlanılması üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verilməsi yolu ilə həyata keçirilir.

5. Birləşmiş Millətlər Təşkilatının Baş katibi hər bir ratifikasiya fərma-nının və ya qoşulma haqqında sənədin saxlanılması üçün təhvil verilməsi barədə hazırkı Protokolu imzalamış və ya ona qoşulmuş bütün dövlətləri məlumatlandırır.

***Maddə 28***

1. Hazırkı Protokol 20-ci ratifikasiya fərmanı və ya qoşulma haqqında sənəd saxlanılması üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verildikdən sonra otuzuncu gün qüvvəyə minir.

2. Hazırkı Protokol iyirminci ratifikasiya fərmanı və ya qoşulma haqqın-da sənəd saxlanılması üçün təhvil verildikdən sonra onu ratifikasiya edən, yaxud ona qoşulan hər bir dövlət üçün həmin dövlət öz ratifikasiya fərma-nını, yaxud qoşulma haqqında sənədini saxlanılması üçün təhvil verdikdən sonra otuzuncu gün qüvvəyə minir.

***Maddə 29***

Hazırkı Protokolun müddəaları heç bir məhdudiyyət və istisna olmadan federativ dövlətlərin bütün hissələrinə şamil olunur.

***Maddə 30***

Hazırkı Protokola dair hər hansı qeyd-şərtlərə yol verilmir.

***Maddə 31***

Hazırkı Protokolun müddəaları saxlanma yerlərinə başçəkmə sisteminə əsaslanan istənilən regional konvensiyalar üzrə iştirakçı dövlətlərin öhdə-liklərinə toxunmur. Təkrarlanmadan yayınmaq və hazırkı Protokolun məq-sədlərinə səmərəli nail olunmasını təmin etmək üçün Qarşısını alma üzrə Altkomitəyə və belə regional konvensiyalara uyğun olaraq təsis edilmiş orqanlara məsləhətləşmələr aparmaq və əməkdaşlıq etmək təklif olunur.

*Maddə 32*

Hazırkı Protokolun müddəaları 12 avqust 1949-cu il tarixli dörd Cenevrə Konvensiyası və onlara dair 8 iyun 1977-ci il tarixli Əlavə Protokollar üzrə iştirakçı dövlətlərin öhdəliklərinə, habelə beynəlxalq humanitar hüquqla əhatə olunmayan vəziyyətlərdə iştirakçı dövlətin Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən saxlanma yerlərinə baş çəkməyə icazə vermək hüqu-quna toxunmur.

*Maddə 33*

1. Hər hansı iştirakçı dövlət Birləşmiş Millətlər Təşkilatının Baş katibinə yazılı bildiriş göndərməklə hazırkı Protokolu denonsasiya edə bilər. Bundan sonra Baş katib hazırkı Protokolun və Konvensiyanın iştirakçı dövlətlərini bu barədə məlumatlandırır. Denonsasiya Baş katib belə bildiriş aldıqdan bir il sonra qüvvəyə minir.

2. Belə denonsasiya iştirakçı dövləti denonsasiya qüvvəyə mindiyi tarixə qədər baş verə bilən hər hansı hərəkətinə və ya vəziyyətinə görə və ya Qarşısını alma üzrə Altkomitə tərəfindən aidiyyəti iştirakçı dövlətə müna-sibətdə qət edilən və ya qət edilə bilən tədbirlərə görə hazırkı Protokol üzrə öhdəliklərindən azad etmir və denonsasiya qüvvəyə mindiyi tarixə qədər Altkomitədə baxılmış hər hansı məsələnin davam edən baxışına heç bir hal-da xələl gətirmir.

3. İştirakçı dövlət tərəfindən bəyan edilmiş denonsasiyanın qüvvəyə mindiyi tarixdən sonra Qarşısını alma üzrə Altkomitə həmin dövlətə aid yeni məsələnin baxılmasına başlaya bilməz.

*Maddə 34*

1. Hər hansı iştirakçı dövlət hazırkı Protokola dair düzəliş təklif edə və onu Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təqdim edə bilər. Bundan sonra Birləşmiş Millətlər Təşkilatının Baş katibi təklif olunmuş düzəlişi hazırkı Protokolun iştirakçı dövlətlərinə göndərərək, bu təklifə baxmaq və onu səsə qoymaq məqsədilə iştirakçı dövlətlərin konfransının çağırılmasına razı olub-olmamalarını ona bildirməyi xahiş edir. Bu məktubun göndərildiyi tarixdən keçən dörd ay ərzində iştirakçı dövlətlərdən ən azı üçdə biri belə konfransın çağırılmasına razılıq verdiyi təqdirdə Baş katib Birləşmiş Millət-lər Təşkilatının himayəsi ilə konfrans çağırır. Baş katib bu konfransda və səsvermədə iştirak edən iştirakçı dövlətlərin üçdə ikisinin çoxluğu ilə qəbul edilən hər hansı düzəlişi təsdiq üçün bütün iştirakçı dövlətlərə gön-dərir.

2. Bu Maddənin 1-ci bəndinə müvafiq olaraq qəbul edilmiş düzəliş hazırkı Protokolun iştirakçı dövlətlərinin üçdə ikisi həmin düzəlişi öz konstitusiya prosedurlarına uyğun qəbul etdiklərini Birləşmiş Millətlər Təşkilatının Baş katibinə bildirdikdən sonra qüvvəyə minir.

3. Düzəlişlər qüvvəyə mindikdən sonra, onları qəbul etmiş iştirakçı döv-lətlər üçün məcburi olur, digər iştirakçı dövlətlər üçün isə qəbul etmiş ol-duqları hazırkı Protokolun müddəaları və əvvəlki düzəlişlər məcburi olaraq qalır.

*Maddə 35*

Qarşısını alma üzrə Altkomitənin üzvlərinə və milli preventiv mexanizmlərinin üzvlərinə onların funksiyalarının müstəqil şəkildə yerinə yetiril-məsi üçün zəruri olan imtiyaz və immunitetlər verilir. Altkomitənin üzvlə-rinə Birləşmiş Millətlər Təşkilatının imtiyaz və immunitetləri haqqında 13 fevral 1946-cı il tarixli Konvensiyasının 23-cü fəslinin müddəalarına əməl olunmaqla, həmin Konvensiyanın 22-ci fəslində sadalanan imtiyaz və immunitetlər verilir.

*Maddə 36*

İştirakçı dövlətə baş çəkərkən Qarşısını alma üzrə Altkomitənin üzvləri hazırkı Protokolun müddəa və məqsədlərinə və istifadə edə biləcəkləri imtiyaz və immunitetlərə xələl gətirmədən:

a) baş çəkilən dövlətin qanun və normalarına riayət edir;

b) vəzifələrinin qərəzsiz və beynəlxalq xarakteri ilə bir araya sığmayan hər hansı hərəkət və fəaliyyətdən çəkinir.

*Maddə 37*

1. İngilis, ərəb, ispan, çin, rus və fransız dillərindəki mətnləri bərabər olaraq autentik olan hazırkı Protokol saxlanılması üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verilir.

2. Birləşmiş Millətlər Təşkilatının Baş katibi hazırkı Protokolun təsdiq edilmiş nüsxələrini bütün dövlətlərə göndərir.